Xalqın qəzeti!

# Xalq qəzeti

№ 29 (30998) 14 fevral 2026-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# “Yeni dünya nizamı “kim güclüdür, o da haqlıdır” anlamına gəlməməlidir”

## Prezident İlham Əliyev Almaniyaya səfərə gəlib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün birinci xanım Mehriban Əliyeva ilə birlikdə fevralın 13-də Almaniya Federativ Respublikasına səfərə gəlib.**

## “Şahdəniz” yatağında yeni mərhələ başlanır



Səhifə ⇨ 8

## Milli turizm təhsilinin uğurları və yeni hədəfləri



Səhifə ⇨ 13

## İrəvanın suveren seçimi Moskvanı narahat edir

*Kreml yenə təzyiq ritorikasına qayıdır?*

**Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ-ın Vitse-prezidenti Ceyms Devid Vens fevralın 9-da İrəvanda “Ermənistan Respublikası hökuməti ilə ABŞ hökuməti arasında nüvə enerjisindən dinc məqsədlərlə istifadə sahəsində əməkdaşlıq haqqında saziş üzrə danışıqların başa çatdırılmasına dair Birgə Bəyanat” imzalayıblar.**



Paşinyan imzalanma mərasimindən sonra keçirilən mətbuat konfransında bildirib: “Bu saziş Ermənistan və ABŞ arasında enerji tərəfdaşlığının dərinləşdirilməsində yeni səhifə açacaq və təhlükəsiz, innovativ texnologiyaların tətbiqi hesabına Ermənistanın enerji resurslarının şaxələndirilməsinə töhfə verəcək. Mən həmçinin, ABŞ-a nüvə təhlükəsizliyi sahəsində Ermənistana uzun illər göstərdiyi dəstəyə görə təşəkkürümü bildirdim və hər iki ölkə üçün mühüm əhəmiyyət kəsb edən sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsinə hazır olduğumuzu ifadə etdim”.

*(ardı 4-cü səhifədə)*

## Avropa güc və nizam axtarışında



*Onun yeni kursu və texnoloji suverenliyi bu məqsədə xidmət edir*

**Avropa İttifaqı (Aİ) daxilində artan fikir ayrılıqları yeni strateji yanaşmaların formalaşmasına səbəb olub. Enerji təhlükəsizliyi, sənaye rəqabətliliyi, texnoloji müstəqillik və müdafiə məsələlərində üzv ölkələr arasında müxtəlif baxışların mövcudluğu Brüsseli daha sistemli və uzunmüddətli planlar üzərində düşünməyə vadar edir.**

Bu kontekstdə Aİ ölkələri tərəfindən irəli sürülən “Buy European” (Avropanı al) təşəbbüsü xüsusi əhəmiyyət kəsb edir. Təşəbbüsün əsas məqsədi strateji sahələrdə Avropa istehsalına üstünlük verilməsi, daxili sənaye potensialının gücləndirilməsi və qlobal rəqabət qabiliyyətinin artırılmasıdır. Xüsusilə yeni texnologiyalar, süni intellekt və kosmos sənayesi prioritet istiqamətlər kimi müəyyən edilib.

*(ardı 5-ci səhifədə)*

## Münxen dünyanı sabitlik və sülhə çağırır



Səhifə ⇨ 5

## Kremlin Cənubi Qafqazdakı dayaqları çökür



Səhifə ⇨ 5

## Rusiya niyə TRIPP “atır”?



Səhifə ⇨ 4

## Paytaxtda böyük şəhər bələdiyyəsi ideyası



Səhifə ⇨ 6

## Transxəzər rəqəmsal körpüsü



Səhifə ⇨ 7

## Dağ yolları da rəqəmsallaşır



Səhifə ⇨ 8

## İş-gücsüz qalmasın bircə insan da



Səhifə ⇨ 9

## Prezident İlham Əliyev Münxendə İraq Kürdüstan Regionunun başçısı ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münxendə İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə görüşüb.**

Söhbət zamanı Neçirvan Bərzaninin Azərbaycana səfərləri, həmçinin dövlətimizin başçısı ilə görüşləri məmnunluqla xatırlanaraq, bütün bunların əməkdaşlığın perspektivlərinin müzakirəsi baxımından yaxşı imkan yaratdığı bildirildi.

Azərbaycan Prezidenti və İraq Kürdüstan Regionunun başçısı iqtisadi, ticari, mədəni, humanitar sahələrdə əlaqələrin inkişafı ilə bağlı fikir mübadiləsi apardılar, qarşılıqlı maraq doğuran məsələləri müzakirə etdilər.

Dövlətimizin başçısı Neçirvan Bərzanini ölkəmizə səfərə dəvət etdi. İraq Kürdüstan Regionunun başçısı dəvəti məmnunluqla qəbul etdi.

## Azərbaycan Prezidenti Münxendə “Oracle” korporasiyasının baş icraçı direktoru ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münxendə dünyada ən böyük proqram təminatı və bulud texnologiyaları şirkətlərindən biri olan ABŞ-ın “Oracle” korporasiyasının baş icraçı direktoru Mayk Sisiliya ilə görüşüb.**

Söhbət zamanı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə texnoloji transformasiya və süni intellekt sahələrinin inkişafı üzrə həyata keçirilən siyasətə toxunuldu, bu xüsusda “Oracle” korporasiyası ilə əməkdaşlığın genişləndirilməsində qarşılıqlı marağın olduğu bildirildi və tərəfdaşlığın perspektivləri ilə bağlı artıq çərçivə razılaşmasının əldə edildiyi vurğulandı.

“Oracle” şirkətinin Azərbaycanda dövlət və özəl müəssisələrə bir sıra xidmətlərin göstərilməsi ilə bağlı uzunmüddətli əməkdaşlıq məsələləri müzakirə olundu. Azərbaycanın müxtəlif aparıcı ali təhsil müəssisələrində üç “Oracle” akademiyasının fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparıldı.

Görüşdə, eyni zamanda, Azərbaycan-ABŞ siyasi əlaqələrinin yüksək səviyyədə olduğu qeyd edildi, bu xüsusda “Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası”nın imzalanmasının əhəmiyyətinə toxunuldu. Həmin sənəddə də ölkələrimiz arasında süni intellekt sahəsinin prioritet istiqamət kimi əks olunduğu vurğulandı.

## Xarici işlər naziri Münxen Təhlükəsizlik Konfransında Tramp Marşrutu layihəsinin əhəmiyyətindən danışıb




**Fevralın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Münxen Təhlükəsizlik Konfransı çərçivəsində “Avrasiyanın Strateji Nizamının Müəyyənləşdirilməsi: Orta Dəhliz - Sabitlik, Sülh, Təhlükəsizlik və Bağlantılar üzrə Avropa Təhlükəsizlik Gündəliyi” mövzusunda panel müzakirələrində çıxış edib. Paneldə, həmçinin Gürcüstanın xarici işlər naziri Maka Botçorişvili və Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odile Reno-Basso çıxış ediblər.**

Ceyhun Bayramov Cənubi Qafqazda davamlı sülh və təhlükəsizliyin təmin olunması istiqamətində ölkəmizin mövqeyi və xüsusilə də tarixi Vaşinqton Sammitindən sonra atılan addımlar, Azərbaycanın regional təhlükəsizlik və sabitlik istiqamətində həyata keçirdiyi siyasət barədə ətraflı məlumat verib. Ermənistana istiqamətlənən yüklərə münasibətdə tranzit məhdudiyyətlərinin aradan qaldırılması, Azərbaycandan Ermənistana neft məhsullarının satışı istiqamətində atılan addımların son onilliklər ərzində görünməmiş dərəcədə sabit mühitin formalaşmasına töhfə verdiyi qeyd edilib.

Tərəflər arasında paraflanmış sülh sazişinin imzalanması və normallaşma gündəliyinin daha da irəli aparılması baxımından Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması və Vaşinqton Bəyannaməsinə uyğun olaraq Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu (TRIPP) layihəsinin icrasında real irəliləyişin əldə olunmasının mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Nazir panel müzakirələrində, həmçinin Azərbaycanın Orta Dəhlizin gücləndirilməsi istiqamətində həyata keçirdiyi genişmiqyaslı infrastruktur işləri, investisiyaları və regional tərəfdaşlarla normativ-hüquqi əlaqələndirmə tədbirləri barədə məlumat verib.

TRIPP təşəbbüsü də daxil olmaqla inklüziv bağlantı layihələrinin əhəmiyyəti diqqətə çatdırılıb, bu çərçivədə Avropa İttifaqının daha fəal iştirak potensialı, Türkiyənin və Gürcüstanın da regional nəqliyyat əlaqələrinin inkişafında vacib rolu qeyd edilib.

Bununla yanaşı, regional bağlantıların inkişafı istiqamətində ölkəmizin Mərkəzi Asiya ilə həyata keçirdiyi birgə layihələr və səylər diqqətə çatdırılıb.

Panel müzakirələri daha sonra sual-cavab sessiyası ilə davam edib.

***XQ***

## Prezident İlham Əliyevin Münxendə Slovakiya Baş nazirinin müavini ilə görüşü olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münxendə Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri Robert Kalinak ilə görüşüb.**

Söhbət zamanı Azərbaycan Prezidentinin ötən ilin dekabrında Slovakiyaya rəsmi səfəri məmnunluqla xatırlanaraq, yüksəksəviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafına mühüm töhfə verdiyi vurğulandı.

Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlıq xarakteri daşıyan ikitərəfli münasibətlərin qarşılıqlı anlaşma və dəstəyə əsaslandığı vurğulandı, müxtəlif istiqamətlərdə əməkdaşlığın genişləndirilməsi üçün imkanların olduğu bildirildi, bu xüsusda hərbi-texniki sahədə tərəfdaşlığın inkişafından məmnunluq ifadə edildi, bu tərəfdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyevin Münxendə Azərbaycan telekanallarına müsahibəsi




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münxendə Azərbaycan telekanallarına müsahibə verib.**

**REAL Televiziyası: Cənab Prezident, bizə vaxt ayırdığınız üçün təşəkkür edirik. Budəfəki Münxen Təhlükəsizlik Konfransında Azərbaycanın mesajı nə olacaq?**

**Prezident İlham Əliyev:** Həmişə olduğu kimi, bizim mesajımız əməkdaşlığa, sülhə istiqamətləndirilib. İlk dəfədir ki, mən bu tədbirdə artıq sülhü əldə etmiş dövlət başçısı kimi iştirak edirəm. Əlbəttə, bu məsələ burada yəqin ki, gündəlikdə olacaq. Ona görə bizim mesajlarımız həmişə olduğu kimi, çox açıqdır, aydındır - əməkdaşlıq, sülh, tərəfdaşlıq. Təbii ki, Azərbaycanın həm təhlükəsizlik sahəsində artan rolu, bizim imkanlarımız, eyni zamanda, iqtisadi inkişaf, enerji təhlükəsizliyi, nəqliyyat, bağlantılar, süni intellekt – yəni bütün bu məsələlər bu gün dünyanın əsas gündəliyini təşkil edir. Ona görə Azərbaycan da bu sahələrdə geridə qalmır.

**İctimai Televiziya: Cənab Prezident, bu il Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması gözlənilirmi?**

**Prezident İlham Əliyev:** Bilirsiniz ki, bu, bizdən asılı deyil. Bizim mövqeyimiz artıq uzun illər ərzində Ermənistan tərəfinə çatdırılıb. Ermənistanın Konstitusiyasına lazımi dəyişikliklər edilməlidir. O dəyişikliklər edilən kimi, ertəsi gün biz sülh müqaviləsini imzalaya bilərik. Amma buna baxmayaraq, mən hesab edirəm ki, artıq Ermənistanla Azərbaycan arasında sülh əldə edilib. Vaşinqton Zirvə Görüşündəki razılaşmalar, imzalanmış Birgə Bəyannamə və sülh müqaviləsinin paraflanması de-fakto sülh deməkdir. Bunun formal tərəfi Ermənistandan asılıdır. Konstitusiyaya nə qədər tez dəyişiklik edilərsə və Azərbaycana qarşı olan ərazi iddiası oradan çıxarılarsa, sülh müqaviləsi o qədər də tez imzalanacaq.

**AnewZ Televiziyası: Cənab Prezident, bu gün danışdığımız hər kəs köhnə dünya nizamının dağıldığını və yeni dünyanın peyda olacağını deyir, lakin o, hələ də peyda olmayıb. Sadəcə, bir neçə həftə bundan öncə Davosda Siz “Sülh Şurasının Nizamnaməsi”ni imzaladınız. Azərbaycan qurumun təsisçi üzvüdür. Bir neçə gündən sonra isə Vaşinqtonda daha bir görüş olacaq. Yeni dünya nizamının potensial elementi olaraq bu təşkilat haqqında nə düşünürsünüz?**

**Prezident İlham Əliyev:** Bilirsiniz, əgər xatırlayırsınızsa, mən bu haqda danışmışam, ola bilsin, təfərrüatı ilə yox, amma, ümumiyyətlə, demişəm ki, beynəlxalq hüquq artıq etibarlı deyil. Ölkələr, bir çox ölkələr ona sadəcə məhəl qoymurdu. Yalnız beynəlxalq hüquqa arxalanmaq probleminizi həll etməyəcək. Azərbaycanın nümunəsi isə bunu həqiqətən nümayiş etdirir. Beləliklə, yeni dünya nizamının və ya hökumətlərarası münasibətlər üzrə yeni sistemin peyda olması, əlbəttə ki, işlənilmə mərhələsində idi. Məsələ onda idi ki, ilk addımı atmaq üçün kim üzərinə məsuliyyət götürəcək. Hesab edirəm ki, böyük gələcəyi olan təşkilatın - Sülh Şurasının yaradılması təşəbbüsü ilə çıxış etməklə Prezident Tramp böyük bir iş gördü.

Əlbəttə ki, hər şey gündəlikdən asılı olacaq. Bildiyiniz kimi, birinci sammit tezliklə baş tutacaq. Hər kəsə sammitin gündəliyinin nədən ibarət olduğunu və nəticənin nə olacağını bilmək maraqlıdır. Lakin artıq daha çox ölkələr dərk edirlər ki, onlar hökumətlərarası münasibətlərə, təhlükəsizliyə, beynəlxalq təsisatların fəaliyyətinə dair yanaşmalarını yenidən nəzərdən keçirməlidirlər. Biz Birləşmiş Millətlər Təşkilatının tamamilə iflic vəziyyətə düşdüyünü görürük. O, hər hansı bir məsələyə təsir göstərə bilməyəcək. Alternativ də yoxdur. Ümidvarıq ki, biz birgə fəaliyyət zamanı daha çox sağlam düşüncəni görəcəyik. Çünki yeni dünya nizamı “kim güclüdür, o da haqlıdır” anlamına gəlməməlidir. Yeni dünya nizamı sivil dünyanın münasibətləri və beynəlxalq nizamın yeni mexanizmləri deməkdir.

**CBC Televiziyası: Cənab Prezident, Münxen Təhlükəsizlik Konfransının proqramına əsasən, sabah nəqliyyat dəhlizlərinə həsr olunmuş panel sessiyasında Sizin iştirakınız gözlənilir. Azərbaycan Avropa ilə Asiya arasında nəqliyyat dəhlizlərinin formalaşdırılmasında öz rolunu necə görür?**

**Prezident İlham Əliyev:** Biz artıq uzun müddətdir ki, dəhlizlərin yaradılmasının təşəbbüskarıyıq – enerji dəhlizlərindən başlayaraq, nəqliyyat dəhlizləri ilə davam edərək, hazırda isə artıq elektrik və fiber-optik dəhlizləri də əhatə etməklə. Buna görə də ölkəmizin potensialı möhkəmləndikcə, beynəlxalq əlaqələr inkişaf etdikcə, biz bir növ mövcud bağlantı konsepsiyasına yeni elementlər əlavə edirik.

Əgər neft və qaz kəmərlərini artıq reallaşmış fakt hesab etmək olarsa, baxmayaraq ki, qaz nəqli infrastrukturu¬muzun genişləndirilməsinə ehtiyac var, əgər dəmir yolu əlaqələri ilə bağlı məsələlərin qismən həll olunduğunu nəzərə alsaq və Azərbaycanın nə tranzit daşımaların təmin edilməsində, nə də öz məhsullarının ixracında xüsusi çətinliklərlə üzləşmədiyini qeyd etsək, - hərçənd, Zəngəzur dəhlizi buna əlavə töhfə olacaq, - o zaman elektrik kabelləri, fiber-optik kabellər, məlumat mərkəzlərinin və süni intellektin fəaliyyəti nəticəsində informasiyanın ötürülməsi və tranziti ilə bağlı məsələlər hazırda konkret olaraq məşğul olduğumuz sahələrdir.

Bizim çox üstünlüklərimiz var: coğrafiya, həm Qərbdə, həm də Şərqdə qonşularla sıx əlaqələr, elektrik enerjisinin artıqlığı, hazırlıqlı kadrlar və bir çox digər üstünlüklər. Buna görə də bu gün Azərbaycan həm Şərqdə, həm də Qərbdə ehtiyac duyulan ölkədir. Azərbaycanın öz təhlükəsizliyini və suverenliyini öz gücü ilə təmin etməsi nəzərə alınmaqla, təbii ki, ölkəmizin beynəlxalq nüfuzu daha da artıb. Buna görə də biz dəhlizlər haqqında danışarkən, əlbəttə ki, bu məsələyə daha geniş baxmalıyıq: yalnız dəmir yolu və yalnız avtomobil yolu deyil, həm də bağlantını təmin edən və müasir dünyanın tələblərinə cavab verən bütün istiqamətlər nəzərdə tutulmalıdır. Sağ olun.

***AZƏRTAC***

# Prezident İlham Əliyev Münxendə "France 24" telekanalına müsahibə verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münxendə "France 24" telekanalına müsahibə verib.**



**Müxbir:** ***Salam, "France 24" kanalının flaqmanı olan "Üzbəüz" verilişinə xoş gəlmisiniz. Bu gün bizim qonağımız Azərbaycan Prezidenti İlham Əliyevdir. Çox sağ olun, cənab Prezident.***

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm.

**Müxbir:** ***Avqustun 8-də Sizin, Ermənistanın Baş naziri Nikol Paşinyanın və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Ağ Evdə üçtərəfli görüş keçirildi. Azərbaycan ilə Ermənistan arasında münaqişəyə son qoymaq, nəqliyyat marşrutlarının açılması və münasibətlərin normallaşdırılması haqqında bəyannamə imzalandı. Tam sülhün və tam normallaşmanın tezliklə olacağını düşünürsünüzmü?***

**Prezident İlham Əliyev:** Bəli, elə düşünürəm. Çünki bu tarixi sənədin Ağ Evdə Amerika Birləşmiş Ştatları Prezidentinin iştirakı ilə imzalanması o deməkdir ki, münaqişə bitib və biz daimi olacağına ümid etdiyimiz sülh dövrünə qədəm qoymuşuq. Yeri gəlmişkən, ABŞ Prezidenti Birgə Bəyannaməni də şahid qismində imzalamışdır. O vaxtdan bəri altı aydan çox müddət keçib və bizim Ermənistanla sərhəddə vəziyyət çox sakitdir. Artıq atəş açılmır, qurban vermirik, yaralananlar olmur. Azərbaycan birtərəfli qaydada Ermənistana malların tranziti üzərində olan məhdudiyyətləri aradan qaldırdı. Biz, həmçinin Ermənistana vacib neft məhsullarını təchiz etməyə başladıq və bununla da bizim ticari münasibətlərimiz başladı. Beləliklə, görə bilərik ki, artıq sülhə nail olunub. Yekun sülh sazişini imzalamaq üçün müəyyən formal xarakter daşıyan məsələlər var. Lakin qeyd etdiyiniz bəyannamə ilə yanaşı, hər iki ölkənin xarici işlər naziri Vaşinqtonda sülh sazişinin mətnini də parafladılar. Beləliklə, mənim üçün bu, artıq bitmiş işdir. Hesab edirəm ki, Ermənistanın Baş naziri də mənimlə eyni fikirdədir. Biz elə indi sülh şəraitində yaşamağı öyrənirik və bu, çox yaxşı bir hissdir.

**Müxbir:** ***Bu, çox yaxşı bir hissdir. Lakin tam normallaşma üçün nə çatışmır? Belə başa düşürəm ki, Azərbaycan üçün məsələ Ermənistanın Konstitusiyası və orada Qarabağa aid ərazi iddiaları ilə bağlı mətnlə əlaqədardır. Bu, Sizin üçün mütləq qırmızı xətt deməkdir? Bu dəyişməsə, normallaşma olmayacaq?***

**Prezident İlham Əliyev:** Bəli, siz haqlısınız. Bu olmasa, sülh sazişi imzalanmayacaq. Mən normallaşmanı rəsmi sülh sazişindən ayırardım, çünki normallaşma artıq baş verir. Qeyd etdiyim kimi, müsbət məcrada inkişaf edən bütün hadisələr bunu göstərir. Lakin Ermənistanın Konstitusiyasında, - hansı ki, Qarabağın işğal altında olduğu dövrdə, uzun müddət bundan öncə qəbul olunmuşdur, - Ermənistanın İstiqlaliyyət Bəyannaməsinə istinad var. Orada da "qondarma Dağlıq Qarabağ və Ermənistan birləşməlidir" məzmunlu paraqraf var. Beləliklə, bu, Azərbaycana ərazi iddiasıdır. İkinci Qarabağ müharibəsinin bitməsindən sonra uzun illər ərzində bizim mövqeyimiz çox aydın olub. O dəyişilməlidir. Mən bildiyimə görə, Ermənistan referendum keçirməyi planlaşdırır. Bu olan kimi sülh sazişinin rəsmi imzalanmasına heç bir maneə qalmayacaq. Lakin yenə də vurğulamaq istəyirəm ki, Azərbaycan üçün sülh əldə olunub. Normallaşma prosesi uğurla irəliləyir və ümid edirəm ki, formal xarakter daşıyan bu hüquqi məsələlər tamamlanan kimi bizdə rəsmən sülh olacaq.

**Müxbir:** ***Bu il?***

**Prezident İlham Əliyev:** Sözsüz ki.

**Müxbir:** ***Vitse-prezident Cey. Di. Vens hər iki ölkəyə səfər edib. Strateji tərəfdaşlıq münasibətləri elan edilib və bu tərəfdaşlıq çərçivəsində ABŞ indi Azərbaycana bütün növ silahları satacaq. Həmçinin TRIPP layihəsi, yaxud Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu var. Bu, Ermənistandan keçən və eksklavınız olan Naxçıvana gedən magistral yol və dəmir yoludur. Bu, sadəcə boş ümidlərdir, yoxsa həqiqətən baş verəcək və dinamikanı dəyişəcək?***

**Prezident İlham Əliyev:** Məndə bunun baş verəcəyinə dair heç bir şübhə yoxdur. Bunun səbəblərindən biri də odur ki, Amerika Birləşmiş Ştatları bu prosesdə çox vacib rol oynayır. Azərbaycanın iki ərazisini Ermənistan ərazisindən birləşdirəcək və hətta Avropa qitəsinə qədər uzanacaq marşrut Prezident Trampın adını daşıyır. Bu, Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutudur. Düşünürəm ki, ABŞ Prezidentinin şəxsən öz üzərinə götürdüyü bu öhdəlik və ABŞ hökumətinin gündəliyi TRIPP-in inşa olunacağını göstərir. Bu, böyük məsafə deyil, cəmi 40 kilometrdən çoxdur. Yeri gəlmişkən, demək istərdim ki, hazırda Azərbaycanın paytaxtdan Ermənistan sərhədinədək inşa etməkdə olduğu dəmir yolu təxminən 400 kilometrdir. Üstəlik demək olar ki, 200 kilometrlik hissə bizim Naxçıvan eksklavında bərpa olunacaq. Beləliklə, bizim adlandırdığımız kimi, Zəngəzur dəhlizinin Ermənistan seqmenti çox qısadır. Əminəm ki, bu, həyata keçiriləcək.

Vitse-prezident Vensin səfəri ilə bağlı suala gəldikdə isə bəli, bu, çox mühüm bir səfər idi. Birləşmiş Ştatların Vitse-prezidentinin səfəri özlüyündə istənilən ölkə üçün əhəmiyyətlidir. Hazırkı vəziyyətdə bu, Birləşmiş Ştatlar və Azərbaycan hökumətləri arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın imzalanması ilə əlamətdar oldu. Beləliklə, biz dünyanın ən güclü ölkəsinin rəsmi strateji tərəfdaşı olduq və bunu ölkəmiz üçün böyük uğur hesab edirik.

Bu Strateji Xartiya mətbuatda dərc olundu, o, müxtəlif bölmələrdən ibarətdir. Onlardan biri müdafiə məhsullarının satışı ilə bağlıdır, amma təkcə bu deyil. Buraya enerji, rabitə, süni intellekt, investisiya və ticarət daxildir, həmçinin Azərbaycana silah tədarükü ilə bağlı bütün məhdudiyyətlər aradan qaldırılıb.

**Müxbir:** ***Ölkənizdə hərbi məhkəmənin Qarabağ bölgəsinin 13 şəxsinə ağır həbs cəzaları, o cümlədən keçmiş liderinə ömürlük həbs cəzası verməsinə dair qərarına toxunmaq istəyirəm. ABŞ Vitse-prezidentinin bu məsələ ilə bağlı danışdığı və bölgədə sülhə nail olunması məqsədilə Sizdən bəlkə də onları əfv etməyinizi istədiyi barədə məlumatlar var idi. O, bunu edibmi və Siz bunu edəcəksinizmi?***

**Prezident İlham Əliyev**: Vitse-prezidentlə bir neçə saat davam edən görüş zamanı digər məsələlərlə yanaşı, bu məsələ də onun tərəfindən qaldırıldı və mən bu məsələ ilə bağlı Azərbaycanın mövqeyini ifadə etdim, vəssalam. Biz, əsasən, ikitərəfli əlaqələri, regional inkişafı, TRIPP və Ermənistanla rəsmi sülh perspektivlərini müzakirə etdik. Qeyd etdiyiniz bu insanlara gəldikdə isə, onlar bizim ərazimizdə, Ermənistan da daxil olmaqla bütün beynəlxalq ictimaiyyət tərəfindən tanınan suveren Azərbaycan dövlətinin ərazisində qanunsuz fəaliyyət göstərən separatçı rejimin liderləridir.

Bu insanlar uzun illər ərzində azərbaycanlılara və Azərbaycana qarşı törədilən bütün müharibə cinayətlərinin təşkilatçıları olublar və məsuliyyətə cəlb ediliblər. Onlar bizim həyata keçirdiyimiz hərbi əməliyyat nəticəsində Qarabağda saxlanılıb məsuliyyətə cəlb olunublar. Onlar vəkillərlə təmin ediliblər. Məhkəmə prosesi tamamilə şəffaf keçib. Onların cinayətləri şahid ifadələri, çoxsaylı ifadələrlə sübuta yetirilib, hər hansı qanun pozuntusundan söhbət gedə bilməz.

**Müxbir:** ***Cənab Prezident, bəs Siz bununla bağlı nə isə edə bilərsinizmi?***

**Prezident İlham Əliyev:** Siz nəyi nəzərdə tutursunuz?

**Müxbir:** ***Yeni səhifə açıb onları əfv edə və ya buna bənzər nə isə bir jest edə bilərsiniz. Bu, Sizin səlahiyyətiniz daxilindədir.***

**Prezident İlham Əliyev:** Bilirsiniz, bu insanlar bəşəriyyətə qarşı ağır cinayətlər törədiblər. İkinci Dünya müharibəsindən sonra Nürnberq məhkəmələrində ölüm hökmünə məhkum edilmiş bütün o nasist liderlərini təsəvvürünüzə gətirin ki, iki aydan sonra kimsə gəlib deyəcək, xahiş edirəm, onları azad edin.

**Müxbir:** ***Bu, Sizin üçün eyni şeydir?***

**Prezident İlham Əliyev:** Bəli, tamamilə. Hətta daha da pisdir, daha da pisdir. Onların törətdiyi cinayət İkinci Dünya müharibəsi zamanı nasistlərin etdiklərindən daha pis idi.

**Müxbir:** ***Bəs, yeni səhifə açmaq baxımından, sonuncu müharibə nəticəsində Qarabağı tərk etmək məcburiyyətində qalan ermənilərə qarşı bir az mərhəmət hiss edirsinizmi?***

**Prezident İlham Əliyev:** Bizim bu məsələ ilə bağlı mövqeyimiz çox aydın olub. Bizim Qarabağda yaşayan bütün ermənilərə vətəndaşlıq və ya iş icazəsi üçün müraciət etməyi təklif etdiyimiz dəfələrlə səsləndirilib, o cümlədən veb-saytda dərc olunub. Qarabağ ermənilərinin nümayəndələri ilə bir neçə dəfə görüşlərimiz oldu, lakin onlar Ermənistana getmək seçimini üstün tutdular. Bugünkü Ermənistan ərazisindən deportasiya edilmiş və etnik təmizləməyə məruz qalmış yüz minlərlə azərbaycanlımız var, lakin Ermənistan hökuməti onların geri qayıtması üçün heç vaxt heç bir təklif irəli sürməyib. Düşünürəm ki, bu məsələyə qarşılıqlı nöqteyi-nəzərindən yanaşmalıyıq. Qayıdış hüququ universal bir hüquqdur və əlbəttə ki, bizə belə bir müraciət olarsa, Azərbaycan bu hüquqa mütləq əməl edəcək. Lakin, eyni zamanda, 30 il Ermənistanla müharibə şəraitində olduğumuzu və 30 il ərzində onların ərazimizi işğal altında saxladığını nəzərə alsaq, Qərbi azərbaycanlılar adlandırdığımız yüz minlərlə azərbaycanlıya qarşı da eyni münasibəti gözləyirik ki, bugünkü Ermənistana qayıda bilsinlər.

**Müxbir:** ***Mən qısaca olaraq, Fransa ilə münasibətlərə keçmək istəyirəm. Əlaqələr, xüsusən də son müharibə zamanı çox pis olub. Siz Fransanı Yeni Kaledoniyada, Korsikada müstəmləkə ölkəsi olaraq, çox ağır sözlərlə tənqid etdiniz. Bir neçə ay əvvəl, Fransa vətəndaşı Teo Klerk azad edildi. Hazırda digər vətəndaşın məhkəməsi gedir. "Avropa Siyasi Birliyi"nin Zirvə Görüşü çərçivəsində Sizin Fransa Prezidenti ilə qısa görüşünüz oldu. Deyə bilərsinizmi, münasibətlər öz məcrasına qayıdıb və ya Azərbaycan ilə Fransa arasında hələ problemlər qalır?***

**Prezident İlham Əliyev:** Bilirsiniz, Fransa ilə problemlərin kökü bizdən gəlmir. İkinci Qarabağ müharibəsindən əvvəl Fransa ilə çox yaxşı münasibətlərimiz var idi. Prezident Sarkozinin, Prezident Ollandın səfərləri olmuş, mənim Fransaya rəsmi səfərlərim həyata keçirilmişdir. Eyni zamanda, mən Prezident Makronun hakimiyyəti dövründə Fransaya səfər etmişəm. Bizim çox mehriban münasibətlərimiz olub, çox biznes fəaliyyəti aparılıb, 10-dan artıq qardaşlaşmış şəhərlərimiz olub. İkinci Qarabağ müharibəsi başlayan zaman biz ərazi bütövlüyümüzün bərpasına start verdik. Əfsuslar olsun ki, Fransanın mövqeyi heç cür anlaşılan deyildi. Çünki Fransa bir tərəfdən, ölkələrin ərazi bütövlüyünü müdafiə edir, - o, öz ərazi bütövlüyünü müdafiə etməyə səy göstərir, hazırda Danimarkanın, Ukraynanın ərazi bütövlüyünü müdafiə edir, - lakin əfsuslar olsun ki, onlar separatçıların tərəfini tutdular. Milli Assambleya və Senat separatçılara dəstək məqsədilə 10-dan artıq qətnamə qəbul edib və Ermənistanın özü tanımasa belə, sizin parlament hətta qondarma "Dağlıq Qarabağ"ı tanıyıb. Həmçinin hökumətlə münasibətlər gərgin idi. Lakin bir daha deyirəm, biz həmin gərginliyin mənbəyi olmamışıq. Biz, sadəcə öz suverenliyimizə hörmətlə yanaşmanı istəyirdik.

**Müxbir:** ***Axı, Siz çox ağır sözlərdən istifadə etdiniz…***

**Prezident İlham Əliyev:** Bilirsiniz, ağır sözlərdən istifadəni mən başlamamışam. İstəyirəm tam əmin olasınız, Azərbaycanın atdığı addımlar yalnız cavab idi. Bizdə Fransa Prezidentinin və bir çox fransız rəsmilərinin, o cümlədən Senatınızın sədrinin, Milli Assambleyanızın sədrinin, tanınan şəxslərin dövlətimizi və şəxsən məni təhqir etmək üçün istifadə etdikləri ağır sözlərdən kataloqumuz var. Bundan əlavə, 2020-ci ildə İkinci Qarabağ müharibəsindən sonra və 2023-cü ildə antiterror əməliyyatından əvvəl xanım Pekres, cənab Barnye, cənab Retayyo kimi çox tanınan şəxslər, – bütün bu adlar auditoriyaya yaxşı məlumdur, – Qarabağa qeyri-qanuni səfərlər etmiş və separatçılara dəstək vermişlər. Bu, Azərbaycan dövlətçiliyinə açıq təhqir və tam hörmətsizlik əlaməti idi. Bizim tərəfimizdən deyilmiş sözlərin və ya atılmış addımların hamısı cavab olaraq baş vermişdir. Bəlkə də bu, ağır tərzdə olmuşdur. Ölçmək asan deyil. Lakin düşünürəm ki, bizim üçün vacib odur ki, qeyd etdiyiniz kimi, ötən ilin sonunda Prezident Makron ilə görüşüm oldu. Görüş çox müsbət keçdi və biz hər şeyi yenidən başlamaq razılığına gəldik. Biz buna hazırıq. Bizə hər hansı ölkə, o cümlədən Fransa ilə heç bir problem lazım deyil. Bir daha deyirəm, bu, bizim təşəbbüs deyildi, lakin indi düşünürəm ki, hər iki tərəf, xüsusən də Ermənistan ilə Azərbaycan arasında artıq əldə olunmuş sülhdən sonra normal münasibətlərə daha çox hazırdır.

**Müxbir:** ***Beləliklə, nəticə olaraq, biz yaxın gələcəkdə Fransa Prezidenti ilə Sizin görüşünüzü gözləyə bilərikmi?***

**Prezident İlham Əliyev**: Bəli, birmənalı olaraq. Yeri gəlmişkən, Kopenhagendə görüşümüz çox dostcasına keçdi. Əlbəttə ki, görüş baş tutduqdan bir neçə ay sonra heyətlərimiz arasında xeyli təmaslar olub. Onlar müntəzəm olaraq əlaqədədirlər. Bir neçə görüş baş tutub. Bəli, bəzi məsələlər hələ də qalır. Prezident Makron və mən onların hər iki tərəfdən həll olunmasını qeyd etmişik. Lakin bir daha anlamaq vacibdir ki, bu hərəkət qarşılıqlı olmalıdır. İki suveren dövlət kimi biz bir-birimizə hörmət etməliyik, hüquq sistemlərimizə hörmətlə yanaşmalıyıq və bir-birimizin işlərinə qarışmalı deyilik. Əgər sizin sözdən istifadə etsəm, Kaledoniya və sairə məsələləri biz birinci ortaya atmadıq. Məhz Fransa Qarabağ kimi daxili məsələmizə müdaxilə etməyə başladı. Bu, nəinki həmin mövzuya, hətta siyasi gündəliyimizə də şamil edildi. Bir sözlə, buna son qoyulmalıdır. Düşünürəm ki, hər iki tərəf bunu necə etməyi bilir.

**Müxbir:** ***Prezident Əliyev, qonağımız olduğunuza görə çox sağ olun. "France-24" kanalında "Üzbəüz" verilişinə baxdığınıza görə hamınıza minnətdarıq.***

**Prezident İlham Əliyev:** Sağ olun.

***AZƏRTAC***

# Strateji əməkdaşlıq güclənir

**İsrailin İnformasiya Müharibələrinin Tədqiqatı İnstitutunun (ISIWIS) saytında İsrail–ABŞ–Azərbaycan münasibətlərindən bəhs edən məqalə dərc olunub.**

Məqalədə 3 ölkə arasında formalaşan strateji əməkdaşlığın regional və qlobal kontekstdə artan əhəmiyyəti təhlil olunub. Hazırkı mürəkkəb regional şərait fonunda İsrailin Azərbaycan və ABŞ ilə strateji əməkdaşlığı ardıcıl şəkildə inkişaf etdiyi və bu proseslərin qısamüddətli deyil, uzunmüddətli iqtisadi və texnoloji dayanıqlıq yaradan institusional əsaslara söykəndiyi qeyd edilib.

ISIWIS yazır ki, ABŞ-ın Cənubi Qafqaza marağı xüsusilə Vitse-prezident Cey. Di. Vensin Bakıya səfəri və fevralın 10-da Azərbaycan Respublikası ilə ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının imzalanması ilə daha aydın şəkildə ortaya çıxıb. Prezident İlham Əliyev və ABŞ-ın Vitse-prezidenti tərəfindən imzalanan sənəd iqtisadiyyat və ticarət, enerji, bağlantılar və tranzit, süni intellekt və rəqəmsal inkişaf, eləcə də təhlükəsizlik və müdafiə sahələrində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur.

Məqalədə vurğulanır ki, Xartiya çərçivəsində üç ay ərzində müvafiq işçi qruplarının yaradılması, konkret layihələr və yol xəritələrinin müəyyənləşdirilməsi, eləcə də müntəzəm illik məsləhətləşmə mexanizmlərinin işə salınması planlaşdırılır. Bu isə tərəfdaşlığın epizodik razılaşmalar deyil, sistemli və institusional xarakter daşıdığını göstərir.

Məqalə müəlliflərinin fikrincə, bu model sabitləşdirici rol oynayır, çünki uzunmüddətli iqtisadi və texnoloji əlaqələr yaradır və onları bir böhranla dağıtmaq çətindir. Eyni zamanda, Azərbaycanın nəqliyyat və texnologiya qovşağı kimi statusunun artması təbii olaraq müxtəlif maraqların toqquşmasına səbəb ola bilər.

ISIWIS yazır ki, bu proseslər bəzi aktorlar üçün narahatlıq yaratsa da, Azərbaycan, ilk növbədə, öz milli maraqlarından çıxış edir. Prezident İlham Əliyevin çoxvektorlu siyasətinin mərkəzində ölkənin inkişafı və vətəndaşların rifahı dayanır.



# Kremlin Cənubi Qafqazdakı dayaqları çökür

## *Ramiz Mehdiyev nə üçün özünü Əli Kərimli, Qənimət Zahid səviyyəsinə endirdi?*

**Yəqin ki, oxucularımızın bir çoxu ispaniyalı kinematoqrafçıların 2011-ci ildə dünya ekranına bəxş etdikləri "Qırmızı Qartal haqqında əfsanə" adlı tammetrajlı filmi görüb. Tarixi mövzuda olan həmin film çoxsaylı macəralar və döyüş səhnələri ilə elə zənginləşdirilib ki, bir dəfə baxan yenə də baxmaq istəyir. Ancaq indi həmin filmi yada salmaqda məqsədimiz f bütün satqınlıq və xəyanətkarlıqların ifşa edilməsindən sonra yardımçı obrazlardan birinin səsləndirdiyi ifadəni xatırlatmaqdır : "İndi kimə inanasan, o elə çıxdı, bu belə, heç keşiş də dindar deyilmiş".**

Ramiz Mehdiyev məsələsi sözün həqiqi mənasında Vətənə, milli dövlətçiliyə, Heydər Əliyev siyasətinə sədaqətlə xidmət edən on minlərlə, yüz minlərlə soydaşımızı, xüsusən,



bizim həmkarlarımızın əksəriyyətini sarsıtdı. Axı biz bu adamın Heydər Əliyevin, İlham Əliyevin və müstəqil dövlətçiliyimizin yanında olduğuna görə ona inanırdıq. Biz onu mələk sanırdıq, sonda buynuzları çıxdı. Deməli, şeytan imiş.

Azərbaycan mətbuatının bəzi təmsilçiləri onu "İdarəetmənin akademiki" adlandırırdı. O isə xəyanətin, satqınlığın uzmanı olduğunu on illər boyu gizlətsə də, sonda ifşa olundu. Doğrudur, bir neçə mətbuat təmsilçisi ( "Xalq qəzeti"nin mərhum baş redaktoru Mahal İsmayıloğlu və "Yeni Azərbaycan" qəzetinin redaktoru Alqış Musayev və başqaları) vaxtilə onun iç üzünün açılmasına cəhd etmişdilər. Ancaq Ramiz Mehdiyev imkanlarından sui-istifadə edərək hər iki redaktorun vəzifəsindən kənarlaşdırılmasına nail olmuşdu. Deyilənə görə Mahal İsmayıloğlunun vaxtsız vəfatının əsas səbəblərindən biri də həmin illərdə üzləşdiyi haqsızlıqlar olub.

...Əslində bu söhbətlər ortaya çıxanda çox adam inanmaq istəmirdi. Çünki "KQB – Ramiz Mehdiyev – Əli Kərimli" üçbucağı o qədər də inandırıcı görünmürdü. Ancaq rəhmətlik Nizami Süleymanovun dediyi kimi, "fakt köpəkoğlu şeydir". Yəni fakt göz qabağındadır. Ortada səs yazıları var, imzalar, videolar var. Üstəlik, "karobkalar" dolusu – milyonlarla dollar vəsait və sairə. Yeri gəlmişkən, "akademik"in evindən çıxan valyutanın ictimailəşdirilməsi zamanı ekspertlərdən biri demişdi ki, o, istintaqın başını aldatmağa çalışır. Yəni topladığı yüz milyonlarla vəsaitin izini itirmək üçün deyir ki, olanım budur. Mən isə həmin fakt barədə eşidərkən ulu öndər Heydər Əliyevin yuxarıda iqtibas kimi təqdim etdiyim ifadəsini xatırlamışdım: "Həqiqi mənəviyyatı milyonlara, milyardlara da almaq mümkün deyildir. Amma milyonları, milyardları olan adamlar cəmiyyətdə mənəviyyatsız heç bir şeydirlər".

Bu zaman mən başqa bir faktı da xatırlayıram. İlham Əliyevin ikinci dəfə prezidentliyə namizəd olduğu dövrdə (2008-ci il) bizim müxalif partiyalarımız nəinki Avropadakı anti-Azərbaycan siyasi dairələrdən, hətta Ermənistan dövlətindən və siyasətçilərindən də kömək istəmişdilər. O zaman – müxalifətimizin Ermənistanda kimlərdənsə maddi və mənəvi dəstək aldığının üstü açılanda partiya sədrlərindən hansısa demişdi ki, "biz hakimiyyətə gəlmək üçün şeytanın özü ilə də əməkdaşlıq etməyə hazırıq". Rus demiş, "na, tebe şeytan!" İstəyirsən quyruğundan yapış, istəyirsən buynuzundan. Tapışdılar, yapışdılar, qapışdılar və ifşa edildilər. Çünki, ulu öndərin dediyi kimi, "Kim ki, biliyindən, bacarığından artıq iddialar edir, o, həmişə məğlub olur".

Ramiz Mehdiyevin məğlub olması bir rüsvayçılıq idisə, onun Əli Kərimli, xaricdəki züytutanı Qənimət Zahidlə əməkdaşlığa razılaşması, bu tək qalmış partiya sədri ilə eyni fikirdə olması biabırçılıqdır. Çünki xeyli müddət Əli Kərimli ilə eyni cəbhədə olanların demək olar ki, hamısı bu adamı yaxşı tanıyandan sonra ondan uzaqlaşıblar. Hamı görüb ki, bu adamın kəndirinin üstünə odun yığmaq olmaz. Ramiz Mehdiyev isə həmin kəndirin üstünə odun yığmaq istədi və " kəndir də getdi, odun da".

Ağlı başında olanlar xatırlamalı idilər ki, hətta, müstəqilliyimizin kövrək olduğu illərdə belə dövlət çevrilişi cəhdləri uğursuz olmuş, xalq Heydər Əliyev siyasətini dəstəkləməkdə davam etmişdi. İndi – iki əsrlik işğal siyasətinə son qoyulmasından sonra, azad edilmiş bütün ərazilərimizdə möhtəşəm bərpa-quruculuq işlərinin getdiyi vaxtda, Ermənistan rəhbərliyinin Azərbaycanla hərtərəfli əməkdaşlığa çalışdığı bir vaxta – dövlət çevrilişinə cəhd etmək uşağın odla oynaması kimi ağılsızlıq nümunəsi idi. Əlli milyonluq xalqımızın hər bir fərdi İlham Əliyevi müzəffər Ali Baş Komandan, şəriksiz lider kimi qəbul edir. Mehdiyevlər, Kərimovlar, Zahidlər ona neyləyəcək?

Amma... Ramiz Mehdiyevi də başa düşürük. Göz qabağında olan faktdır ki, Rusiyanın Cənubi Qafqazdakı mövcudluğuna tamamilə son qoyula bilər. Odur ki, Kreml Ramiz Mehdiyev kimi "saman çöplərinə" ümid bəsləyir. Ona da kənardan göstərişlər və təlimatlar verilir, ünvanına təhdidlər səslənirdi ki, biz deyəni etməsən... Ramiz Mehdiyev də uşaq deyil. O, anlayır ki, "onların" dediklərini etməsə, uzaq bir ölkədə Trotskinin başına gələnlər onun da başına gələ bilər. Ona görə də Şimaldan diktə edilən variantı seçdi ki, heç olmazsa, həm topladığım vəsait əlimdə qalsın, həm də ... öldürülməkdən həbsxanaya düşmək yaxşıdır. Necə deyərlər : "Satılmağa qərib ölkə, həbs çəkməyə Vətən yaxşı". Yəni o, Əli Kərimlini sevərək onunla əməkdaşlıq etmək istəmirdi. Sadəcə, məcbur edilirdi.

Sonda böyük türk şairi Nəcib Fazil Qısakürəyin bir ifadəsini xatırlatmaq yerinə düşür: "Təkəm deyə kədərlənmirəm. Çünki bilirəm, tək insanın xəyanət edəni də olmaz...". Heydər Əliyev siyasətinin isə ətrafında milyonlar birləşdiyinə görə həmin ordunun içərisindən birinin naxələf çıxması ...tamamilə təbiidir. Ona görə də yapon müdrikləri xatırladırlar ki, düyünün arasındakı qara daşdan qorxma, onu seçib götürəcəksən. Düyü boyda olan ağ daş isə dişlərinə xətər gətirə bilər. Onları seçməyi bacar.

Azərbaycan dövləti son faktlarla sübut etdi ki, biz düyünün arasındakı ağ daşları ustalıqla düyüdən ayırd edə bilirik.

***İttifaq MİRZƏBƏYLİ***
***Əməkdar jurnalist***

# Avropa güc və nizam axtarışında

*(əvvəli 1-ci səhifədə)*

Avropa İttifaqı (Aİ) daxilində artan fikir ayrılıqları yeni strateji yanaşmaların formalaşmasına səbəb olub. Enerji təhlükəsizliyi, sənaye rəqabətliliyi, texnoloji müstəqillik və müdafiə məsələlərində üzv ölkələr arasında müxtəlif baxışların mövcudluğu Brüsseli daha sistemli və uzunmüddətli planlar üzərində düşünməyə vadar edir. Bu kontekstdə Aİ ölkələri tərəfindən irəli sürülən "Buy European" (Avropanı al) təşəbbüsü xüsusi əhəmiyyət kəsb edir. Təşəbbüsün əsas məqsədi strateji sahələrdə Avropa istehsalına üstünlük verilməsi, daxili sənaye potensialının gücləndirilməsi və qlobal rəqabət qabiliyyətinin artırılmasıdır. Xüsusilə yeni texnologiyalar, süni intellekt və kosmos sənayesi prioritet istiqamətlər kimi müəyyən edilib.

Sözügedən yanaşma həm də ABŞ və Çin kimi iqtisadi nəhənglərlə rəqabətə cavab vermək məqsədi daşıyır və Aİ-nin strateji muxtariyyətini təmin etməyə yönəlib. Lakin strategiyanın tətbiqi ilə bağlı üzv ölkələr arasında fikir ayrılıqları mövcuddur. Bəzi dövlətlər proteksionizm meyillərinin (dövlətin öz daxili iqtisadiyyatını və yerli istehsalçılarını xarici rəqabətdən qorumaq məqsədilə tətbiq etdiyi məhdudlaşdırıcı və ya üstünlükverici siyasətlərə yönəlmiş tendensiyalar) güclənəcəyindən və azad bazar prinsiplərinin zədələnəcəyindən ehtiyat edirlər. Digərləri hesab edir ki, dövlət dəstəyi və koordinasiyalı sənaye siyasəti olmadan Avropa texnoloji yarışda geri qala bilər. Müzakirələr göstərir ki, Aİ yeni trendlərə üz tutsa da, vahid mövqe formalaşdırmaq asan deyil.

Aİ-nin "yerdə" prioritetləri ilk növbədə sənayenin modernləşdirilməsi, yaşıl enerjiyə keçid və rəqəmsal infrastrukturun genişləndirilməsi ilə bağlıdır. "Göydə" isə kosmos proqramlarının genişləndirilməsi, peyk rabitəsi, müşahidə sistemləri və kosmik təhlükəsizlik kimi istiqamətlər ön plana çıxır. Bu baxımdan, Avropa Kosmik Agentliyi ilə əməkdaşlıq və birgə layihələr Aİ-nin strateji baxışının mühüm komponentidir. Çünki kosmos artıq həm də iqtisadi və təhlükəsizlik amilidir. Süni intellektin inkişafına gəldikdə, bu, sənayenin avtomatlaşdırılmasında, müdafiə sektorunda, eləcə də ictimai xidmətlərin rəqəmsallaşmasında əsas rol oynayır. Aİ süni intellektin etik çərçivələr daxilində inkişafını təşviq etməyə çalışır. Bu isə Avropanın öz texnoloji modelini qurmaq niyyətindən xəbər verir.

Qlobal trendlərin dəyişməsi, xüsusilə Aİ-nin strateji muxtariyyət kursu Azərbaycan üçün də yeni imkanlar yaradır. Ölkəmiz həm enerji ixracatçısı, həm də regional logistika və nəqliyyat mərkəzi kimi Avropa bazarları ilə sıx əməkdaşlıq edir. Eyni zamanda, ölkə daxilində rəqəmsal transformasiya və innovasiya siyasəti prioritet istiqamətə çevrilib. Bu baxımdan, Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə xüsusi əhəmiyyət daşıyır. Həmin müşavirədə dövlət idarəçiliyində rəqəmsal həllərin tətbiqi, məlumat bazalarının inteqrasiyası, kibertəhlükəsizlik və süni intellektin tətbiqi kimi məsələlər müzakirə olunub. Sözügeən təşəbbüs Azərbaycanın qlobal rəqəmsal trendlərlə ayaqlaşmaq və milli iqtisadiyyatın rəqabət qabiliyyətini artırmaq istiqamətində atdığı addımları göstərir.

Bir məqamı da qeyd edək ki, Aİ-nin "Buy European" strategiyası ilə Azərbaycanın rəqəmsal arxitektura təşəbbüsü arasında maraqlı paralellər var. Hər iki halda məqsəd strateji sahələrdə asılılığın azaldılması, daxili potensialın gücləndirilməsi və texnoloji suverenliyin təmin olunmasıdır. Fərq ondadır ki, Aİ bunu çoxmillətli struktur daxilində koordinasiya etməyə çalışır. Nəzərə alınmalıdır ki, kosmos texnologiyaları artıq yalnız böyük dövlətlərin inhisarında deyil. Azərbaycan da öz peyk proqramları vasitəsilə bu sahədə təcrübə qazanıb. Rəqəmsal arxitekturanın inkişafı kosmik rabitə, müşahidə və məlumat ötürülməsi sistemlərinin təkmilləşdirilməsini tələb edir.

Bəs Aİ daxili fikir ayrılıqları şəraitində vahid strateji xətt necə qoruyacaq? Məlumdur ki, iqtisadi imkanlar arasındakı fərqlər, siyasi




prioritetlərdəki müxtəliflik və milli maraqların toqquşması qərarların qəbulunu çətinləşdirir. Lakin qlobal risklərin artması ortaq maraq anlayışını gücləndirir. Enerji təhlükəsizliyi, texnoloji müstəqillik və müdafiə qabiliyyəti kollektiv məsuliyyət kimi qəbul edilir. Belə bir mərhələdə Aİ üçün əsas məsələ planın icrasını təmin etməkdir. Strateji sənədlər sadəcə bəyanat kimi qalarsa, real nəticə əldə olunmayacaq. Koordinasiya, maliyyə resurslarının düzgün bölüşdürülməsi və innovasiya ekosisteminin gücləndirilməsi həlledici rol oynayacaq. Əks halda, təşəbbüslər parçalanmış şəkildə həyata keçirilə bilər və gözlənilən effekt alınmaz.

Sonda onu da qeyd edək ki, Aİ-nin seçdiyi yol həm zərurətdən, həm də ambisiyadan qaynaqlanır. Zərurətdən, çünki qlobal sistemdə asılılıq risklidir. Ambisiyadan, çünki Avropa gələcəyin iqtisadi arxitekturasında söz sahibi olmaq istəyir. Daxili mübahisələr və fikir ayrılıqları prosesin ayrılmaz hissəsi olsa da, ümumi istiqamət dəyişmir. Görünən odur ki, Aİ daxili çəkişmələrdən və geosiyasi təzyiqlərdən bezərək nicatı həm "yerdə", həm də "göydə", yəni real sektorun gücləndirilməsində, kosmik və rəqəmsal transformasiyada axtarmağa başlayıb.

***Nəzrin ELDARQIZI***
***XQ***

**Almaniyanın Bavariya əyaləti yenidən qlobal diplomatiyanın əsas mərkəzinə çevrilib. 13–15 fevral tarixlərində keçirilən Münxen Təhlükəsizlik Konfransı bəşəriyyəti narahat edən qlobal təhdidlərə cavab axtarışının mərkəzidir. Min nəfərdən artıq iştirakçının, yüz iyirmidən çox ölkənin nümayəndəsinin qatıldığı iclas, şübhəsiz, İkinci Dünya müharibəsindən sonrakı dövrün kritik sammitlərindən sayılır. Şərqi Avropadan Orta Şərqə qədər uzanan coğrafiyada münaqişələrin alovlandığı məqamda Münxendəki "Hotel Bayerischer Hof" otelinin dəhlizlərində eşidilən əsas tezis sabitlik və dayanıqlı sülhdür.**

# Münxen dünyanı sabitlik və sülhə çağırır

## *Şaxtalı qışın qaynar diplomatiyası*




Belə mürəkkəb vəziyyətdə Azərbaycan Prezidenti İlham Əliyevin konfransda iştirakı rəsmi Bakının beynəlxalq münasibətlər sistemində tutduğu müstəsna mövqeyi nümayiş etdirir. Dövlətimizin başçısının strateji gedişləri ölkəni Cənubi Qafqazın şəriksiz liderinə və qlobal enerji təhlükəsizliyinin əvəzolunmaz qarantına çevirib.

**ARAYIŞ:** *Münxen Təhlükəsizlik Konfransı 1963-cü ildə yaradılmış və hər il Almaniyanın Münxen şəhərində keçirilən nüfuzlu beynəlxalq təhlükəsizlik forumudur. Konfrans rəsmi üzvlük prinsipi əsasında fəaliyyət göstərən təşkilat deyil. Onun daimi üzv dövlətləri və ya səsvermə mexanizmi yoxdur. Forum hər il dəvət əsasında təşkil olunur və müxtəlif ölkələrdən 900-1000-ə yaxın yüksək səviyyəli nümayəndə iştirak edir. Bununla yanaşı, NATO, BMT, Avropa İttifaqı kimi aparıcı beynəlxalq təşkilatların rəhbərləri və yüksək vəzifəli şəxsləri də forumda təmsil olunur. Konfransın gündəliyi qlobal və regional təhlükəsizlik məsələlərini əhatə edir. Burada beynəlxalq münaqişələr, böyük güclər arasında münasibətlər, enerji təhlükəsizliyi, kibertəhlükəsizlik, terrorizmə qarşı mübarizə, iqlim təhlükəsizliyi və qlobal geosiyasi dəyişikliklər müzakirə olunur.*

ABŞ Dövlət katibi Marko Rubionun nümayəndə heyətinə rəhbərlik etməsi və onun verdiyi açıqlamalar Vaşinqtonun xarici siyasətində baş verən paradiqma dəyişikliklərindən xəbər verir. Hava limanında jurnalistlərin suallarını cavablandıran Dövlət katibi Rubio olduqca praqmatik və sərt reallıqları əks etdirən fikirlər səsləndirib: "İndi ilin ən soyuq vaxtıdır və insanlar müharibəyə görə əziyyət çəkir. Buna görə də, il ərzində, hətta daha uzun müddət davam edən müharibəyə son qoymaq üçün çox çalışırıq". Amerika diplomatiyasının rəhbərinin səsləndirdiyi ifadələr Ukrayna cəbhəsindəki humanitar fəlakətin miqyasını və Vaşinqtonun münaqişəni dondurmaq və ya həll etmək niyyətini ortaya qoyur. Ukrayna Prezidenti Volodimir Zelenskinin konfransa qatılması və Marko Rubio ilə planlaşdırılan görüşü Şərqi Avropada sülhün əldə olunması istiqamətində həlledici mərhələnin başlanğıcıdır.

Bütün qlobal liderlərin toplaşdığı məkanda Azərbaycan xüsusi rola malikdir. Prezident İlham Əliyevin Münxen platformasındakı fəaliyyəti rəsmi Bakının "orta güc" diplomatiyasından qlobal ölkə statusuna keçidini təsdiqləyir. Cənubi Qafqaz regionunda yaranmış yeni reallıqlar, bilavasitə Azərbaycanın iradəsi və qətiyyəti hesabına formalaşıb. Otuz illik işğala son qoyaraq ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən Azərbaycan hazırda regionda dayanıqlı sülhün yeganə və real təminatçısıdır. İlham Əliyevin yürütdüyü siyasət, regionu xarici müdaxilələrdən qorumaqla yanaşı, Cənubi Qafqazı Şərq ilə Qərb arasında etibarlı körpüyə çevirib. Münxen Konfransı çərçivəsində keçirilən görüşlərdə Azərbaycan liderinin diqqət mərkəzində saxladığı əsas məsələlərdən ilki, şübhəsiz ki, enerji təhlükəsizliyidir. Avropa İttifaqı ilə strateji tərəfdaşlıq, "qoca qitə"nin enerji xəritəsini yenidən cızıb. Rəsmi Bakı tərəfindən reallaşdırılan Cənub Qaz Dəhlizi və onun genişləndirilməsi planları Avropanın enerji şaxələndirilməsində həlledici amilə çevrilib.

Ukrayna müharibəsi və Avropa təhlükəsizliyi məsələsində qeyd etmək lazımdır ki, münaqişənin həlli yolları axtarışında hərbi və diplomatik vasitələrin sintezi vacibdir. Marko Rubionun Zelenski ilə görüşündə müzakirə ediləcək sülh planları, ehtimal ki, ərazi güzəştlərindən daha çox təhlükəsizlik zəmanətləri və iqtisadi bərpa üzərində qurulacaq. Lakin istənilən halda, "sülh" anlayışı artıq əvvəlki mənasını itirib və sərt praqmatizmə söykənir. Qərbin Rusiya ilə birbaşa toqquşmadan yayınmaq üçün Kiyevə dəstəyin formasını dəyişəcəyi gözlənilir. Burada Türkiyənin vasitəçilik səyləri və Qara dəniz taxıl dəhlizi təcrübəsi yenidən aktuallaşa bilər. Azərbaycan da öz növbəsində Ukraynaya humanitar yardım və enerji infrastrukturunun bərpası sahəsində dəstəyini davam etdirir. Eyni zamanda, Azərbaycan Rusiya ilə qonşuluq münasibətlərini qoruyaraq regionda lazımsız gərginliyin yaranmasına imkan vermir.

Avropa İttifaqının enerji böhranı ilə üzləşdiyi dövrdə Azərbaycanın "mavi yanacağı" qitə sənayesi üçün əsas əhəmiyyət daşıyır. Ursula fon der Lyayenin Bakıya səfəri zamanı imzalanan sənədlər və verilən bəyanatlar Avropanın Azərbaycana böyük ümidlər bəslədiyini nümayiş etdirmişdi. Cari ildə həmin ümidlərin doğrulduğunu görürük. Cənub Qaz Dəhlizinin ötürücülük qabiliyyətinin artırılması istiqamətində görülən işlər İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya və Macarıstan kimi ölkələrin enerji təhlükəsizliyini təmin edir. Serbiya və digər Balkan ölkələrinin də şəbəkəyə qoşulması Azərbaycan qazının coğrafiyasını genişləndirir.

Münxen Təhlükəsizlik Konfransı regionumuz üçün nikbin ssenarilər vəd edir. İlk növbədə, Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin imzalanması prosesi sürətlənə bilər. Qərb tərəfdaşları, xüsusilə ABŞ və Avropa İttifaqı Münxen görüşündən sonra İrəvana təzyiqləri artıraraq konstruktiv mövqe tutmağa məcbur edəcəklər. Çünki Cənubi Qafqazda sabitlik, Orta Dəhlizin və enerji layihələrinin təhlükəsizliyi üçün zəruridir. Marko Rubionun praqmatik yanaşması ABŞ-ın regiondakı fəaliyyətini ideoloji şüarlardan uzaqlaşıb real iqtisadi və təhlükəsizlik maraqlarına yönəldəcək. Bu yanaşma isə Azərbaycanın maraqlarına tam uyğundur.

Konfransın yekunları, şübhəsiz ki, beynəlxalq münasibətlər sistemində yeni səhifə açacaq. Ukrayna cəbhəsindəki hadisələrin inkişafı, Qərbin Rusiya ilə münasibətlərinin gələcəyi və Orta Şərqdəki sülh perspektivləri Münxendə əldə olunan razılaşmalardan asılı olacaq. Azərbaycan üçün isə əsas nəticə ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun daha da artması və milli maraqların qlobal səviyyədə təsbit olunmasıdır.

ABŞ-ın yeni xarici siyasət kursu əvvəlki administrasiyadan fərqli olaraq, Cənubi Qafqaza daha realist prizmadan yanaşır. Dövlət katibi Rubionun sərgilədiyi mövqe, Vaşinqtonun artıq separatizmə və qeyri-konstruktiv qüvvələrə dəstək verməyəcəyini, əksinə, suveren dövlətlərlə praqmatik əməkdaşlığa üstünlük verəcəyini işarə edir. Sözügedən amil Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmətin Vaşinqton üçün prioritet olduğunu göstərir. Ermənistanın havadarlarına arxalanaraq sülh prosesini ləngitmək cəhdləri artıq Qərb paytaxtlarında səbr kasasını daşırır.

Əminik ki, Münxen Təhlükəsizlik Konfransı Azərbaycan diplomatiyasının növbəti zəfəri kimi tarixə düşəcək. Prezident İlham Əliyevin liderliyi ilə dövlətimiz qlobal proseslərin axarını öz maraqlarına uyğun şəkildə yönləndirməyi bacarır. Münxen toplantısı gələcəyin konturlarının cızıldığı strateji qərargahdır. Həmin qərargahda Azərbaycanın yeri ön sıralardadır. İndi dünya Bakının sözünü eşidir, onun mövqeyi ilə hesablaşır. Və şübhəsiz ki, Münxendən sonra Cənubi Qafqazda sülh erası daha da möhkəmlənəcək, Azərbaycanın qlobal nüfuzu isə artacaq. Prezident İlham Əliyevin uzaqgörən siyasəti xalqımızın milli maraqlarını ən yüksək səviyyədə qorumağa və dövlətimizi daha parlaq gələcəyə aparmağa davam edəcək.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Azərbaycan ziyalılığı və ziyalısı

**II MƏQALƏ**



### XIX əsrdən sonra

XIX əsrdən Azərbaycanın tarixində yeni mərhələ başlayır. Rusiya imperiyasının Qacar Səfəvi ilə apardığı müharibə nəticəsində Azərbaycan iki yerə bölünmüşdür. Bununla ölkə fərqli mədəni və siyasi mühitlərə düşən hissələrə ayrılmışdır. Buradan bir zamanlar vahid elmi-mədəni mühitdə formalaşan ziyalılıq ənənəsi daxilən zidiyyətlərlə üz-üzə qalmışdır – həmin ziddiyyətlər azərbaycanlı alimin yaradıcılıq qabiliyyətinin dəyişməsi ilə deyil, ziyalının fəaliyyət göstərdiyi sosial-mədəni və dini mühitin fərqliliyi ilə bağlıdır. Lakin ölkənin hər iki hissəsi üçün yardıcılıq baxımından oxşar olan bir xüsusiyyət mövcud idi - cənublu azərbaycanlı üçün əsas elmi dil fars və ingilis, şimallı azərbaycanlı üçün isə rus və Azərbaycan dili aparıcı rol oynayırdı. Elmi status baxımından cənubluya fars, şimallıya isə rus dilləri örnək olaraq göstərilirdi.

Bu süni dil oyunları milli ziyalılıq ənənəsinə və ziyalı kimliyinə, əlbəttə, mənfi təsir etmişdir. Lakin bütün qadağalara, məhdudiyyətlərə və təqiblərə baxmayaraq Azərbaycan ziyalılığının təməl xüsusiyyətlərini dəyişdirə bilməmişlər. Əksinə, onun bir sıra tarixi keyfiyyətləri, məsələn, yurda bağlılıq, Vətənsevərlik, milli mədəniyyət və dil ilə bağlı qorunmalı dəyər kimi ayrıca qiymətləndirmənin yer alması daha aktiv hala gəlmişdir. Bütövlükdə məsələnin bu tərəfi ayrıca tədqiq olunmalıdır. Burada tarixi kontesktdə bir sıra ümumi məqamlara baxaq.

### İlk Universitet, elmi cəmiyyət

Ölkənin şimal hissəsində 1919-cu ildə Bakı Dövlət Universiteti yaradılmışdı. Bu, sonrakı mərhələdə Azərbaycanda akademik tədqiqatlarda Qərb, Rusiya və Şərq elmi araşdırma ənənələrinin sintezini yaratmaq üçün ciddi təkan rolunu oynamışdır.

Bu prosesdə 1922-1923-cü illərdə yaradılmış Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin rolu ayrıcadır. Bu qurumun əsasında 1923-cü ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu yaradılmışdır. İnstitutda təbiət elmləri ilə yanaşı, humanitar və Şərqi öyrənən bölmələr də vardı. Bu cəmiyyəti və institutu Azərbaycanda XX əsrdə akademik tədqiqatların təşkilinin ilk formaları hesab edirlər.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin əsasında SSRİ Elmlər Akademiyasının Zaqafqaziya Filialının Azərbaycan Şöbəsi təşkil olunmuşdu. Burada ruslarla yanaşı, Ə.Haqverdiyev, B.Çobanzadə, M.Əfəndiyev, A.Tağızadə və digər Azərbaycan alimləri çalışmışlar.

1935-ci ildə SSRİ Elmlər Akademiyasının Zaqafqaziya Filialının Azərbaycan Şöbəsi SSRİ EA-nın Azərbaycan Filialına çevrildi. Elmi-Tədqiqat Neft İnstitutu və Azərbaycan Elmi-Tədqiqat Neft Maşınqayırma institutları da təsis edilmişdir.

Artıq 1940-cı ildə Azərbaycanda 60 elmi müəssisə vardı və həmin strukturlarda 3 minə yaxın elmi işçi çalışırdı. Nəhayət, 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası təsis edilmişdi. Bununla Azərbaycanda akademik elmi fəaliyyətin təşkilində yeni mərhələ başlamış oldu.

### Elmin AMEA mərhələsi

1945-ci ildən başlayaraq Azərbaycan Elmlər Akademiyası 1991-ci ilə qədər bir neçə mərhələli fəaliyyət yolunu keçmişdir. Ulu öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycan SSR-ə rəhbər olması ilə Akademiyanın fəaliyyətində müsbətə doğru ciddi dəyişikliklər olmuşdur. Heydər Əliyev AEA-nın elmi fəaliyyətini başlıca olaraq Azərbaycana xidmətə yönəltmişdir. Bir neçə yeni şöbələr və institutlar yaradılmışdır.

Həmin dönəmi elmi-nəzəri aspektdə akademik İsa Həbibbəyli dolğun şəkildə "Heydər Əliyev və Azərbaycan Milli Elmlər Akademiyası" adlı məqaləsində geniş təhlil etmişdir.

1991-ci ildən isə Elmlər Akademiyasının müstəqillik mərhələsi başlayır. 1993-cü ilə qədər olan müddətdə Akademiyanın fəaliyyətində aktivlik hiss olunmamışdır. Təşkilatın taleyi o zaman aydın deyildi. Ulu öndər Heydər Əliyevin xalqın dəvəti ilə hakimiyyətə gəlişi bütövlükdə ölkədə olduğu kimi, Elmlər Akademiyasında da vəziyyəti müsbət istiqamətdə dəyişdi.

Heydər Əliyev müstəqillik mərhələsində Azərbaycan EA-nın inkişafına yeni təkan vermişdir. 1997-ci ildə ulu öndər Elmlər Akademiyasının bir qrup aparıcı alimlərini qəbul edərək müzakirələrdə elm sahəsində islahatların aparılmasının vacibliyini əsaslandırmışdır. O cümlədən, Azərbaycanda elmin inkişaf strategiyasının əsas müddəalarını müəyyənləşdirmişdir.

Nəhayət, "Azərbaycan Prezidentinin 15 may 2001-ci il tarixli fərmanı ilə Elmlər Akademiyasına "Azərbaycan Milli Elmlər Akademiyası" statusu verildi. 2002-ci il avqustun 12-də AMEA-nın Naxçıvan Bölməsinin yaradılması haqqında tarixi sərəncam imzalanmışdır. Ulu öndərin sədrliyi ilə Naxçıvan Ali Məclisinin iclas zalında bu bölmənin yaradılmasına həsr olunmuş müşavirə keçirilmişdir.

### XXI əsr və milli elm

Bununla AMEA XXI əsrə zəngin elmi tədqiqat və təşkilatlanma təcrübəsi ilə qədəm qoymuşdur və Akademiyanın tarixində Prezident İlham Əliyev mərhələsi başlamışdır. 2003-2022-ci illər "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin modernləşmə, biliklər cəmiyyətinin qurulması strategiyası kontekstində elmin növbəti inkişaf mərhələsidir. Həmin dönəmdə "İlham Əliyevin elmin inkişafı ilə bağlı qəbul etdiyi çoxsaylı qərarlar sırasında "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" mühüm yer tutur. Bu mərhələdə AMEA-nın tərkibində bir neçə yeni elmi müəssisənin fəaliyyətə başlamasını, kadr hazırlığı sahəsində əldə edilən nailiyyətləri, elmin populyarlaşdırılması sahəsində uğurları, maddi-texniki bazanın gücləndirilməsi istiqamətində tədbirləri xüsusi qeyd etmək lazımdır.

2022-ci ildən isə islahatlar fundamental və əhatəli həyata keçirilir. Bu mərhələyə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 28 iyul 2022-ci il tarixli fərmanı ilə start verilmişdir.

Paralel olaraq Azərbaycanda təhsil sistemində davamlı islahatlar həyata keçirilməkdədir. Artıq Azərbaycanda elm və təhsilin inteqrasiyası aspektində yeni mərhələ - rəqəmsallaşma dönəmi başlayır. Bu proses cəmiyyətin bütün fəaliyyət sferalarına rəqəmsallşmanın geniş və aktiv şəkildə tətbiq edilməsi fonunda baş verir. Ölkənin yeni vahid rəqəmsallaşma arxitekturasının yaradılmasına başlanması elm və təhsilin inteqrasiyası baxımından tarixi hadisədir.

Detallara varmadan bir sual üzərində düşünək – bu proses Azərbaycanda yeni ziyalılıq və ziyalı şəxsiyyət nümunəsi yaradacaqmı? Əgər bu baş versə, "yeni ziyalılıq nümunəsinin" cəmiyyətin əsrlərdir mövcud olan ziyalılıq ənənəsi ilə münasibətləri necə ola bilər?

Bizcə, bu kimi suallara cavab axtarışları asan proses deyildir.

Birincisi, Azərbaycanda ziyalılıq ənənəsi ictimai şüurun dərin qatlarında artıq oturuşmuşdur. Bu, sovetlərə qədər olan dönəmdə bir forma və məzmunun vəhdəti idisə, SSRİ dövründə yeni məna çalarları almışdır. Xüsusilə, ziyalılıq ideologiya ilə daha sıx kontekstdə ictimai həyatın (və deməli, ictimai şüurun) gündəminə gətirilmişdir. Lakin qədimdən başlayan və Azərbaycan ziyalılığına "akademik alimlik"lə "yerli təhsilalma ruhu"na dərindən "hopmuş" bir mühüm keyfiyyət dəyişməmişdir.

Rusiya imperiyasının elm-təhsil fəlsəfəsinin sovetlərin elm-təhsil fəlsəfəsinə transformasiyasının bütün ziddiyyətləri və təzyiqləri mövcudluğu şəraitində belə həmin ziyalılıq özəlliyi saxlanmışdır. O, qədimdən Azərbaycan ziyalılığının əsas keyfiyyətlərindən olan fəzilətlilik, şəfqətlik, ictimai mənəvi-əxlaqi və mədəni kodlara tam sadiqlikdir! Azərbaycan ziyalısı həmişə dərin biliyi ilə yanaşı, nümunəvi davranışı, cəmiyyətin əxlaqi xüsusiyyətlərinin daşıyıcısı və qoruyucusu kimi keyfiyyətləri ilə qövmün "nurlu kompası" olmuşdur!

Hər bir halda azərbaycanlıların şüurunda bu obraz yaşamışdır. Başqalarına bağışlanan mənəvi qüsur və fəzilətsiz davranış alimə və müəllimə bağışlanmamışdır. Bu mənada fəzilət və mənəviyyat Azərbaycan ziyalısının məsuliyyət hüdudlarını müəyyən etmişdir. Hətta bu məsuliyyət bir sıra hallarda ifrata varmış və el arasında valideynin övladının müəllliminə "əti sənin, sümüyü mənim" deyimi ilə müraciət etməsi ziyalıya hörmət və ehtiram etalonu kimi qəbul edilmişdir. Azərbaycan ziyalısı cəmiyyətdə ən sayğılı şəxsiyyət sayılmışdır. "Çarlıq"dan "sovetçiliyə" zorən keçid bu qaydanı poza bilməmişdir.

Sovet dönəmində Azərbaycan ziyalısı ənənəvi fəzilətliliyi və mənəviyyatlılığını siyasi ideologiya "donu biçimi" daxilində belə saxlamışdır. Azərbaycanın 1920-1991-ci iləri əhatə edən "ziyalılıq və ziyalılar xəritəsi"nə baxsaq, vurğulanan tezisi sübut edən minlərlə nümunəyə rast gələ bilərik. Hətta bu gerçəkliyin qədim ənənəsi üzərində bərqərar olduğu haqqında kompetent fikirlər söylənməkdədir.

Məsələnin bu cür qoyuluşu ikinci mühüm xüsusiyyəti ön plana çıxarır.

İkincisi, alimlər Azərbaycanda ziyalılıq ənənəsinin çox qədimdən formalaşdığından bəhs edirlər. Eyni zamanda, indi çoxlarının ən nümunəvi ziyalılıq məkanı kimi qəbul etdiyi Qərbin fəlsəfi-elmi şüuruna Azərbaycan ziyalılıq nümunələrinin fundamental təsirlərini vurğulayırlar. Filologiya elmləri doktoru Afaq Əsədova öz postunda yazır ki, indi Azərbaycan ictimai fikri özünün aktiv dövrünü yaşayır. Bu, yeni texnologiyaların sürətlə həyatımıza nüfuz etməsi ilə bağlıdır. Bu kimi gedişatın qarşıya çıxacağı haqqında XX əsrin 30-cu illərində meydana çıxan postmodernist filosoflar proqnoz vermişlər.

Həmin özəllik başqa bir həqiqətin fonunda Azərbaycan ziyalılıq ənənəsi işığında çox maraqlı görünür. A.Əsədova vurğulayır ki, "Azərbaycannın qədim tarixinə aid olan Zərdüşt işıqlı, ziyalı deyimləri ilə Avropa fəlsəfəsinin söykəndiyi yerlərdən biri olmuşdur". Məsələn, Nitşenin məlum əsərini xatırlamaq olar. Nitşenin "kamil insan nümunəsi" elə Zərdüşdün dediyi "yeni insan arayışıdır!"

Deməli, Azərbaycan ziyalılıq ənənəsi mənəvi konsept kimi özünün "milli sərhədlərini" tarixi zamanda aşaraq, indi aparıcı olan Qərb ziyalılıq mühitinin vacib parametrlərindən biri olmuşdur.

Üçüncüsü, Azərbaycan ziyalılığının vurğulanan özəllikləri müasir mərhələdə cəmiyyət miqyasında, ümumiyyətlə, ziyalılığa və ziyalıya münasibət baxımından bir məsuliyyəti aktuallaşdırır. Bu, "ziyalı fikrini" (A.Əsədova) arxa plana atmaq niyyətində olanların mövqelərinə təkrar baxmaları üçün əhəmiyyətli xatırlamadır. Onun həm mənəvi, həm də sosial anlamı vardır. Sosial aspekti mənəvi "yükümlülük"dən qaynaqlanır.

Belə ki, mənəvi olaraq Azərbaycan ziyalısı diri-diri soyulmasına, diri-diri yandırılmasına baxmayaraq "irs olaraq ziyalılıq böyüklüyünü xalqa ötürmüşdür" (A.Əsədova). Yəni bu cür davranış Azərbaycan üçün fraqmentar, sırf fərdi olay deyildir – o, bir "mənəviyyat memi" keyfiyyətinə yüksəlmiş davamlı ənənə hadisəsidir. Həmin "mem" həm də Azərbaycan ziyalısının şəxsiyyət kimi nuru, şəfqəti və mərhəmətinin və bütövlükdə fəzilətliliyinin tarixi zaman-məkan kontinumunda obrazlaşmış təzahürüdür.

Çox diqqətçəkicidir ki, ziyalılığın bu xüsusiyyəti mənəvi sfera hüdudlarına sığmamışdır və bütövlükdə tolumda ziyalı qarşısında sosial məsuliyyət keyfiyyətini formalaşdırmışdır. Onu ümumi halda ziyalılıq qarşısında cəmiyyətin "sosial yükümlülüyü" adlandırmaq olar və onun iki mühüm əlamətini qəbul etməliyik.

Birincisi, "ziyalılığı tarixi və mənəvi kökümüzdən qoparmaq mümkün deyildir" (A.Əsədova) anlamı tərəddüdsüz etiraf olunmalıdır.

İkincisi, sosial məsuliyyət olaraq ziyalılığı saxlamaq və nəsillərə ötürmək bizim yükümüzdür və "bu yük bir hökmdür". Onu bizə tarixi yaddaşımız da hər an təkrar-təkrar xatırladır (A.Əsədova).

Aydın olur ki, texnologiyaların yüksək sürətlə inkişafı, həyatımıza geniş daxil olması və kənardan olan informasiya təxribatları fonunda Azərbaycan ziyalılığı nəinki arxa plana atılmalı, hətta yeni səviyyədə və daha geniş anlamda "toplumsal mem"ə çevrilməlidir. Ziyalılıq ənənəsi ən modern texnokratın belə mənəvi-əxlaqi dünyasının fəzilətlilik "guşəsi"nin mərkəzi faktoru olmalıdır. Başqa halda, Azərbaycanın dövlət və cəmiyyət olaraq davamlı inkişafı şübhə altına alına bilər!

Bu fikrin işığında Azərbaycanda ziyalılıq və ziyalı şəxsiyyətlərlə bağlı müşahidə etdiyimiz bir sıra halların meydana gətirə biləcəyi fəsadların anatomiyasına nəzər salaq. Belə görünür ki, müəyyən dairələr Azərbaycan ziyalısının ilk olaraq fəzilətlilik, şəfqət, mərhəmət və bilikləri paylaşmaq kimi yüksək keyfiyyətlərini cəmiyyətin gözündən salmağı hədəfləmişlər. Bunu "sübut" etmək üçün isə alimləri biliklərində və davranışlarında qüsurları olan zümrə kimi qələmə verməyə çalışırlar. Hazırda onu əsasən AMEA-ya yönəldilmiş formada qondarma ekspertlər və paparassilər vasitəsi ilə etməyə çalışırlar. Lakin bütövlükdə neqativ təsir Azərbaycan ziyalılığına və alimlərinə edilir.

Bu prosesin Azərbaycan mühitinin xüsusiyyətləri ilə bağlı məntiqi gedişatı vardır. O aspektdə baş verənlərə aidiyyatlı dövlət qurumlarının, cəmiyyətin və medianın aparıcı kəsiminin necə reaksiya verməsi çox maraqlıdır.

***(ardı var)***

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Fevralın 13-də Milli Məclisin növbəti plenar iclası keçirildi. Ənənəvi olaraq parlamentin sədri Sahibə Qafarova açılış nitqi ilə çıxış etdi. Spiker ABŞ-ın Vitse-prezidenti Ceyms Devid Vensin u günlərdə ölkəmizə rəsmi səfərindən bəhs edərək, tarixi əhəmiyyət daşıyan bu səfərin Azərbaycan ilə ABŞ arasında münasibətlərin inkişafında yeni mərhələ açdığını qeyd etdi: "Səfər çərçivəsində imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası birgə əməkdaşlığın uzunmüddətli prioritetlərini müəyyən edir, energetika, iqtisadiyyat, investisiya qoyuluşu, kosmik sənaye, rəqəmsal infrastruktur, müdafiə, təhlükəsizlik və digər sahələrdə əməkdaşlığın dərinləşməsinin möhkəm təməlini yaradır. Sülh, sabitlik və dayanıqlı inkişaf sahəsində ümumi maraqlara əsaslanan Xartiya tərəflərin suverenliyə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına və milli maraqlara hörmət əsasında iş birliyini genişləndirmək niyyətini əks etdirir".**

# Paytaxtda böyük şəhər bələdiyyəsi ideyası

## *Milli Məclisdə belə bir modelin yaradılması təklif edildi*

Plenar iclas bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın ötən il üzrə fəaliyyəti haqqında məruzəsi ilə davam etdi. Məruzəni ədliyyə nazirinin müavini Toğrul Hüseynov səsləndirdi. Nazir müavini çıxışında qeyd etdi ki, 2025-ci ildə inzibati nəzarət orqanına daxil olmuş 81.711 bələdiyyə aktı hüquqi ekspertizadan keçirilib və onların 97,2 faizinin qanunvericiliyə uyğun olduğu müəyyən edilib. Nazir müavini onu da əlavə etdi ki, normativ hüquqi aktların tələblərinə zidd olan aktların dəyişdirilməsi və ya ləğv edilməsi üçün "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Qanuna əsasən aidiyyəti bələdiyyələrə təkliflər verilib: "Bu təkliflər nəticəsində 644 akt ləğv edilib, 950 akt dəyişdirilib, bələdiyyələr tərəfindən təmin olunmayan 7 təklif üzrə məhkəmələrdə iddia qaldırılıb".



T.Hüseynov digər tərəfdən bələdiyyə orqanlarının səlahiyyətlərində edilən mühüm yenilikdən danışdı. O, qeyd etdi ki, Mülki Prosessual Məcəlləyə və "İcra haqqında" Qanuna edilmiş son dəyişikliklərə əsasən, artıq bələdiyyələr icra sənədlərini "Elektron icra" informasiya sistemi vasitəsilə birbaşa icraat üçün yönəltmək hüququna yiyələniblər: "Prosesin rəqəmsallaşdırılması məqsədilə bələdiyyələr üçün "Elektron icra" informasiya platformasında xüsusi elektron kabinetlər yaradılıb. Bu yenilik sənədlərin həmin kabinetlər üzərindən daha çevik və operativ şəkildə icraya yönəldilməsinə geniş imkanlar yaradır. Nəzərə çatdırım ki, 2025-ci il ərzində debitor borcların ödənilməsi ilə bağlı bələdiyyələr tərəfindən qəbul edilmiş 9.696 inzibati akt icra məmurları tərəfindən icraata qəbul edilib".

Nazir müavini məruzəsində 2025-ci ildə bələdiyyələrdə 43 vəzifəli şəxsin məsuliyyətə cəlb olunduğunu da diqqətə çatdırdı: "Ötən il bələdiyyələrlə bağlı 62 material istintaqa göndərilib, onlardan 14-ü üzrə cinayət işi başlanıb, 17-si üzrə təqdimat verilib, 31-i üzrə isə araşdırma davam edir. Nazirlik 3.142 hektar torpaqla bağlı qanunsuz qərarların ləğvi üçün tədbir görüb. Nəticədə 3.121 hektar icarə, 21 hektar mülkiyyət qərarı ləğv olunub. Həmçinin 2025-ci il ərzində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə 50 inzibati xəta haqqında protokol tərtib edilərək məhkəmələrə göndərilib. Həmin protokollar əsasında 43 bələdiyyənin vəzifəli şəxsi inzibati məsuliyyətə cəlb olunub".

Məruzə barədə rəy bildirmək üçün deputatlara söz verildi. Çıxış edən MM-in Regional məsələlər komitəsinin sədri, deputat Siyavuş Novruzov bildirdi ki, yerli özünüidarəetmənin daha səmərəli və funksional institut kimi formalaşdırılması üçün sistemli islahatların həyata keçirilməsi zəruridir. Komitə rəhbərinin sözlərinə görə, ilk növbədə, bələdiyyələrin fəaliyyətini kompleks tənzimləyən yeni qanunvericilik bazasının hazırlanması və seçki mexanizmlərinin daha çevik, rəqabətli əsaslarla təşkili məqsədəuyğundur: "İri şəhərlərdə vahid böyük şəhər bələdiyyəsi modelinin yaradılması imkanları nəzərdən keçirilməlidir. Eyni zamanda, bələdiyyələrin onlayn iclas keçirmək səlahiyyətinin qanunvericiliklə təsbit olunması, ərazi sərhədlərini əks etdirən xəritələrin rəsmi qaydada təqdim edilməsi idarəetmənin effektivliyini artıracaq". S.Novruzov digər tərəfdən qəbiristanlıqların bələdiyyələrin balansına verilməsi və "Bələdiyyələrin operativ təminat fondu"nun yaradılmasını təklif etdi.

Deputat Fazil Mustafa həmkarı Siyavuş Novruzovun böyük şəhər bələdiyyəsinin yaradılması ilə bağlı təşəbbüsünü dəstəklədiyini bildirdi. Onun sözlərinə görə, bələdiyyələrdə vəziyyət o qədər də ürəkaçan deyil: "Sənəddə göstərilir ki, 2025-ci ildə Gədəbəydə və digər yerlərdə cəmi 4 yeni bələdiyyə müəssisəsi yaradılıb. Bu bələdiyyə üçün minumum bir fəaliyyətdir. Necə olar bilər ki, Azərbaycan kimi dövlətdə yerli özünüidarəetmədə bir il ərzində cəmi 4 müəssisə yaradılır. Onlarla, yüzlərlə müəssisə yaradılmalı idi. Kriminal fəaliyyət göstərən beş-on bələdiyyəyə görə bütün bələdiyyələrin fəaliyyətini iflic etmək olmaz. Biz məşğulluqla bağlı problemi həll etmək itəyiriksə, bələdiyyələrin bu imkanlarını artırmalıyıq".

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2025-ci ildə fəaliyyəti haqqında məruzəsi ətrafında edilən çıxışlardan və təkliflərdən sonra sənəd səsverməyə çıxarıldı və qəbul edildi.

Daha sonra gündəlikdə duran "Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsini üçüncü oxunuşa parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev təqdim etdi. Dəyişikliyə əsasən, minimum əməkhaqqının məbləğinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın təklifləri əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən ildə bir dəfədən az olmayaraq yenidən baxılacaq. Layihə müzakirələrdən sonra səsverməyə çıxarılaraq qəbul edildi.

MM-in İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov Vergi Məcəlləsinə, "Banklar haqqında" və "Gömrük tarifi haqqında" qanunlara təklif edilən dəyişiklikləri üçüncü oxunuşa təqdim etdi. Qanun layihəsinə əsasən, Azərbaycanda alıcısı olanlara elektron ticarət yolu ilə xidmət göstərən və illik dövriyyəsi 10 min ABŞ dollarının manat ekvivalentini aşan qeyri-rezidentlər 30 gün ərzində elektron qaydada vergi uçotuna alınmalıdırlar. Bu həddən aşağı dövriyyə üçün qeydiyyat könüllüdür. Məsləhət, hüquq, maliyyə, mühasibat, dizayn, mühəndislik, onlayn tədris və tədbir biletlərinin sifarişi bu çərçivədə elektron ticarət xidməti sayılmır. Qeydiyyat və ƏDV ilə bağlı prosedurlar müvafiq icra orqanı tərəfindən müəyyən ediləcək. Layihə müzakirəyə çıxarılaraq qəbul edildi.

"Əhalinin sağlamlığının qorunması haqqında" və "Onkoloji yardım haqqında" qanunlara təklif edilən dəyişikliklər barədə qəbul edilən qanun layihəsinə əsasən, onkoloji yardım artıq yalnız ixtisaslaşmış dövlət müəssisələrində deyil, həm də "Lisenziyalar və icazələr haqqında" qanuna uyğun olaraq bu sahə üzrə xüsusi lisenziyaya malik özəl tibb müəssisələrində göstərilə biləcək. Hazırda qüvvədə olan "Onkoloji yardım haqqında" qanuna görə xidmət yalnız dövlət müəssisələrində və dövlət büdcəsi hesabına həyata keçirilir, özəl sektorun bu sahədə fəaliyyəti isə lisenziyadan kənar hesab olunur. Dəyişiklik pasiyentlərin həkim və tibb müəssisəsini sərbəst seçmək hüququnun təmininə, eləcə də ölkə daxilində mövcud özəl tibbi potensialdan istifadəyə imkan yaradacaq. Layihə üçüncü oxunuşda qəbul edildi.

Plenar iclasın gündəliyinə daxil edilmiş digər qanun layihələri də müvafiq oxunuşlar üzrə səsverməyə çıxarılaraq qəbul edildi. Bununla da MM-in növbəti iclası öz işinə yekun vurdu.

***Tacir SADIQOV***
***XQ***

# Transxəzər rəqəmsal körpüsü

## *Fiber-optik kabel xətti Azərbaycanı Xəzərin dibi ilə dünyaya qovuşduracaq*

**Prezident İlham Əliyevin “Azərbaycanın yeni rəqəmsal arxitekturası” adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə səsləndirdiyi fikir ölkənin rəqəmsal gələcəyi üçün strateji məna daşıyan mühüm bir layihəni gündəmə gətirdi. Söhbət Xəzər dənizinin dibi ilə Azərbaycanın Şərq sahillərini Mərkəzi Asiya istiqaməti ilə birləşdirəcək yeni fiber-optik kabel xəttindən gedir. Dövlət başçısının vurğuladığı kimi, layihənin icrası hazırda davam edir və ilin sonuna qədər tamamlanması gözlənilir. Bu xəttin istismara verilməsi ilə Azərbaycanın Şərq istiqamətində rəqəmsal bağlantıları daha güclü şəkildə təmin olunacaq, Qərb istiqamətində isə yeni marşrutlar üzərində işlərin genişləndirilməsi zərurəti yaranacaq.**




### Fiber-optik kabel layihəsi nədir?

Fiber-optik kabel yüksək sürətli məlumat ötürülməsi üçün nəzərdə tutulan müasir rabitə infrastrukturudur. Transxəzər Fiber Optik Kabel Xətti Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və Türkmənistan daxil olmaqla bir neçə ölkənin ərazisindən keçməsi nəzərdə tutulan “Rəqəmsal İpək Yolu” layihəsinin əsas dayaqlarından biri hesab olunur. Bu texnologiyanın əsas fərqi ondan ibarətdir ki, məlumatlar elektrik siqnalı ilə yox, işıq impulsları ilə ötürülür. Bu isə internetin sürətini, sabitliyini və ötürmə keyfiyyətini kəskin şəkildə artırır.

Xəzər dənizinin dibi ilə çəkiləcək fiber-optik xətt Azərbaycanın rəqəmsal kommunikasiya xəritəsində yeni mərhələ hesab olunur. Layihənin mahiyyəti Azərbaycanın telekommunikasiya şəbəkəsini Xəzərin Şərq sahilləri, yəni Qazaxıstan və Türkmənistan istiqaməti ilə birbaşa birləşdirmək, oradan isə Özbəkistan, Qırğızıstan, Çin və digər bazarlara çıxışı genişləndirməkdən ibarətdir.

Fiber-optik xətti Azərbaycan üçün strateji əhəmiyyət malikdir. Azərbaycan artıq uzun illərdir ki, regionun əsas tranzit və logistika mərkəzlərindən biri kimi çıxış edir. Son dövrlərdə bu rol təkcə nəqliyyat vasitələrinin hərəkətindən ibarət deyil. Rəqəmsal tranzit xəttində də ölkənin mövqeyi güclənir.

Ekspertlərin fikrincə, sözügedən fiber-optik kabel xəttinin istismara verilməsi Azərbaycanın Mərkəzi Asiya ilə rəqəmsal əlaqələrini birbaşa qurmasına imkan yaradacaq, ölkəni regional internet trafikinin əsas marşrutlarından birinə çevirəcək. Həmçinin layihə beynəlxalq məlumat mübadiləsi bazarında Azərbaycanın mövqelərini daha da gücləndirəcək. Eyni zamanda, bu addım rəqəmsal iqtisadiyyatın inkişafı üçün əlavə imkanlar formalaşdıracaq.

Qeyd edək ki, bu layihə eyni zamanda Orta Dəhlizin (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) rəqəmsal komponentini gücləndirən addım kimi də dəyərləndirilir. Çünki müasir dünyada təkcə yük və sərnişin daşınması yox, məlumat axını da geoiqtisadi güc vasitəsinə çevrilib.

Araşdırmalar göstərir ki, yeni fiber-optik xəttin əsas üstünlüklərindən biri yüksək sürət və böyük ötürmə qabiliyyətidir. Fiber-optik kabel internet trafiki üçün çox böyük həcmdə məlumat ötürməyə imkan verir və bu, dövlət qurumlarının, bank sektorunun, eləcə də biznes strukturlarının rəqəmsal sistemlərinin daha çevik və sürətli işləməsinə şərait yaradır.

Bu xətt informasiya təhlükəsizliyi baxımından da mühüm imkanlar açır. Rəqəmsal suverenlik anlayışı bu gün dövlətlərin əsas prioritetlərindən biri hesab olunur. Yeni kabel marşrutu Azərbaycanın alternativ bağlantılar əldə etməsi deməkdir ki, bu da texniki risklərin azalmasına, kritik rabitə sistemlərinin daha dayanıqlı fəaliyyət göstərməsinə və ümumi təhlükəsizlik səviyyəsinin yüksəlməsinə xidmət edir.

Şərq istiqamətində yeni xəttin yaranması ölkəni Mərkəzi Asiya ilə Avropa arasında rəqəmsal körpüyə çevirən əsas mexanizmlərdən biri kimi çıxış edə bilər. Bu isə gələcəkdə data mərkəzlərinin yaradılması, beynəlxalq telekommunikasiya operatorlarının və texnologiya şirkətlərinin ölkəyə marağının artması baxımından mühüm faktor sayılır.

Xatırladaq ki, “AzerTelecom” şirkəti 2018-ci ilin sonlarından etibarən Avropa ilə Asiya arasında rəqəmsal telekommunikasiya dəhlizinin formalaşdırılması məqsədilə Azərbaycanla Mərkəzi Asiya ölkələrini birləşdirəcək Xəzər dənizinin dibi ilə magistral fiber-optik kabel xəttinin çəkilməsi üzrə “Transxəzər Fiber Optik Kabel Xətti” layihəsinin icrasına başlayıb.

Layihə iki əsas marşrutu əhatə edir. Birinci istiqamət Azərbaycan–Qazaxıstan xətti üzrə Xəzərin dibi ilə magistral fiber-optik kabelin çəkilməsini, ikinci istiqamət isə Azərbaycan–Türkmənistan marşrutu üzrə eyni tip kabel xəttinin qurulmasını nəzərdə tutur.

### Azərbaycan – Qazaxıstan rəqəmsal xətti

Layihənin əsas istiqamətlərindən biri Azərbaycanla Qazaxıstan arasında Xəzər dənizinin dibi ilə magistral fiber-optik kabel xəttinin çəkilməsidir. Bu məqsədlə 2018-ci ilin sonunda Azərbaycan tərəfdən “AzerTelecom”, Qazaxıstan tərəfdən isə “Transtelekom” və “KazTransCom” operatorları Avropa ilə Asiyanı birləşdirəcək rəqəmsal telekommunikasiya dəhlizinin yaradılması üçün “Transxəzər Fiber Optik Kabel Xətti”nin (TransCaspian Fiber Optic – TCFO) tikintisi üzrə əməkdaşlıq memorandumu imzalayıblar.

Məlumata görə, kabel xəttinin ümumi uzunluğu 380–400 km olacaq, məlumat ötürmə gücü isə 400 terabit/s-ə qədər çatdırılacaq. Layihə çərçivəsində kabel xətti Sumqayıt ilə Aktau arasında çəkiləcək.

Hazırda tikinti işlərinin davam etdiyi bildirilir və kabel xəttinin 2026-cı ilin sonunadək tam yekunlaşdırılması nəzərdə tutulur.

Strateji əhəmiyyət daşıyan bu layihənin icrasına beynəlxalq səviyyədə tanınan konsaltinq və telekommunikasiya şirkətləri, o cümlədən “McKinsey and Company”, “Detecon”, “Axiom”, “DLA Piper”, “Huawei” və “PwC” cəlb edilib.

### Azərbaycan – Türkmənistan rəqəmsal xətti

Transxəzər Fiber Optik Kabel Xətti layihəsinin ikinci istiqaməti Azərbaycan–Türkmənistan marşrutunu əhatə edir. Bu layihənin icrası üçün 28 noyabr 2019-cu il tarixində Aşqabadda keçirilən “Türkmentel 2019” 12-ci Beynəlxalq Telekom və İT Sənayesi sərgisi çərçivəsində iki ölkə arasında Xəzər dənizinin dibi ilə magistral fiber-optik kabelin çəkilməsi ilə bağlı dövlətlərarası saziş imzalanıb.

Sazişə əsasən, kabel xətti Azərbaycan tərəfdən “AzerTelecom”, Türkmənistan tərəfdən isə “Türkmentelekom” şirkəti tərəfindən həyata keçiriləcək. Layihəyə görə kabel xətti Sumqayıt ilə Türkmənbaşı şəhərləri arasında çəkiləcək. Ümumi uzunluğu təxminən 300 km olacaq bu magistral xətt 2–4 terabit/s həcmində məlumat ötürməyə imkan verəcək. Kabel xətti Avropadan gələn internet trafikinin Azərbaycan üzərindən Türkmənistana, oradan isə Özbəkistan, Əfqanıstan, Pakistan və Hindistan istiqamətində ötürülməsinə şərait yaradacaq.

***Musa BAĞIRLI***
***XQ***

### *Ekspert rəyi*



**Qalib QURBANOV,**
**Azərbaycan İnternet Cəmiyyətinin sədri**

“Rəqəmsal İpək Yolu” təşəbbüsü regionun texnoloji taleyini yenidən yazmağa iddialıdır. Layihə Mərkəzi və Cənubi Asiyanı dünyanın ən qabaqcıl rəqəmsal standartları ilə eyni platformada birləşdirməyi hədəfləyir. Məqsəd isə xarici internet təminatçılarından asılılığı minimuma endirmək, məlumat axınını sürətləndirmək və təxminən 1,8 milyard insan üçün rəqəmsal xidmətlərə çıxışı daha əlçatan və etibarlı etməkdir.

Bu strateji xətt çərçivəsində Azərbaycan və Gürcüstanda müasir Data Mərkəzlərinin, eləcə də internet trafik mübadiləsi məntəqələrinin yaradılması nəzərdə tutulur. Regionun qlobal hiper miqyaslı texnologiya şirkətləri üçün cəlbedici təyinat nöqtəsinə çevrilməsi əsas prioritetlərdən biridir.

Layihənin əsas istiqamətlərindən biri Azərbaycan ilə Qazaxıstan arasında Xəzər dənizinin dibi ilə magistral fiber-optik kabel xəttinin çəkilməsidir. Sumqayıt və Aktau şəhərlərini birləşdirəcək bu xəttin uzunluğu 380–400 kilometr təşkil edəcək. Məlumat ötürmə gücü isə 400 terabit/saniyəyə qədər olacaq ki, bu da region üçün tamamilə yeni texnoloji imkanlar deməkdir.

Bu istiqamətdə ilkin addımlar bir neçə il əvvəl atılıb. 2019-cu ilin 19 noyabr tarixində Aktau şəhərində Transxəzər Fiber-Optik kabel xəttinin Qazaxıstan ərazisində tikintisinə start verilməsi ilə bağlı təntənəli mərasim keçirilib. 2023-cü ilin iyun ayında isə Bakıda “AzerTelecom” və “Kazakhtelecom” arasında birgə müəssisənin yaradılmasına dair səhmdarlar müqaviləsi imzalanıb. Bu sənəd layihənin icrasında tərəflərin koordinasiyalı fəaliyyətini və uzunmüddətli əməkdaşlıq niyyətini təsdiqləyir.

2025-ci ilin 4 mart tarixində Bakıda “Xəzər dənizinin dibi ilə sualtı fiber-optik kommunikasiya xətlərinin tikintisinə dair müqavilənin təsdiq edilməsi haqqında” sənədin imzalanması isə prosesi praktik mərhələyə keçirib. Tenderin qalibi “HMN Technologies Co.” şirkəti olub və müqavilə şərtləri tam razılaşdırılıb. Tikinti işlərinin 2026-cı ilin sonuna qədər yekunlaşdırılması planlaşdırılır.

“Rəqəmsal İpək Yolu” regionun rəqəmsal suverenliyini gücləndirən, iqtisadi rəqabət qabiliyyətini artıran və yeni texnoloji reallığın əsasını qoyan strateji transformasiya proqramıdır.

---

**Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən “Azərbaycanın yeni rəqəmsal arxitekturası”na həsr olunmuş müşavirə ölkənin texnoloji gələcəyi ilə bağlı bir sıra mühüm mesaj verdi. Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev müzakirədə bildirdi ki, hazırda startapların maliyyələşməsi üçün səmərəli mexanizmlər formalaşmayıb. Bazarda cəmi 12 milyon manatlıq 3 fond mövcuddur və bu, ölkənin real potensialını əks etdirmir.**

# Texnoloji startaplar və onların gələcək taleyi

Məsələnin belə aktuallaşdırılması rəqəmsal inkişafda yeni mərhələnin başlanğıcı ola bilər. Çünki rəqəmsal iqtisadiyyat artıq alternativ sahə deyil – qlobal iqtisadi artımın əsas drayveridir. Dünyada vençur kapital yatırımları yüz milyardlarla dollarla ölçülür. Azərbaycan isə bu yarışda start xəttində dayanıb.




### Startap ekosisteminin tələbləri

Birinci məsələ maliyyə arxitekturasının qurulmasıdır. “Fond-of-fond” modeli tətbiq edilə bilər. Dövlət ilkin kapital qoyur, daha sonra yerli və xarici investorları cəlb edir. Bu model 1990-cı illərdə İsraildə uğurla tətbiq olunmuşdu və nəticədə ölkə “Startap milləti” adını qazandı. İkinci istiqamət vergi və hüquqi stimullardır. Hazırda KOBİA tərəfindən təqdim edilən “Startap” şəhadətnaməsi innovativ layihələrə üç il müddətində gəlir vergisindən azadolma imkanı yaradır.

“Startap” şəhadətnaməsi almaq üçün KOB subyektlərindən İqtisadiyyat Nazirliyinin tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) daha 9 müraciət daxil olub. Müraciətlərə Ekspertlər Şurasının iclasında baxılıb və onlardan 8-nə "Startap" şəhadətnaməsinin verilməsi barədə qərar qəbul edilib. İndiyədək isə 255 mikro və kiçik sahibkara KOBİA tərəfindən “Startap” şəhadətnaməsi verilib. Bununla yanaşı, qrant dəstəyi də mövcuddur. Bugünədək KOB-ların təhsil, elm, tədqiqat və dəstək istiqamətləri üzrə 129 layihəsinin maliyyələşdirilməsinə 2,2 milyon manatdan çox qrant vəsaiti ayrılıb.

Üçüncü istiqamət dövlət sifarişləri mexanizmidir. Dövlət startap məhsullarının ilk alıcısına çevrilərsə, bu həm bazar etibarı yaradar, həm də ilkin gəlir təmin edər. Böyük Britaniyada bu model uğurla işləyir və dövlət innovativ şirkətlərin erkən mərhələdə ayaqda qalmasına şərait yaradır.

Daha bir istiqamət insan kapitalıdır. Müxtəlif proqramlar, universitet inkubatorları və beynəlxalq mentor şəbəkələri gücləndirilməlidir. Startap ekosistemi yalnız pul ilə deyil, bilik və əlaqə ilə böyüyür.

Digər tərəfdən, ekosistemin inkişafını ölçmək üçün açar göstəricilər müəyyən edilməlidir. Keçmiş startap sayı, cəlb olunan sərmayə məbləği, bağlanmış sazişlərin sayı, qrantları alan startapların gəlir artımı və ixtiralar, eləcə də uğurlu startapların ildən-ilə açıq hesabatlarla monitorinq edilməlidir.

### Beynəlxalq təcrübə necədir?

İsrail 2024-cü ildə startaplara 10,6 milyard dollar investisiya cəlb edərək dünyada 5-ci yeri tutub. Bu göstərici ölkənin əhalisi ilə müqayisədə rekord səviyyədir. 1993-cü ildə yaradılan Yozma fondu dövlət və özəl sektorun ortaq investisiya mexanizmini qurdu. Bu model sonradan yüzlərlə vençur fondunun yaranmasına səbəb oldu.

2023-cü ildə qəbul edilən “Angels Law” investorların yatırımlarının 33 faizinə qədərini vergi krediti kimi geri qaytarmağa imkan verir. Bu isə risk kapitalını daha cəlbedici edir. Dövlət yalnız tənzimləyici deyil, aktiv tərəfdaş kimi çıxış edir.

Estoniya korporativ gəlirin reinvestisiya olunan hissəsinə 0 faiz vergi tətbiq edir. Bu, innovasiyaya yönələn kapitalın ölkə daxilində qalmasına səbəb olur. 2024-cü ildə Estoniya startapları 326 milyon avro investisiya cəlb edib.

Böyük Britaniya isə “Innovate UK” və “British Business Bank” vasitəsilə milyardlarla funt sterlinqlik dəstək mexanizmləri formalaşdırıb. EIS və SEIS proqramları investorlar üçün 30 faizədək vergi güzəşti təqdim edir.

Azərbaycanın rəqəmsal arxitektura planı startap ekosistemini iqtisadi siyasətin mərkəzinə yerləşdirməlidir. Dövlət-özəl vençur fondlarının yaradılması, investorlar üçün vergi təşviqləri, Dövlət satınalmalarında startap kvotaları, regional innovasiya mərkəzləri Bu addımlar həyata keçirilsə, 12 milyon manatlıq məhdud bazar qısa müddətdə çoxqatlı investisiya ekosisteminə çevrilə bilər.

Rəqəmsal iqtisadiyyat artıq gələcəyin yox, bu günün reallığıdır. Azərbaycanın dövlət siyasəti və cəsarətli maliyyə mexanizmləri gələcəyi müəyyən edəcək.

***Nurlan ABDALOV***
***XQ***

### *Ekspert rəyi*



**Fərid KAZIMOV,**
**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İctimai Şuranın üzvü**

Startapların Azərbaycanda davamlı şəkildə yaradılması və inkişaf etdirilməsi, eləcə də 1–3 milyard dollarlıq ixrac hədəflərinə çatmaq üçün uzun və sistemli bir yol keçilməlidir. Son 15 ildə ölkəmizdə startaplarla bağlı mühüm addımlar atılıb, həm dövlət, həm də özəl sektor səviyyəsində müxtəlif təşəbbüslər həyata keçirilib. Lakin reallıq ondan ibarətdir ki, qarşıdakı məsafə hələ kifayət qədər uzundur. Bu yolu qət etmək üçün bir sıra əsas məhdudiyyətləri aradan qaldırmaq vacibdir.

Birinci və ən mühüm məhdudiyyət bilik məsələsidir. Azərbaycanda sahibkarlıq üzrə baza bilikləri yetərli səviyyədə formalaşmayıb. Startap qurmaq istəyən şəxslər – yaşından asılı olmayaraq – tamamilə yeni tələblər və çağırışlarla üzləşirlər.

İkinci vacib məsələ mühitin formalaşdırılmasıdır. Sahibkarlığa maraq yalnız universitet auditoriyalarında yaranmır. Gənclər qarşılarında aydın hədəf görməlidirlər. Əgər tələbə düşünürsə ki, məzun olduqdan sonra sabit maaşlı iş tapmaq daha təhlükəsiz yoldur, bu, sahibkarlıq mühitinin zəifliyinə işarədir. Maraqlı məqam ondan ibarətdir ki, beynəlxalq statistika göstərir: ən uğurlu bizneslərin böyük hissəsi 35–40 yaşdan yuxarı şəxslər tərəfindən qurulur. Bunun səbəbi onların həyat və peşəkar təcrübəyə malik olmalarıdır.

Buna baxmayaraq, ekosistemin inkişaf tempi hələ arzu olunan səviyyədə deyil. Müqayisə üçün qeyd etmək olar ki, bəzi region ölkələri, o cümlədən Özbəkistan startap ekosisteminə daha böyük maliyyə resursları yönəldir və nəticədə onların texnologiya ixracı 1 milyard dolları ötüb. Bu fakt göstərir ki, dövlət dəstəyi və maliyyə qoyuluşu həlledici amillərdən biridir.

Maliyyə məsələsinə gəldikdə isə, təkcə pulun olması kifayət etmir. Əsas məsələ investisiya cəlb edə biləcək, qlobal bazarlarda rəqabət aparmaq gücündə olan startapların sayının artmasıdır. Hazırda mövcud vençur fondları belə, investisiya qoymaq üçün uyğun layihələr axtarır. Əgər Azərbaycanda bir neçə güclü uğur hekayəsi formalaşsa, uğurlu “exit”lər baş versə, bu, avtomatik olaraq böyük investorların diqqətini cəlb edəcək. Çünki investorun əsas göstəricisi qazanc perspektividir. Kapital riskin az, gəlirin isə yüksək olduğu mühitə yönəlir.

Dünya təcrübəsi göstərir ki, böyük texnologiya şirkətləri dövlətlə əməkdaşlıq və inteqrasiya imkanları sayəsində güclənib. Eyni model Azərbaycanda da tətbiq oluna bilər, xüsusilə B2B, B2C və B2G istiqamətində fəaliyyət göstərən startaplar üçün.

Bununla yanaşı, pilləli qrant proqramlarının tətbiqi vacibdir. İsrail modelində olduğu kimi, startap əvvəlcə ilkin qrant alır, məhsulun bazar uyğunluğu təsdiqləndikdən sonra isə ikinci mərhələdə əlavə dəstək əldə edir. Çünki pre-seed və seed mərhələsində investor cəlb etmək çətindir və risk yüksək olur.

Ona görə də erkən mərhələdə dövlət və dövlət-özəl tərəfdaşlıq mexanizmləri vasitəsilə maliyyə və institusional dəstək sistemli şəkildə qurulmalıdır. Bu yanaşma həm ayrı-ayrı startapların, həm də ümumi ekosistemin dayanıqlı inkişafını təmin edə bilər.

# Dağ yolları da rəqəmsallaşır

## *Yardımlı dolaylarında 3D texnologiyasının tətbiqi*

**Bu gün respublikamızın inkişaf modelində modernləşmənin təkcə mərkəzdə deyil, bütün ölkə üzrə paralel şəkildə həyata keçirilməsi üstünlük təşkil edir. İnfrastruktur siyasəti isə bu modelin əsas dayaqlarından biridir. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, regionların inkişafı ümumi milli inkişafın ayrılmaz tərkib hissəsidir.**

Yol infrastrukturu isə iqtisadiyyatın "qan dövranı sistemi" hesab olunur. Müasir və təhlükəsiz yol şəbəkəsi olmadan nə sənaye, kənd təsərrüfatı, turizm, nə də sosial xidmətlərin səmərəli fəaliyyəti mümkündür. Bu baxımdan Yardımlıda 3D formatlı yolun salınması texniki yenilik olmaqla bərabər, həm də dövlət siyasətinin məntiqi davamıdır.

### "Ağıllı" yol ayıqlığa çağırır

Regionlarda innovativ texnologiyaların tətbiqi göstərir ki, infrastruktur layihələri artıq təkcə sosial-mədəni, iqtisadi obyektlərin tikintisi kimi deyil, eyni zamanda, strateji idarəetmə və rəqəmsal transformasiya vasitəsi olaraq nəzərdən keçirilir. Bu yanaşma respublikamızda qəbul edilən uzunmüddətli inkişaf kursu ilə tam uzlaşır. Adıçəkilən rayonda 3D formatlı yol layihəsi də rəmzi xarakter daşımaqla bərabər, daha geniş konsepsiyaya əsaslanır. Buna 3 mühüm istiqamətin vəhdəti – regional balanslı inkişaf, rəqəmsal texnologiyaların və təhlükəsiz infrastrukturun qurulması kimi yanaşılır.

Qeyd edək ki, müasir dünyada yol iqlim dəyişikliklərinə uyğunlaşan və təhlükəsizliyi proqnozlaşdıran sistemdir. Azərbaycanın da bu istiqamətdə davamlı addımlar atması ölkənin infrastruktur siyasətinin keyfiyyət mərhələsinə keçdiyini göstərir. 3D layihələndirmə və innovativ təhlükəsizlik həlləri isə dövlət üçün uzunmüddətli maliyyə səmərəliyi, vətəndaş üçün təhlükəsizlik, region üçün iqtisadi dinamika deməkdir. Bu model genişləndikcə, yol təsərrüfatı klassik tikinti sahəsindən çıxaraq intellektual infrastruktur sisteminə transformasiya olunur.

Beləliklə, Yardımlıda tətbiq edilən 3D yol yanaşması kiçik bir coğrafiyada gerçəkləşdirilən təşəbbüs olmaqla bərabər, həm də Azərbaycanın gələcək inkişaf fəlsəfəsinin göstəricisidir. Modernləşmə isə artıq paytaxtdan regionlara doğru deyil, eyni vaxtda və paralel şəkildə bütün ölkə üzrə həyata keçirilir. Bu isə davamlı və inklüziv inkişaf modelinin əsas şərtidir.



Bəs 3D formatlı yol hansı cəhətləri ilə diqqət çəkir? Bu sualın cavabında **yol eksperti Nuru Hüseynzadə** bildirdi ki, yeni anlayış beynəlxalq təcrübədə daha çox 3D vizual təsirli yol nişanlanması kimi qəbul edilir. Bu halda yolun üzərindəki zebra keçidləri, sürət azaldıcı zolaqlar və ya təhlükə nişanları ilə xüsusi perspektiv boyama texnikası əsasında üçölçülü (həcmli) görüntü yaradılır. Sürücü uzaqdan baxdıqda bu zolaqlar yolun üzərində real fiziki maneə kimi görünür. Məqsəd isə sürətin azaldılması, piyadaların təhlükəsizliyinin artırılması və diqqətin cəmlənməsidir. Bu metod ilk dəfə geniş tətbiqini İslandiya və Hindistan kimi ölkələrdə tapıb. Sonradan Çin və Birləşmiş Ərəb Əmirlikləri də bu təcrübəni tətbiq edib.

Ümumiyyətlə, 3D rəqəmsal layihələndirmə əsasında inşa edilən yol daha geniş və texnoloji anlayışdır. Belə yollar 3D geodeziya xəritələri, rəqəmsal relyef modelləri və lazer skan texnologiyaları əsasında layihələndirilir və tikilir. Eyni zamanda, daha dəqiq yamac bucaqları ilə qurulur, su axınının düzgün istiqamətləndirilməsini gerçəkləşdirir, sürüşmə və eroziya riskini azaldır və dağlıq ərazilər üçün səmərəli həll sayılır. Yardımlı kimi dağlıq rayonda isə bu yanaşma xüsusi əhəmiyyət daşıyır.

### Səmərəli və sərfəli layihə

Beynəlxalq təcrübəyə əsasən, rəqəmsal layihələndirmə ilkin mərhələdə 5-7 faiz əlavə planlaşdırma xərci yaratsa da, uzunmüddətli dövrdə 15-25 faizədək qənaətin əldə edilməsini reallaşdırır. Xüsusilə dağlıq ərazilərdə sürüşmə və eroziya risklərinin azalması gələcək büdcə yükünü əhəmiyyətli dərəcədə aşağı salır. Əgər Yardımlı kimi rayonlarda bu model sistemli tətbiq olunarsa, dövlət büdcəsi üçün orta və uzunmüddətli dövrdə ciddi qənaət səmərəliyi müşahidə edilər.

Bütün bu amillər yol infrastrukturunun nəqliyyat məsələsi olmaqla bərabər, həm də iqtisadi fəallığı artıran əsas hərəkətverici qüvvəsidir. Bu baxımdan layihə dağlıq relyefi və təbii landşaftı ilə seçilən sözügedən rayonun turizm potensialına müsbət təsir göstərmək imkanlarını genişləndirir. Başqa sözlə, Yardımlıda 3D rəqəmsal layihələndirməsinin gerçəkləşdirilməsi təhlükəsiz və dayanıqlı yol infrastrukturunun qurulmasını sürətləndirir, səfər risklərini azaldır və turizm axınını gücləndirir. Bütün bunlarla bərabər, belə bir müasir texnologiyanın tətbiqi kiçik sahibkarlığın inkişafını stimullaşdırır.

Qeyd edək ki, rayonda sözügedən rəqəmsal yol modelinin tətbiqi kənd təsərrüfatının inkişafına da müsbət təsir göstərəcək. Bu, eyni zamanda, Yardımlı kimi dağlıq bir ərazidə məhsulun bazara vaxtında çatdırılmasını çətinləşdirən logistika problemi aradan qaldırılacaq, daşıma xərclərini azaldacaq, məhsul itkisini minimuma endirəcək, fermerlərin gəlirini artıracaq. Bütün bunlarla bərabər, sosial xidmətlərə çıxışı da asanlaşdıracaq. Məsələn, rayonda təcili tibbi yardımın operativliyi yüksələcək, təhsil müəssisələrinə əlçatanlıq yaxşılaşacaq.

Yardımlıda 3D formatlı yolun salınması təşəbbüsü göstərir ki, müasir layihələndirmə və təhlükəsizlik texnologiyaları artıq regionlarda da tətbiq edilir. Rəqəmsal əsaslı infrastruktur modeli dövlət üçün uzunmüddətli qənaət, vətəndaşlar üçün təhlükəsizlik, regionlar üçün isə iqtisadi dinamika vəd edir. Yardımlıda 3D formatlı yolun tətbiqi isə təkcə texniki yenilik deyil, həm də Azərbaycanın qəbul etdiyi strateji inkişaf sənədləri ilə uzlaşan bir yanaşmadır. Son illərdə ölkədə infrastrukturun modernləşdirilməsi, regionların balanslı inkişafı və rəqəmsal transformasiya prioritet istiqamət kimi müəyyənləşdirilib.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən koordinasiya olunan və ölkənin uzunmüddətli inkişaf çərçivəsini müəyyənləşdirən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində rəqabətqabiliyyətli iqtisadiyyat, dayanıqlı infrastruktur və rəqəmsallaşma əsas istiqamətlər kimi göstərilir. 3D layihələndirmə və rəqəmsal yol tikintisi məhz bu prioritetlərin real tətbiq formasıdır. İnfrastrukturun yalnız fiziki deyil, eyni zamanda, rəqəmsal əsaslarla planlaşdırılması dövlət idarəçiliyində məlumat əsaslı qərarvermə modelini gücləndirir.

Ölkədə həyata keçirilən regional inkişaf proqramları çərçivəsində yol infrastrukturu əsas komponent hesab olunur. Dağlıq və sərhəd rayonlarında müasir texnologiyaların tətbiqi regionlararası fərqlərin azaldılmasına xidmət edir. Yardımlı nümunəsi göstərir ki, innovativ yanaşmalar artıq yalnız paytaxt və iri şəhərlərlə məhdudlaşmır. Bu, dövlət investisiyalarının daha səmərəli və strateji planlaşdırılmasına işarədir.

### Rəqəmsal keçiddə "ağıllı" təşəbbüslər

Son illərdə ölkədə rəqəmsal dövlət quruculuğu istiqamətində mühüm addımlar atılıb. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən həyata keçirilən rəqəmsallaşma siyasəti nəqliyyat və logistika sektorunda da yeni texnologiyaların tətbiqini stimullaşdırır.

3D layihələndirmə gələcəkdə "ağıllı" nəqliyyat sistemləri, sensorlu monitorinq şəbəkəsi, real vaxtda yol vəziyyətinin təhlili, iqlim risklərinin proqnozlaşdırılması kimi elementlərin tətbiqi üçün baza yaradır. Bu isə infrastrukturun sadəcə tikinti obyekti deyil, həm də inteqrasiya olunmuş idarəetmə sistemi kimi formalaşması deməkdir.

Müasir infrastruktur siyasəti ekoloji davamlılıq prinsiplərinə əsaslanır. 3D modelləşdirmə torpaq işlərinin optimallaşdırılması, eroziyanın azaldılması və su resurslarının düzgün idarə olunması baxımından əhəmiyyətlidir. Bu yanaşma həm karbon izinin azaldılmasına, həm də uzunmüddətli ekoloji balansın qorunmasına xidmət edir. Xüsusilə dağlıq rayonlarda iqlim dəyişikliklərinin təsirinə qarşı davamlı yol infrastrukturu formalaşdırmaq strateji zərurətə çevrilib.

Yardımlıda 3D formatlı yolun salınması lokal layihə olmaqla yanaşı, milli inkişaf strategiyasının praktik təzahürüdür. Bu təşəbbüs rəqəmsal transformasiya siyasəti ilə uzlaşır, regionların inkişafına töhfə verir, dövlət investisiyalarının səmərəliliyini artırır və uzunmüddətli büdcə qənaəti yaradır. Beləliklə, 3D yol modeli Azərbaycanın infrastruktur siyasətində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Əgər bu yanaşma sistemli şəkildə genişləndirilərsə, ölkənin yol şəbəkəsi təkcə fiziki deyil, həm də rəqəmsal və intellektual infrastruktur səviyyəsinə yüksələ bilər.

***Vaqif BAYRAMOV***
***XQ***

*Ekspert rəyi*



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

Respublikamızın dağlıq rayonlarından olan Yardımlıda 3D formatında yolun salınması ölkənin infrastruktur siyasətində yeni yanaşmanın tətbiqi kimi qiymətləndirilə bilər. 3D yol anlayışı ilk baxışda qeyri-adi səslənsə də, bu termin müasir yol tikintisi və təhlükəsizlik texnologiyalarının iki mühüm istiqamətini – üçölçülü vizual təhlükəsizlik həllərini və rəqəmsal 3D layihələndirmə əsaslı tikinti modelini özündə birləşdirir.

Yardımlı kimi relyefi mürəkkəb olan rayonda 3D texnologiyasının tətbiqi təsadüfi deyil. Ənənəvi layihələndirmə üsullarında torpaq sürüşməsi, eroziya və kəskin yamac problemləri sonradan əlavə xərclərə səbəb ola bilər. 3D model isə riskləri əvvəlcədən hesablamağa imkan verir.

Avropa ölkələrində, xüsusilə Norveç və Niderland kimi mürəkkəb relyefə malik dövlətlərdə rəqəmsal layihələndirmə artıq standart praktikadır. Bu yanaşma həm təhlükəsizlik, həm də büdcə səmərəliliyi baxımından üstünlük təşkil edir. Eyni zamanda, 3D vizual elementlərin əsas üstünlüyü onların sürücünün diqqətinə birbaşa təsir etməsidir. Çünki fiziki "sürət kəsici" qurğulardan fərqli olaraq, 3D təsirli nişanlanma avtomobilin mexaniki hissələrinə zərər vermir, lakin sürücünü ehtiyatlı davranmağa məcbur edir. Bu, xüsusilə məktəb zonalarında və yaşayış məntəqələrində səmərəli sayılır.

Beynəlxalq nəqliyyat təhlükəsizliyi ekspertləri tərəfindən bu texnologiya "aşağı maliyyəli, yüksək təsirli" həll kimi qiymətləndirirlər. İnfrastrukturun tam yenilənməsi ilə müqayisədə 3D vizual tətbiqləri daha sürətli və qənaətli olur. Yardımlıda 3D yolun salınması isə yalnız texniki yenilik olmaqla yanaşı, həm də regionlarda innovativ yanaşmanın tətbiqi deməkdir. Bu, eyni zamanda, bir neçə mühüm mesaj verir.

İlk növbədə, infrastruktur siyasətində rəqəmsallaşmanın prioritet olduğuna diqqət çəkir, ikincisi, dağlıq rayonlarda təhlükəsizlik standartlarını yüksəldir, müasir layihələndirmənin regionlara da tətbiqinə zəmin yaradır və üçüncüsü, turizm potensialı olan ərazilərdə infrastruktur keyfiyyətini artırır. Əgər bu təcrübə sistemli şəkildə davam etdirilərsə, gələcəkdə Azərbaycanın digər dağlıq rayonlarında da 3D əsaslı yol tikintisi modeli geniş tətbiq oluna bilər.

Beləliklə, 3D yol anlayışı yalnız estetik və ya texniki yenilik deyil. Bu, infrastrukturun planlaşdırılmasında yeni düşüncə modelidir. Yardımlı nümunəsi göstərir ki, Azərbaycan regionlarda da müasir yanaşmaları tətbiq etmək imkanına malikdir. Uzunmüddətli perspektivdə isə 3D layihələndirmə və təhlükəsizlik texnologiyaları dövlət büdcəsinə qənaət, regionlara iqtisadi dinamika və vətəndaşlara daha təhlükəsiz yol mühiti vəd edir.

# "Şahdəniz" yatağında yeni mərhələ başlanır

## *"Kompressiya" layihəsi əlavə 50 milyard kubmetr qaz hasilatına imkan yaradacaq*

**Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağının zəngin qaz və kondensat ehtiyatları ölkəmizə olan beynəlxalq marağı getdikcə artırır. Bunun nəticəsidir ki, "Şahdəniz" qazı zaman keçdikcə özünə daha çox alıcı tapır. Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə xidmət edən Cənub Qaz Dəhlizinin uğurlu fəaliyyəti isə "Şahdəniz" layihəsi səhmdarlarının səmərəli fəaliyyətindən asılıdır.**

"bp–Azərbaycan" şirkətinin 2025-ci ilin yekunları ilə bağlı hesabatına əsasən, il ərzində "Şahdəniz" layihəsinin əməliyyat tədbirlərinə 2 milyard 315 milyon dollar, əsaslı məsrəflərinə isə 1 milyard 87 milyon dollar xərclənib. Həmin vəsaitin böyük əksəriyyəti hazırda fəal işlənmə mərhələsində olan "Şahdəniz-2" layihəsinə sərf edilib.

Zəngin qaz və kondensat ehtiyatlarına görə seçilən "Şahdəniz" yatağında ötən müddətdə iki hasilat platforması quraşdırılaraq istismara verilib. Həmin qurğuların gündəlik hasilat gücü, təxminən, 77 milyon (ildə 28 milyard kubmetrdən artıq) kubmetr təşkil edir. Ötən il "Şahdəniz-Alfa" və "Şahdəniz-Bravo" adlı platformalardan, ümumilikdə, 27 milyard kubmetr qaz və 4 milyon ton kondensat çıxarılıb.

Layihə səhmdarları tərəfindən "Şahdəniz" yatağının bir neçə mərhələdə işlənməsi ilə bağlı qərar qəbul olunub. Yatağın birinci işlənmə mərhələsi çərçivəsində tikinti-quraşdırma işlərinə 2003-cü ilin əvvəllərində, ilk qazın hasilatına isə 2006-cı ilin sonlarında başlanılıb. Yatağın ikinci işlənmə mərhələsi isə genişliyi və əhatəliyi baxımından daha çox seçilir. İl ərzində əlavə olaraq daha 16 milyard kubmetr qaz hasilatını nəzərdə tutan bu mərhələ çərçivəsində genişmiqyaslı tədbirlər həyata keçirilir.

Hazırda "Şahdəniz-2" layihəsi çərçivəsində ilk dəfə olaraq Xəzər dənizində yatağın sualtı işlənməsi texnologiyası tətbiq olunur ki, bu da bp şirkətinin dünya üzrə operatoru olduğu ən iri sualtı infrastrukturdur. Təxminən, 28 milyard ABŞ dolları həcmində investisiya qoyulmuş bu layihə, ümumilikdə, planlaşdırılmış ən azı 26 sualtı quyudan, bir-birinə körpü ilə birləşdirilmiş iki platformadan, 500 kilometr uzunluğunda sualtı boru kəmərləri və axın xətlərindən, Səngəçal terminalında əsaslı genişləndirmə işlərindən ibarətdir.



Layihənin detallarına, həmçinin Azərbaycan ərazisində 428 kilometr, Gürcüstan ərazisində isə 59 kilometr uzunluğunda yeni boru kəmərləri və iki yeni kompressor stansiyası, eləcə də Cənubi Qafqaz boru kəmərinin (CQBK) genişləndirilməsi daxildir.

"Şahdəniz" yatağının ikinci işlənmə mərhələsində qaz hasilatına 2018-ci il iyulun 30-da başlanılıb. Həmin gün yatağın şimal cinahındakı "SDC03Z" quyusunun istismara verilməsi ilə "Şahdəniz Bravo" platformasından ilk qaz əldə olunub. Sonrakı illərdə yeni quyuların istismara daxil edilməsi ilə hasilat artmağa başlayıb. 2022-ci ildə "Şahdəniz-2" layihəsi çərçivəsində daha bir uğura imza atan konsorsium iştirakçıları yatağın qərb-cənub cinahını işlənməyə daxil ediblər.

2025-ci ilin dördüncü rübündə "Şahdəniz-"2 layihəsi çərçivəsində yatağın şərq-şimal cinahındakı quyularda sualtı işlər üzrə fəaliyyətlər davam etdirilib. "Xankəndi" sualtı tikinti gəmisi ilə hazırda istismarda olan bütün "Şahdəniz-2" və AÇG sualtı hasilat obyektlərinə texniki xidmət, yoxlama və müdaxilə ilə bağlı ümumi işlərə dəstək verilib. İlin son rübündə gəminin ümumi yoxlama və texniki xidmət işləri, o cümlədən yan hərəkəti tənzimləyən qurğunun təmiri uğurla başa çatdırılıb.

Ötən il layihə çərçivəsində nəzərdə tutulmuş qazma əməliyyatları da qrafikə uyğun davam etdirilib. Dördüncü rübdə "Şahdəniz Alfa" platformasının qazma qurğusu ahəngdar iş rejiminə qaytarılıb. Bu da quyularda bir sıra əlavə perforasiya işlərinə başlamağa imkan yaradıb. Bununla yanaşı, rüb ərzində "İstiqlal" qazma qurğusu SDG03 quyusunda əlavə perforasiya işləri həyata keçirib və yatağın qərb cinahında SDD05 quyusunda karotaj və birləşdirmə borularının düzülməsinə başlayıb. "Heydər Əliyev" qazma qurğusu isə yatağın şərq-şimal cinahında SDH05 quyusunun qazma işlərini davam etdirib.

Bütövlükdə isə, ötən müddətdə "Şahdəniz-2" layihəsi çərçivəsində 23 quyu qazılıb. Həmin quyuların 5-i yatağın şimal cinahında, 5-i qərb cinahında, 4-ü şərq-cənub cinahında, 5-i qərb-cənub cinahında, 4-ü isə şərq-şimal cinahında yerləşir.

"Şahdəniz" yatağından çıxarılan qaz sualtı infrastruktur vasitəsilə Səngəçal terminalına nəql olunur. Buradakı qurğular qazı qəbul edərək Cənubi Qafqaz boru kəmərinə (CBQK) ötürür. 2025-ci ildə "Şahdəniz" qazının, eləcə də "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokundan neftlə bərabər çıxarılan səmt qazının sualtı boru kəmərləri vasitəsilə Səngəçal terminalına göndərilməsi davam edib. Terminalın texniki emal sistemlərinin gündəlik gücü hazırda, təqribən, 81 milyon kubmetrdir.

Ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik 100 milyon standart kubmetr təşkil edir. Qaz Səngəçal terminalından Cənubi Qafqaz boru kəməri (CQBK) və terminalın qaz emalı obyektlərini SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyininın qazpaylama sistemi ilə birləşdirən Azərbaycana məxsus qaz kəməri ilə ixrac olunur. Ötən il buradan gündəlik orta hesabla, təxminən, 74,4 milyon kubmetr "Şahdəniz" qazı göndərilib.

İl ərzində qazın "Şahdəniz" yatağından Azərbaycan (SOCAR-a), Gürcüstan (GOGC şirkətinə) və Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına, çoxsaylı obyektlər üçün BTC şirkətinə, eləcə də Avropadakı alıcılara çatdırılması davam etdirilib. 2025-ci ildə CQBK-nin ixrac üçün gündəlik orta ötürücülük gücü 63,7 milyon kubmetr təşkil edib. Ötən il kəmərin əməliyyat xərclərinə 71 milyon dollar, əsaslı xərclərinə isə 38 milyon dollar sərf olunub.

Xatırladaq ki, Azərbaycan qazını Avropaya çatdıran Cənub Qaz Dəhlizinin mühüm seqmentlərindən sayılan Cənubi Qafqaz boru kəməri 2006-cı ilin sonlarında istismara verilib. Ötən müddətdə Gürcüstan, Türkiyə və Avropadakı istehlakçıları daha çox "mavi yanacaq"la təmin etmək məqsədilə sözügedən kəmərin imkanları xeyli genişləndirilib. Yeri gəlmişkən, genişləndirilmiş Cənubi Qafqaz boru kəməri sistemi ilə kommersiya qaz həcmlərinin Türkiyəyə çatdırılmasına 2018-ci ilin iyun ayında, Avropaya isə 2020-ci ilin dekabrında başlanılıb.

Ötən il "Şahdəniz" yatağında daha bir mühüm layihənin icrasına başlanılıb. Dəyəri 2,9 milyard dollar təşkil edən "Şahdəniz kompressiya" layihəsində məqsəd yataqdakı aşağı təzyiqli qaz ehtiyatlarını əlçatan etməklə burada maksimum qazvermə əmsalına nail olmaqdır. Layihə çərçivəsində istismara veriləcək unikal platformanın "Şahdəniz" yatağından, təxminən, 50 milyard kubmetr əlavə qaz və 25 milyon barelə yaxın əlavə kondensat hasilatına və ixracına imkan yaradacağı gözlənilir. Layihə, həmçinin yataqdan hasil edilən qazın təzyiqini artıraraq ixracını təmin etmək məqsədi daşıyır. Mövcud "Şahdəniz" platformalarının yaxınlığında yerləşəcək yeni kompressiya platforması suyun 85 metr dərinliyində quraşdırılacaq.

2025-ci ilin iyun ayında yekun investisiya qərarı qəbul edildikdən sonra "Şahdəniz kompressiya" layihəsi üzrə bir sıra müqavilələr imzalanıb. Həmin müqavilələrə mühəndis-layihələndirmə və təchizat xidmətləri, üst modulların və dayaq blokunun tikintisi, platformanın daşınması və dənizdə quraşdırılması, eləcə də sualtı qurğuların layihələndirilməsi, təchizatı, tikintisi və quraşdırılması işləri daxildir. Layihə, həmçinin "Şahdəniz" müqavilə sahəsində quraşdırılacaq bir sıra əlaqədar obyektləri, eləcə də "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarında, eləcə də Səngəçal terminalında mövcud infrastruktur üzərində aparılacaq bir sıra mühüm işləri də əhatə edir.

Tələb olunan hərtərəfli keyfiyyət və əməyin təhlükəsizliyi yoxlamaları uğurla bitdikdən sonra sentyabr ayında "Şahdəniz kompressiya" platformasının üst modulları üçün polad kəsimi işlərinə start verilib. Tikinti-quraşdırma işlərinin 2029-cu ildə başa çatması ilə "Şahdəniz kompressiya" platformasının həmin ildə "Şahdəniz Alfa", 2030-cu ildə isə "Şahdəniz Bravo" platformalarından hasil edilən qaz həcmlərini kompressiya etmək üçün qəbul etməyə hazır olacağı planlaşdırılır.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

**Son illərdə qlobal əmək bazarında yeni tendensiya və çağırışlar yaranır. Texnoloji dəyişikliklər, süni intellekt, rəqəmsallaşma, yeni bacarıqlara dair tələblər, iqtisadi strukturun transformasiyası və digər amillər dövlətləri öz məşğulluq siyasətlərinə yenidən baxmağa məcbur edir.**

# İş-gücsüz qalmasın bircə insan da

## *Məşğulluqdan məmnunluğa aparan davamlı yol*




Yeni şəraitdə məşğulluq sahəsində daha çevik, hədəfli, insan mərkəzli və daha məsuliyyətli yanaşma tələb olunur. Qlobal miqyasda gedən bu çağırışlara uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi (DMA) də aktiv məşğulluq proqramlarının əhatəsini, rəqəmsal həllərin tətbiqini daim genişləndirir.

Agentlikdən "XQ"-yə verilən məlumata görə, 2025-ci il ərzində qurum tərəfindən 189 min şəxs münasib işlə təmin edilib. 16 min 800 nəfər özünüməşğulluq proqramına, 18 min 400 nəfər peşə hazırlığı kurslarına cəlb olunub, 10 800 nəfərə isə işsizlikdən sığorta ödənişi təyin olunub.

Əsas diqqət yalnız yeni iş yerlərinin yaradılmasına deyil, məşğulluğun keyfiyyətinə, davamlılığına və sosial təsirinə yönəlib. Bu yanaşmanın mərkəzində vətəndaşın iqtisadi cəhətdən gücləndirilməsi prinsipi dayanır. Ölkədə son illər genişmiqyaslı sosial islahatlar, iqtisadi sahədə vətəndaşyönümlü kompleks tədbirlər həyata keçirilib. Qeyri-neft sektorunun inkişafı, əhalinin rifahının yaxşılaşdırılması, məşğulluq imkanlarının genişləndirilməsi, əmək, məşğulluq və sosial təminat sistemlərinin müasir tələblərə uyğun qurulması istiqamətində mühüm addımlar atılıb.

### Böyük Qayıdış – məşğulluqdan məskunlaşmaya

2025-ci ildə Agentliyin fəaliyyətində işğaldan azad edilmiş ərazilərdə məşğulluğun təmin edilməsi əsas prioritetlərdən olub. Çünki məşğulluq "Böyük Qayıdış"ın əsas sosial və iqtisadi dayağını təşkil edir. Həmçinin bu proqram yalnız fiziki köçürülmə prosesi deyil, eyni zamanda, dayanıqlı iş yeri, artıma meyilli gəlir mənbəyi və sosial sabitlik deməkdir.

Rəqəmlərə gəlincə, 2025-ci il də daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə görülmüş məşğulluq tədbirləri nəticəsində cari ilin yanvar ayının sonunadək həmin ərazilərə köçürülmüş əhalidən 8 min 228 nəfərin məşğulluğu təmin olunub. İşğaldan azad edilmiş ərazilərdə məşğulluq göstəricisi 90 faizin üzərindədir. Qeyd edilən dövrədək işğaldan azad edilmiş ərazilərdə öz kiçik biznesini qurmaları üçün özünüməşğulluq proqramı çərçivəsində dövlət dəstəyi göstərilənlərin sayı 716 nəfərə çatıb.

İşğaldan azad edilmiş ərazilərdə peşə hazırlığının təşkili istiqamətində də xeyli işlər görülüb. Belə ki, ötən il bu ərazilərdə 152 nəfər peşə hazırlığı kurslarını uğurla başa vurub və ixtisaslar üzrə işlə təmin edilib. Ümumilikdə, bugünədək bu ərazilərdə peşə hazırlığına cəlb olunanların sayı 361 nəfərə çatıb.

Aktiv məşğulluq tədbirlərindən biri kimi əmək yarmarkalarının təşkili işğaldan azad edilmiş ərazilərdə sistemli şəkildə həyata keçirilib. 2025-ci ildə 18 belə yarmarka keçirilib və beləliklə, bu ərazilərdə keçirilmiş əmək yarmarkalarının sayı 26-ya çatıb. Bunlardan başqa, sözügedən ərazilərdə "Qayıt İş" və "BioKarabakh" layihələri də həyata keçirilməkdədir. "Qayıt İş" layihəsi üzrə dövlət–özəl tərəfdaşlığı çərçivəsində 17 nəfər hazırda işləyir. "BioKarabakh" layihəsi isə Xocavənd rayonunda kompot və meyvə şirələrinin istehsalını nəzərdə tutur.



### Özünüməşğulluq – sosial dəstəkdən iqtisadi fəaliyyətə

Özünüməşğulluq DMA-nın həyata keçirdiyi aktiv məşğulluq tədbirləri arasında ən önəmli yer tutur. Təsadüfi deyil ki, Prezident İlham Əliyev yerli televiziya kanallarına son müsahibəsində cəmiyyətdə ələbaxımlılığın yolverilməzliyini vurğulayaraq, özünüməşğulluq proqramının işsizliyin böyük hissəsini faktiki olaraq aradan qaldırdığını bildirib. Ona görə də bu proqrama yanaşma ondan ibarətdir ki, məşğulluq siyasəti yalnız iş tapmaqla yekunlaşmamalıdır.

Əsas məqsəd vətəndaşı passiv sosial dəstək alan subyektdən iqtisadiyyatın fəal iştirakçısına çevirməkdir. Bu baxımdan, 2025-ci ildə də özünüməşğulluq proqramı əsas fəaliyyət istiqamətlərindən biri olub. Proqramın əsas məqsədi aztəminatlı ailələrin gəlir imkanlarını genişləndirmək, kiçik sahibkarlığı təşviq etmək və regionlarda əlavə dəyər yaradan iqtisadi fəallığı artırmaqdır.

2025-ci il ərzində 16 min 800 nəfər özünüməşğulluq proqramına cəlb edilib. Bu şəxslər arasında şəhid ailələrinin üzvləri – 94 nəfər, məcburi köçkünlər – 976 nəfər, ünvanlı sosial yardım alan ailələr – 131 nəfər, pensiya yaşına 2 ildən az qalan şəxslər – 520 nəfər, cəza müəssisələrindən azad edilmiş şəxslər – 262 nəfər, əlilliyi olan şəxslər isə 1284 nəfər olub. Ümumilikdə, 2017-ci ildən bəri proqram çərçivəsində 100 mindən artıq vətəndaş aktivlərlə təmin olunaraq kiçik ailə təsərrüfatlarını qurub. Bu yanaşma bir daha onu göstərir ki, dövlətin məqsədi sadəcə dəstək vermək deyil, vətəndaşın öz ayaqları üzərində durmasına şərait yaratmaqdır.

Ötən il pilot olaraq əmək bazarının real tələblərinə əsaslanaraq 5 yeni biznes ideyanın (kotançılıq, qəssab, avtodəmirçi və zədələrin boyasız təmiri xidmətləri, avtorazval xidməti və özünəxidmət avtoyuma) tətbiqinə başlanıb. Hazırda proqram çərçivəsində vətəndaşlara 32 müxtəlif biznes ideyası təklif edilir. 2025-ci ildə ilk dəfə olaraq klaster əsaslı özünüməşğulluq modeli pilot şəkildə tətbiq edilib. Oğuz rayonunda həyata keçirilmiş avtoklaster layihəsi eyni sahədə fəaliyyət göstərən kiçik bizneslərin bir ekosistem daxilində işləməsinə, xidmət keyfiyyətinin yüksəlməsinə və bazara çıxış imkanlarının genişlənməsinə şərait yaradıb.

Bunlara paralel şəkildə, özünüməşğulluq proqramını daha da gücləndirən və genişləndirən daha bir layihə icra olunmaqdadır.

Söhbət Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi"ndən gedir. Bu il bu layihənin 2026–2029-cu illəri əhatə edən ikinci mərhələsinin icrasına başlanacaq. 2020–2025-ci illəri əhatə edən ilkin mərhələdə 22 min işsiz şəxsin özünüməşğulluq fəaliyyətinə cəlb edilməsi nəzərdə tutulsa da, layihənin uğurlu icrası nəticəsində ümumilikdə 26 min nəfərdən artıq şəxs bu layihəyə cəlb edilib. Növbəti mərhələdə daha 30 min nəfərin kiçik bizneslərini qurmasına dəstək nəzərdə tutulur. Layihə əlillər, müharibə iştirakçıları və şəhid ailəsi üzvləri, qadınlar və digər həssas qruplara aid şəxslərin istehsal və xidmət sahələri üzrə kiçik bizneslərini qurmalarına dəstək məqsədi daşıyır.

Layihə çərçivəsində keçirilən "Həvəsləndirmə mükafatları" müsabiqəsində qalib elan olunanlara da layihə üzrə qurduqları bizneslərini genişləndirmək üçün əlavə avadanlıqlar verilir. 2026-cı ildə isə daha 190 nəfərə bu dəstəyin göstərilməsi planlaşdırılır.

Həyata keçirilən "Sosial cəhətdən həssas şəxslər üçün əlavə iş yerlərinin yaradılması" pilot layihəsi isə işsiz və ya işaxtaran şəxslərin istehsal və xidmət sahələri üzrə məşğulluq imkanlarını artırmaq, o cümlədən özünüməşğulluğunu təmin etmiş şəxslərin bizneslərini inkişaf etdirmələrinə dəstək məqsədi daşıyır. Layihə ilkin mərhələdə Bakı, Abşeron-Xızı, Quba-Xaçmaz və Lənkəran-Astara iqtisadi rayonlarını əhatə edəcək. Layihədə iştirak üçün proqram iştirakçılarına dair tələblər bunlardır: Özünüməşğulluq proqramı çərçivəsində qurduğu təsərrüfatı son bir il ərzində fəaliyyətdə olan; Müraciət tarixinə Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəlikləri olmayan (bununla bağlı müvafiq vergi orqanından alınmış arayış müraciətə əlavə edilməlidir). Qeyd edilən meyarlara cavab verən 50 benefisiar seçiləcək və onların işə qəbul etdikləri işçilərin əməkhaqqı və ona bağlı icbari ödənişlərinin ilk 3 ayda tam məbləği, növbəti 3 ayda isə 50 faizi "Məşğulluğa Dəstək Layihəsi" tərəfindən ödəniləcək.

### Peşə hazırlığı – dəyişən tələblərə cavab

Agentliyin həyata keçirdiyi aktiv məşğulluq tədbirlərindən biri də peşə hazırlığı xidmətləridir. Peşə hazırlığı işaxtaran və işsiz şəxslərin bilik və bacarıqlarının artırılması, onların əmək bazarının tələblərinə uyğunlaşdırılması, bununla da onların sosial müdafiəsinin gücləndirilməsi və işlə təmin olunma imkanlarının genişləndirilməsi məqsədilə işəgötürənlərin real tələbləri nəzərə alınmaqla həyata keçirilən aktiv məşğulluq tədbiridir. 2025-ci ildə 18,4 min nəfərdən artıq işsiz və işaxtaran peşə hazırlığına cəlb edilib. Onların əksəriyyəti kursları bitirdikdən sonra artıq işlə təmin olunub.

Ötən il ümumilikdə 85 ixtisas üzrə kadr hazırlığı aparılıb və bu, son illərdə ən çox ixtisas üzrə kadr hazırlığı aparılan ildir. Müsbət haldır ki, tədris edilən ixtisaslar arasında müasir peşələr də var. Xüsusən gənclərin İT peşələrə marağı gündən-günə artır. Eyni zamanda, "Böyük Qayıdış" proqramı çərçivəsində hazırda Qarabağda yaradılan sənaye kompleksləri, azad iqtisadi zonalarda fəaliyyət göstərən müəssisələr üçün də kadr hazırlığı istiqamətində müvafiq işlər aparılıb. Peşə hazırlığına cəlb edilənlər arasında həssas kateqoriyadan olan şəxslər xüsusi yer tutur. Belə ki, ötən il əlilliyi olan 500-dək şəxs, habelə müharibə veteranı olan 300-dən artıq şəxs, cəzaçəkmə müəssisəsindən azad edilmiş 50-dən artıq vətəndaşın peşə hazırlığına cəlb edilərək onların əmək bazarına transformasiyasına şərait yaradılıb.

### Düzgün məsləhət – sağlam karyera

DMA aktiv məşğulluq tədbirlərindən biri kimi karyera və peşəyönümü məsləhət xidmətlərinin göstərilməsinə də xüsusi önəm verir. Burada əsas məqsəd ölkə səviyyəsində ömür boyu təhsili təşviq etmək, beynəlxalq təcrübədən yararlanaraq karyera məsləhət xidmətini inkişaf etdirmək, karyera məsləhəti mütəxəssisləri üçün ölkədaxili sertifikatlaşdırma imkanları yaratmaq, karyera planlaması və inkişafı mövzusunda təlimlər təşkil etmək, karyera məsləhət xidmətlərini vahid mərkəzdən idarə etmək, karyera planlaması və inkişafına dair vətəndaşlara xidmət göstərməkdir. Bu çərçivədə 2025-ci ildə 343 min nəfərə peşəyönümü məsləhət xidməti göstərilib. "Alo karyera" onlayn dəstək xidməti vasitəsilə 1849 vətəndaş üçün 2248 fərdi karyera məsləhəti konsultasiyası həyata keçirilib.

Ötən il həyata keçirilmiş kütləvi maarifləndirmə tədbirlərindən biri də "PeşəFest" olub. "Peşə öyrən, gələcəyini qur!" devizi altında gənclərin və şagirdlərin peşə seçiminə dəstək göstərmək, onların karyera istiqamətində düzgün qərar vermələrinə kömək məqsədi ilə ölkənin 11 regionunu əhatə edən peşələr festivalında ümumilikdə 95 min nəfərdən çox iştirakçı olub.

Ötən ilə damğasını vuran daha bir layihə "Gələcəyin Peşələri Sammiti" olub. Sammit əmək bazarında baş verən dəyişiklikləri, yeni peşə və bacarıqlarla bağlı tələbləri, texnologiya və innovasiyaların iş dünyasına təsirlərini peşəkar mühitdə müzakirə etmək, təhsil və məşğulluq sahələrində yeni çağırışlar nəzərə alınmaqla, bu ekosistem iştirakçılarının gələcək əmək bazarına hazırlıqlarını dəstəkləmək məqsədi daşıyıb. "Gələcəyə tərəf" devizi ilə Naxçıvan və Bakıda təşkil edilmiş bu tədbirlərdə ümumilikdə 670 nəfər iştirak edib.

### Rəqəmsallaşma – dövrün tələbidir

Məşğulluq sahəsində rəqəmsal layihələrin inkişaf etdirilməsi ötən il də əsas prioritetlərdən olub. ƏMAS-ın "Peşə hazırlığı" modulu istifadəyə verilib. Modul sayəsində özəl tədris müəssisələrinin əməkdaşlığına dair bütün proseslər elektronlaşdırılıb. "İşsizlikdən sığorta" modulunda işsizlikdən sığorta ödənişinin təyin olunmasının elektronlaşdırılması istiqamətində işlər yekunlaşıb, "Kvota" modulu istifadəyə verilib.

Modul sayəsində işəgötürənlər müəssisə üçün ayrılmış kvota iş yerlərinin sayını və icra vəziyyətini real vaxt rejimində ƏMAS vasitəsinə görə, həmçinin cari kvota iş yerlərinə nəzərən öhdəlikləri barədə tam məlumat əldə edə bilərlər. Eyni zamanda, sistem kvota iş yerləri üzrə müraciət edən şəxslər barədə operativ məlumatların alınmasını təmin edir və vətəndaşların "sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslər" kateqoriyasına uyğunluğunu avtomatik təsdiqləməyə imkan verir.




Karyera ilə əlaqəli rəqəmsal platformalardan "Mərkəzi Karyera Portalı" istifadəyə verilib. Portalın tərkibinə həm istifadə olunan xidmətlər ("Məzunların məşğulluq reytinqi" platforması, "CV yarat" və "Alo karyera" dəstək xidməti), həm də yeni yaradılmış iki innovativ platforma – "İş dəyərləri aləti" və "Peşələrin atlası" daxildir. Müstəqil platforma kimi "Peşələrin atlası" üzrə işlər yekunlaşdırılıb və platformaya 40 peşə haqqında məlumat əlavə olunub. "İş dəyərləri" aləti vasitəsilə test və sorğulardan istifadə edilərək karyera məsləhəti prosesindən öncə vətəndaşların peşə seçimi haqqında məlumatları formalaşdırılır və peşə seçiminə dəstək göstərilir.

"Məzunların məşğulluq reytinqi" platformasında məlumatların yenilənməsi təmin edilib. DMA və "PashaPay" MMC-nin birgə təşkilatçılığı ilə "Qayıt İş" layihəsi çərçivəsində Füzuli şəhərində "Bir ekosistem" daxilində "m10" və Milliön Telesatış mərkəzi istifadəyə verilib. "İşədüzəlmədə vasitəçilik" modulu üzrə işədüzəltmə fəaliyyəti göstərən hüquqi şəxslər ilə DMA-nın qarşılıqlı öhdəlikləri tam elektronlaşdırılıb.

### Azərbaycanın məşğulluq modeli

Dövlət Məşğulluq Agentliyi dünyada mövcud olan müasir trendləri izləmək, həmçinin çağırışlara vaxtında reaksiya verə bilmək üçün beynəlxalq əməkdaşlığın inkişafına da xüsusi önəm verir. Agentlikdən verilən məlumata görə, 2025-ci ili də bu mənada məhsuldar il hesab etmək olar. Belə ki, 2025-ci ilin 5–9 may tarixlərində Kot-d'İvuar Respublikasının Abican şəhərində Ümumdünya Məşğulluq Xidmətləri Assosiasiyası (WAPES) tərəfindən keçirilmiş Dünya Konqresində agentlik təşkilatın Avropa regionu üzrə İdarə Heyətinə 2025–2028-ci illər üçün üzv seçilib.

WAPES-in ölkə təqdimatı layihəsi çərçivəsində agentliyin fəaliyyəti barədə WAPES-in üzv ölkələri üçün vebinar keçirilib və Azərbaycan məşğulluqla bağlı öz təcrübəsini bölüşüb. Bundan başqa, Avropa Sosial Şəbəkəsi və İslam Əməkdaşlıq Təşkilatının Məşğulluq Xidmətləri Şəbəkəsi ilə əməkdaşlıq davam etdirilib. Türkiyə, Rumıniya, Sloveniya, Qazaxıstan, Koreya, Malayziya, İspaniya, Mərakeş, Xorvatiya, Almaniya, Özbəkistan, Bosniya və Herseqovina, Monteneqro və Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələr genişləndirilib, o cümlədən Mərakeş, Malayziya və Qazaxıstanla əməkdaşlıq sənədləri imzalanıb. Görülmüş uğurlu işlərin nəticəsi olaraq, DMA ötən il 13 beynəlxalq mükafata, o cümlədən Beynəlxalq Standartlaşdırma Təşkilatının (ISO) "Antikorrupsiya idarəetmə sistemi" standartı üzrə sertifikatına layiq görülüb.

### Daha çox məşğulluq, daha dayanıqlı imkanlar

2026-cı ildə də işsiz və işaxtaran şəxslərin məşğulluq imkanlarının artırılması işləri davam etdiriləcək. DMA-dan verilən məlumata görə, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin, o cümlədən əlilliyi olan şəxslərin aktiv məşğulluq proqramlarına cəlb edilməsi diqqət mərkəzində saxlanacaq. Dayanıqlı peşəyönümü məsləhət xidmətinin göstərilməsini təmin edəcək mexanizm yaradılacaq.

Özünüməşğulluq proqramı çərçivəsində mövcud zərflərin təkmilləşdirilməsi və klaster əsaslı mexanizmin tətbiqi davam etdiriləcək. Əmək bazarındakı dinamika nəzərə alınmaqla gələcəyin peşələri üzrə yeni peşə hazırlığı proqramları hazırlanacaq. İşəgötürənlərlə daha sıx əməkdaşlığın qurulması məqsədilə onlara yönəlik təşviq mexanizmləri yaradılacaq.

Məşğulluq sahəsində göstərilən xidmətlərə əlçatanlığın artırılması məqsədilə rəqəmsallaşma prosesi də davam etdiriləcək, ƏMAS-da mövcud modullar təkmilləşdiriləcək, yeni funksionallıqlar əlavə olunacaq. Xüsusilə də "Böyük Qayıdış" proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərdə məşğulluğun təmin edilməsi diqqət mərkəzində saxlanacaq. Bundan başqa, "Məzunların məşğulluq reytinqi" platforması üzrə axtarış və vizuallaşdırma parametrləri təkmilləşdiriləcək, habelə peşə hazırlığı üzrə reytinq sistemi yaradılacaq.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

*Mütəxəssis məsləhəti*

# Ağaclar qış yuxusuna gedəndə...

**Hazırda ana təbiətimiz qış dövrünü keçirir. Kiçik çillə nə qədər gücünü göstərsə də, qarşıda təbiətin oyanışı, gözəl yazın gəlişi durur. Yaz fəslinə sayılı günlər qalıb və kənd təsərrüfatının vacib sahələrindən biri olan bağçılıqda becərmə işlərinin başa çatdırılması mühüm məsələ kimi qarşıda durur.**



Qeyd edilməlidir ki, son onillikdə respublikamızda mütərəqqi texnologiyalar əsasında on minlərlə hektar intensiv, superintensiv tipli alma, armud, gilas, şaftalı, ərik bağları salınmışdır. Belə bağların 1 hektar sahəsində 2000-4000 ədəd ağac yerləşir və bunlar da damcı suvarma sisteminin köməyi ilə suvarılır.

**Qış dövründə və yazın gəlişinə kimi bağbanlarımız bağlarda hansı işləri görməlidirlər?**

Məlumdur ki, noyabr ayında yarpaqlar tökülməyə başlayandan martın ortalarına qədər əksər meyvə ağacları qış yuxusuna gedirlər. Bu zaman meyvə bağları zərərverici və xəstəlikləri qışlama dövrlərini ağacların quru qabıqları altında, skelet budaq və zoğların üzərində, yerə tökülmüş yarpaqlar arasında və torpağın üst qatında keçirirlər.

Meyvə bağlarının zərərvericilərindən həlqəvi və tor ipəksarıyanlar öz yumurtalarını ağacların budaqları üzərinə qoyurlar. Kaliforniya və tut qalxanlı yastıcaların kiçik yaşlı sürfələri cavan zoğ və skelet budaqlarda üstlərini möhkəm, qoruyucu qabıq ilə örtərək qışlayırlar. Alma, şərq, gavalı meyvəyeyənləri, eləcə də şüşəqanad kəpənəyin tırtılları, alma çiçəkyeyəni, armud uzunburun böcəyi, kazarka və bukarka ağacların gövdəsindəki çatların və quru qabıqların altında, yerə tökülmüş xəzəl arasında və torpaqda gizlənərək qışlamanı keçirirlər. Minalayacı güvələr, Amerika ağ kəpənəyinin pupları da ağacların gövdələri üzərində, torpağın üst qatında və yerə tökülmüş xəzəllərin arasında özlərinin qış dövrünü yaşayırlar.



Qonur və qırmızı meyvə gənələri yumurta fazasında zoğların, skelet budaqların qabığı üzərində, yemişan gənəciyi isə yetkin formada xəzəllərin arasında, ağacların quru qabıqları altında qışlama dövrlərini keçirirlər. Yarpaqbükənlər və ipəksarıyan kəpənəklər isə öz yumurtalarını qrup halında (150-yə qədər) ağacların 1-2 illik budaqlarına, gövdələrinə qoyaraq qışlama dövrünü keçirirlər. Meyvə bağlarına zərər vuran bütün mənənə növləri də zoğların uclarında, skelet budaqların üzərində qışlama dövrlərini yumurta fazasında keçirirlər.

Meyvə bağlarına böyük ziyan vuran, onların zəifləməsinə, hətta qurumasına, məhsuldarlıqlarının aşağı düşməsinə səbəb olan dəmgil, unlu şeh (külləmə), monilioz, klasterosporioz, septarioz fillostiktoz, polistiqmoz kimi göbələk xəstəlikləri ağacların zoğ və tumurcuqlarında, qabıqlarında, yerə tökülmüş yarpaqlar üzərində mitseli, çanta, yaxud konidial mərhələlərdə qışlama fazalarını keçirirlər. Alma və armud ağaclarının skelet budaqlarının, gövdəsinin, bəzən də bütün yerüstü hissəsinin qurumasına səbəb olan adi xərçəng, qara xərçəng, sitosporoz, səthi nekroz, vertisillioz, bakterial nekroz, bakterial xərçəng, kök xərçəngi və digər qabıq, oduncaq, kök xəstəlikləri müxtəlif formalarda (piknidi, apotesi, peritesi və s.) özlərinin sakit formalarına keçmişlər.

Qeyd etmək lazımdır ki, yeni bağların salınması zamanı aqronomik qaydalara riayət edilmədikdə, o cümlədən köhnə bağın çıxarılaraq onun yerinə dərhal yeni tumlu (alma, armud), yaxud çəyirdəkli (gilas, gavalı, şaftalı, ərik və s.) bağ salındıqda, həmin torpaqda olan göbələk mənşəli (vertisilioz, fuzarioz və s.), həmçinin bakterial mənşəli (kök xərçəngi, bakterial xərçəng, bakterial nekroz və s.) törədicilərinin aktiv fəaliyyətləri nəticəsində cavan ağacların 60-70 faizinin, bəzən də daha çox hissəsinin quruması müşahidə edilir.

Meyvə çürüməsi (monilioz) xəstəliyinin törədiciləri isə ağacların budaqlarında quruyub qalmış çürük, mumiyalaşmış meyvələrdə "ehtiyat mənbəyi", yaxud depo kimi qalmışlar. Belə budaqlarda qalmış meyvələrdə həm də qara xərçəng xəstəliyinin törədiciləri də olur.

**Bağbanlar yuxarıda adları qeyd olunmuş zərərverici və xəstəliklərin qış və erkən yaz dövründə qarşısını necə ala bilərlər? Nə etmək lazımdır ki, bağda olan hər ağac sağlam qalsın və bol keyfiyyətli məhsul versin?**

Bunun üçün ağacların qış yuxusuna getdiyi dövrdə bağlarda keyfiyyətli becərmə işləri aparılmalıdır. Bu dövrdə hər bir bağban bağını diqqətlə yoxlamalı, bütün ağacların hər bir budağını, zoğunu belə nəzərdən keçirməlidir. Baxış zamanı ağaclardakı quru, xəstə budaqlar kəsilməli və bağdan kənara çıxarıb yandırılmalıdır. Müasir intensiv bağlarda isə budama zamanı kəsilmiş budaqlar cərgələrin ortasına atılır, sonra xüsusi şaxdoğrayanla doğranılır və torpağa qarışır. Budağagirən, üfunətli ağacovan, şərq meyvəyeyəni, qırışıqlı qabıqyeyən və digər zərərvericilərlə, həmçinin qara xərçəng, adi xərçəng, sitosporioz, bakterial nekroz və s. qabıq, oduncaq xəstəlikləri müşahidə edilən xəstə budaqlar və gövdə hissələri 1-2 santimetr sağlam toxumayadək kəsilməli və yaralar 3 faizli mis kuporosu (göydaş) məhlulu ilə dezinfeksiya edilərək üzərinə bağ məlhəmi sürtülməlidir.

Ağacların sükunəti dövründə, həm də ağacların dibləri, yəni gövdə ətrafları ya bellə, yaxud frezlə yumşaldılmalıdır. Cərgəaralarının hər 4 ildən bir 25-30 santimetr dərinlikdə şumlanması, qalan vaxtlarda diski, yaxud frez ilə yumşaldılması və ya otunun biçilməsi vacibdir.

Bu işlərin aparılması nəticəsində payızda yerə tökülmüş yarpaqlar torpağa qarışaraq çürüyür, torpağın üst qatında gizlənən həşəratlar isə məhv olurlar. Bu aylarda ağacların gövdə və əsas skelet budaqları quru qabıqdan tam təmizlənməlidir ki, orada gizlənən zərərverici həşəratlar məhv olsun. Zərərverici və xəstəlikləri kütləvi surətdə məhv etmək üçün bağlarda qış müalicəsinin aparılmasının böyük əhəmiyyəti vardır. Zərərvericiləri qış dövründə məhv etmək üçün qışlıq mineral yağdan (oleokuprit, vinterol və s.) 30-40 l/1 ton su hesabı ilə çiləmə işi aparılmalıdır. Bu zaman havanın temperaturunun 5-80C-dən yuxarı olmasına diqqət edilməlidir.

Bağlarda müşahidə edilmiş xəstəliklərə qarşı mis kuporosu (98 faizli göydaş) 15-20 kq/1 ton su, Bordomiks (20 faizli mis) - 20 kq/1 ton su, yaxud dəmir kuporosu (dəmir-sulfat) – 30 kq/1 ton su hesabı ilə çiləmə işi aparılmalıdır.

Bağbanlar payız-qış aylarında alma şüşəqanad kəpənəyi, qabıqyeyən böcəklər, dovşanlar və siçanabənzər gəmiricilərə qarşı 2 kiloqram sönmüş əhəng, 1 kiloqram gil və 1 kiloqram təzə at, yaxud inək peyininin onda bir suda qarışığından hazırlanmış məhluldan istifadə edə bilərlər.

Hər ilin dekabr ayından başlayaraq qış dövrü ərzində siçanabənzər gəmiricilərin işlək yuvalarına qarşı mütləq aldadıcı yem (zəhər) qoyulmalıdır. Aldadıcı yem 10 kiloqram pörtülmüş buğda + 40-50 qram bitki yağı + 40-50 qram sink-fosfid qarışığından hazırlanır və hər yuvaya çay qaşığı ilə 5-8 dən tökülərək yuvaların ağzı ayaqla bərkidilir.

Qeyd edək ki, gəmiricilərə qarşı mübarizədə çillə vaxtlarında keyfiyyətli qış suvarmasının da olduqca böyük əhəmiyyəti vardır. Beləliklə, qış və erkən yaz fəslində zərərverici və xəstəliklərə qarşı yaxşı becərmə və müalicə işləri aparılarsa, bağbanlar yayda bağlarından bol və keyfiyyətli məhsul ala bilərlər.

***Mədət QURBANOV,***
***KTN Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun bitki mühafizəsi şöbəsinin baş elmi işçisi, biologiya elmləri üzrə fəlsəfə doktoru***

# Mil düzünün "ağ qızıl"ı

**2025-ci ildə Beyləqan rayonunun pambıqçıları 8 min 930 hektar sahədən 37 min 560 ton "ağ qızıl" əldə ediblər. Hektarın orta məhsuldarlığı 42 sentner təşkil edib və bu göstərici ilə Beyləqan ölkənin pambıqçılıq rayonları arasında birinci yerdə olub.**



Bunun əsas səbəbləri torpağın münbitliyi ilə bağlı olsa da, insan amili də bu məsələdə mühüm rol oynayıb. Belə ki, sahələrin su təminatının vaxtında və düzgün təşkili, səpinin müasir aqrotexniki üsullara uyğun aparılması, gübrələmə, bitki mühafizəsi və keyfiyyətli toxum məhsul bolluğuna təminat yaradıb.

KTN-nin Bitki Mühafizə və Texniki Bitkilər ETİ-nin Mil Təcrübə Stansiyasının müdiri Səxavət Məmmədov bildirdi ki, Beyləqanda yerli və introduksiya olunmuş (xaricdən gətirilmiş) yeni pambıq sortlarının sınaq əkinləri keçirilir. Məqsəd bu sortların quraqlığa, xəstəliklərə və şoranlığa davamlılığını yoxlamaq, eləcə də pambıq məhsulu üçün daha əlverişli genetik xüsusiyyətlərə malik sortları geniş şəkildə əkməkdir. Bu da "ağ qızıl"ın keyfiyyətini və gəlirlərini yüksəltməyə xidmət edir. 2026-cı il üçün yerli sortların ərazisinin genişləndirilməsi məqsədilə 30 hektar əlavə sahə nəzərdə tutmuşuq".

Rayonun pambıqçılıq sahəsində qabaqcıl fermerlərdən olan Əlizamin Nəbiyev isə qazandığı uğurlardan danışdı: "Yeniyetmə yaşlarımdan pambıqçılıqla məşğulam. Valideynlərim bu sahədə çalışdığından daim onlara kömək edir və pambıqçılığın sirlərini öyrənirdim. Müqavilə bağladığımız şirkət bizi zəruri toxum, gübrə və bitki mühafizə vasitələri ilə təmin edir. Bunun qarşılığında məhsulu yetişdirmək və şirkətə təhvil vermək öhdəliyi götürmüşük".

Əməyinə verilən "Əmək" ordenini rayonda "ağ qızıl"ın inkişafına dövlət qayğısı kimi yüksək dəyərləndirən fermer daha böyük uğurlar qazanmaq əzmindədir. O, 410 hektar sahədə şəxsi texnikalarının köməyilə yüksək məhsul toplamaq üçün çalışır. Bizimlə söhbət zamanı fermer onu da qeyd etdi ki, pambıq əkinlərinin dövlət tərəfindən subsidiyalaşdırılması pambıqçıların sahəyə marağını daha da artırıb.

Yeri gəlmişkən, Aqrar Subsidiya Şurası 2026-cı ildə fermerlərə müasir suvarma sistemləri ilə təmin olunmuş əkin sahələrində becərilən pambığın hər tonuna görə 215 manat, müasir suvarma sistemləri ilə təmin olunmamış əkin sahələrində yetişdirilən pambığın hər tonuna görə isə 200 manat subsidiya ödənilməsi nəzərdə tutub.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

**Lənkəran yurdumuzun füsunkar guşələrindən biridir. Şərqdən mavi Xəzər, qərbdən əzəmətli Talış dağları ilə əhatələnib. Subtropiklər diyarı min bir nemət yetirən məhsuldar torpaqlara, rütubətli iqlimə, kifayət qədər su və əmək ehtiyatlarına malikdir. Rayonun iqtisadiyyatının əsasını aqrar-sənaye kompleksi təşkil edir.**

# Lənkəran: subtropik diyarın yeni dövranı

*Fermerlərin ötənilki uğurları son hədd deyil*

Müsahibimiz **Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru, aqrar sahədə zəngin təcrübəyə malik Tofiq Rzayev** rayonun sadə, zəhmətkeş, əməkçi insanlarının uğurlarından, ötən il aqrar sahədə qazanılmış nailiyyətlərdən söhbət açaraq dedi:



**– Lənkəran çoxşaxəli əkinçilik ənənələri olan aqrar rayondur. Əkin təyinatlı torpaqlar 12 min 700 hektar olmaqla, ümumilikdə rayonda 18 min 650 hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsi vardır. Keçən il 8 min 672,7 hektarda kənd təsərrüfatı məhsulları becərilib. Ümumi məhsul buraxılışının dəyəri 206 milyon 251 min 700 manat olmuşdur. Bunun 106 milyon 410 min 800 manatı bitkiçilik, 99 milyon 840 min manatı heyvandarlıq məhsullarının payına düşür. Əvvəlki illə müqayisədə ümumi məhsul istehsalı 8 faiz artıb.**

– İl ərzində 74 min 311 ton tərəvəz, 4 min 600 ton kartof, 1 545 ton taxıl, 395,8 ton yaşıl çay yarpağı, 2 min 781,2 ton çəltik, 6 min 930 ton naringi, 497,7 ton portağal, 3 min 784 ton limon, 5 min 750 ton feyxoa, 130,4 ton kivi, 1 599 ton çiyələk istehsal olunub.

**– Lənkəran tarixən özünün yüksək keyfiyyətli ətirli çayı, düyüsü, sitrus meyvələri ilə şöhrət qazanıb. Ötən il bu sahədə hansı yeniliklər, uğurlar əldə olunub?**

– Çayçılıq kənd təsərrüfatının prioritet istiqamətlərindəndir. Rayonda çayçılığın inkişafı üçün geniş imkanlar mövcuddur. 2017-ci il sentyabrın 3-də Lənkəran şəhərində keçirilmiş çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin



sərəncamları ilə 2018-2025-ci illər üçün respublikada çəltikçiliyin və sitrus meyvəçiliyinin inkişafına dair, 2018-2027-ci illər üçün çayçılığın inkişafına dair Dövlət proqramları qəbul olunub. Dövlətimizin aqrar sahənin inkişafına göstərdiyi misilsiz qayğı insanlarda torpağa münasibəti dəyişib, sahibkarlıq hissini gücləndirib. Çayçılıq yenidən Lənkəranın brendi kimi inkişaf etməyə və rayona şöhrət gətirməyə başlayıb.

Çayçılıqda müasir texnologiyaların tətbiqinə üstünlük verilir. Osaküçə kəndində Beta firması, İstisu qəsəbəsində "Yaşıl çay", "Green Pland" MMC, "Tuado çay", Vilvan və Haftoni kəndlərində fermer təsərrüfatları tərəfindən yeni çay sahələri salınıb. "Zəfər" çay sortu üzərində son sınaqlar aparılır. Rayonda 545,7 hektar çay plantasiyası mövcuddur. Bunun 43,3 hektarı cavan, 502,4 hektarı isə məhsul verən sahələrdir. "Bestarm" firması tərəfindən Sinovli kəndində 8,4 hektar, Osaküçə kəndində isə 1,95 hektar yeni üsulla çay tingləri əkilib. Ötən il məhsuldarlıq 7,9 sentner olmaqla 395,8 ton yaşıl çay istehsal olunub.

Gəlirli sahə olduğundan çəltikçiliyə maraq böyükdür. Keçən il 780,2 hektar sahədə çəltik əkilib. "Okean Pro" MMC, "Ruz" MMC, "Bestarm" firması, "Green Pland" MMC və ayrı-ayrı fermerlər tərəfindən əkin işləri müasir innovativ texnologiyaların tətbiqi ilə həyata keçirilib. Biçin vaxtı fasiləsiz yağışların yağması nəticəsində 662,2 hektar sahədə biçin aparılıb. Hektardan 42 sentner olmaqla 2 min 781 ton məhsul istehsal edilib. 2024-cü illə müqayisədə çəltik istehsalında artım nəzərə çarpır. Türkiyədən gətirilmiş "Feşan" çəltik sortu əkilmiş sahələrdən məhsuldarlıq 65 sentnerə çatıb. Bu, respublika üzrə ən yüksək göstəricidir.

Yeni intensiv sitrus bağlarının salınmasına görə birdəfəlik subsidiyaların verilməsi sahəyə marağı daha da artırıb. Keçən il ayrı-ayrı fermer təsərrüfatları, hüquqi və fiziki şəxslər yeni intensiv üsulla 47,2 hektar sahədə meyvə bağları salıblar. Meyvə bağlarının ümumi sahəsi 2 min hektara çatdırılıb.

"Hallabonq" dünyada ən qiymətli 10 meyvədən biri sayılır. Vətəni Yaponiyadır. Lənkəran rayonunun Sütəmurdov və Velədi kəndlərində 15 hektar "hallabonq" bağı salınıb. Dünyada cəmi 5 ölkədə "hallabonq" əkilir ki, onlardan biri də Azərbaycandır. Hər il bağlardan yaxşı məhsul götürülür. Prezident İlham Əliyev Lənkərana növbəti səfəri çərçivəsində Sütəmurdov kəndində salınmış "hallabonq" növlü yeni sitrus bağında görülmüş işlərlə tanış olub, tövsiyə və məsləhətlərini verib. Kinkan və kivi meyvələrinin əkininin subsidiyalaşdırılması nəticəsində əkin sahələri genişlənib.

**– Son vaxtlar ekzotik meyvəçiliyin, çiyələkçiliyin inkişafına da maraq artıb...**

– Mərkəzin mütəxəssislərinin təşəbbüsü ilə ekzotik bitki sortlarından olan qaragilənin "Bluecrop" (mavigilə) növünün yetişdirilməsinə başlanılıb. Aqrar Subsidiya Şurası 1 hektar ərazidə dibçəkdə salınmış "Bluecrop" bağına görə 20 min manat, torpaqda salınan bağlara görə 12 min manat subsidiya müəyyənləşdirib. Artıq 13 hektarda mavigilə bağı salınıb və gələcəkdə bu sahənin genişləndirilməsi nəzərdə tutulub.

Rayonda çiyələk əkinləri intensiv (damla suvarma) üsulla aparılır. İtaliya, İspaniya və Rusiya Federasiyasından gətirilmiş murano, sanandres, kleri və albion kimi yüksək məhsuldarlığa malik sortların əkilməsinə üstünlük verilib. Ötən il 307,6 hektardan 1 min 600,6 ton çiyələk yığılıb. Məhsuldarlıq 52 sentnerə çatdırılıb.

**– Aqrar sektorda bitkiçiliklə yanaşı, heyvandarlıq da xüsusi yer tutur. İl ərzində heyvandarlıq sahəsində hansı işlər görülüb? Baramaçılıqda vəziyyət necədir?**

– Heyvandarlığın inkişafına hər cür maddi-texniki dəstək göstərilir. İntensiv metodların tətbiqi mal-qaranın baş sayının və məhsuldarlığın artmasına müsbət təsir göstərir. Keçən il süni mayalandırma nəticəsində 2 min 595 baş heyvandan 1737 baş bala alınıb. Rayonda epizootik vəziyyət sabitdir. İribuynuzlu və xırdabuynuzlu heyvanlarda ayrı-ayrı xəstəliklərə qarşı peyvəndləmə, müalicə və profilaktik tədbirlər həyata keçirilib. Görülmüş işlərin nəticəsidir ki, ötən il 7 min 812 ton ət, 62,2 ton süd, 21 milyon ədəd yumurta və 42,2 ton yun istehsal olunub. Bundan əlavə, rayonda 12 min arı ailəsi bəslənilir.



Baramaçılığın və ipəkçiliyin inkişafı istiqamətində ardıcıl tədbirlər görülüb. 2025-ci ildə 45 kümçü tərəfindən 5 ton 426 kiloqram yaş barama istehsal edilərək "Azəripək" MMC-yə təhvil verilib. Barama istehsalına görə verilən subsidiyanın məbləği artırılarsa, məhsul istehsalı daha da yüksələ bilər.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Dildə "açıq qapı" milli kimliyi aşındırır

## *Süni yeniləşmə ünsiyyət vasitəsinin zənginləşməsi deyil*

**Müasir dünya texnoloji tərəqqinin və rəqəmsallaşmanın hökm etdiyi yeni mərhələyə qədəm qoyub. İrimiqyaslı keçid təhsildən mədəniyyətə, fərdi vərdişlərdən ümumi düşüncə tərzinə qədər həyatımızın bir çox sahəsinə nüfuz edir. Prosesin ən dinamik, eyni zamanda, narazılıq doğuran tərəfi isə ümumi ünsiyyətdə, xüsusilə də gənc nəslin dilində müşahidə edilən süni dəyişikliklərdir.**




"Facebook", "Instagram", "TikTok", "Telegram", "WhatsApp" kimi sosial media platformaları qlobal informasiya axınını sürətləndirməklə yanaşı, dilin dəyişmə dinamikasına da ciddi təsir göstərir. Gənclərin gündəlik nitqində, yazışmalarında və sosial media paylaşımlarında istifadə etdikləri yad sözlər artıq dilimizə keçir. Əvvəllər insanlar açıq, bitkin mətnlərlə ünsiyyət qururdularsa, indi bir mənanı, hansısa hissi ifadə etmək üçün bir-iki rəmz, ifadə və ya abreviatura ilə kifayətlənirlər. Hər gün sosial şəbəkələrdə, küçə reklamlarında qarşımıza çıxan "yad" ifadələr bizi ciddi bir sual ətrafında düşünməyə vadar edir: Bəs bu proses ana dilimizi zənginləşdirir, yoxsa onu deformasiyaya uğradaraq özəlliyini itirir?

Tarix boyu Azərbaycan dili ərəb, fars və rus dillərinin güclü təsirinə məruz qalsa da, hər dəfə bu kənar elementləri öz daxili qanunauyğunluqlarına uyğunlaşdırıb mənimsəyərək özünəməxsus ahəngini qoruyub saxlaya bilib. Lakin bugünkü vəziyyətin fərqi ondadır ki, dəyişiklik elmi əsərlər və ya ədəbi nümunələr vasitəsilə deyil, xaotik internet məkanı üzərindən baş verir. Dilimiz artıq yazıçıların nəzarətində olmayan, internet istifadəçilərinin istədiyi kimi müdaxilə edə biləcəyi "açıq meydana" çevrilib.

Xüsusilə gənc nəslin istifadə etdiyi ingilis mənşəli ifadələrin tədricən leksikonumuza daxil olması artıq qaçılmazdır. Lakin əsas problem bu sözlərin mənimsənilməsindən daha çox, onların dilin daxili qanunauyğunluqlarına uyğunlaşdırılmadan birbaşa hərfi tərcümə şəklində istifadəsidir. Rəqəmsal ünsiyyətdə tam ifadə formalarından imtina edilərək "təşəkkür edirəm" əvəzinə, "tşk" yaxud "tnx" (thanks), "zəhmət olmasa" yerinə isə "pls" (please) kimi qısaltmalardan istifadə edilməsi dilin funksionallığını artırmır, əksinə, estetik dəyərini zədələyir. Bu meyllər dilçilikdə "dil qənaəti prinsipi" kimi izah olunsa da, mahiyyət etibarilə dilin bədii təsvir imkanlarını məhdudlaşdırır.

Gənclərin bu tip ifadələrə meyillənməsinin kökündə duran əsas səbəb rəqəmsal dünyanın tələb etdiyi sürət və yığcamlıqdır. Qısa informasiya mübadiləsi dildə daha çox yığcamlıq tələb edir. Eyni zamanda, ingilis dilinin qlobal təsir üstünlüyü bu dilə məxsus elementlərin nitqimizə sızmasına yol açır. Əksər gənc üçün bu cür ünsiyyət tərzi təkcə rahatlıq üçün deyil, həm də müasirlik, yenilikçilik və qlobal dünyaya inteqrasiya deməkdir. Lakin bu "virtual vərdişlər" şifahi nitqə sirayət etdikcə, ədəbi dilin fundamental norma və qaydaları ilə toqquşur.

Bu linqvistik dəyişikliklərin ciddi sosial fəsadlarından biri isə nəsillər arasında yaranan ünsiyyət uçurumudur. Klassik dil ənənələrinə və ədəbi normalara sadiq qalan yaşlı nəsil gənclərin rəqəmsal jarqonlarla zəngin dilini çox vaxt anlamır. Bu fərqlilik təkcə söz ehtiyatında deyil, həm də mədəni yanaşmada özünü göstərir. Gənclərin rahatlıq üçün istifadə etdikləri bu qısaltmaları yaşlı nəsil çox vaxt dilə, mənəvi dəyərlərə və ünsiyyət etikasına hörmətsizlik kimi qəbul edir. Nəticə etibarilə bu fərqlilik tədricən emosional və sosial uzaqlaşmaya çevrilərək cəmiyyətin müxtəlif təbəqələri arasında qarşılıqlı anlaşmanı zəiflədir. Bəs rəqəmsallaşmanın yaratdığı yeni ünsiyyət tərzi ilə ədəbi dil normaları arasında tarazlığı necə tənzimləyək ki, həm müasir dünyadan geri qalmayaq, həm də ana dilimizin özünəməxsusluğunu qoruya biləK?

Mövcud reallıq fonunda ingilis dilində terminlərin və internet jarqonlarının gənclərin nitqinə kütləvi şəkildə daxil olmasının milli dil strukturumuzu zədələyib-zədələmədiyi aktual müzakirə mövzularındandır. Bir çox tədqiqatçılar bu prosesi müasir dilçilik kontekstində qaçılmaz və təbii neologizm axını kimi qiymətləndirirlər. Onların fikrincə, dil canlı orqanizm olaraq dövrün tələblərinə uyğunlaşır. Lakin rəqəmsallaşmanın yaratdığı bu yeni ünsiyyət tərzi ilə klassik ədəbi normalar arasında balans məsələsi ciddi elmi yanaşma tələb edir. Əsas hədəf müasir dünyanın texnoloji inkişafından və qlobal informasiya axınından təcrid olunmadan, ana dilinin daxili özünəməxsusluğunu qoruyub saxlamaqdır.

**AMEA Dilçilik İnstitutunun sosiolinqvistika və psixolinqvistika şöbəsinin müdiri, professor Mayıl Əsgərovun mövzu ilə bağlı fikirlərini öyrəndik. Müsahibimiz rəqəmsal keçidin Azərbaycan dilinə təsirlərini və internet terminlərinin, işarələrinin yaratdığı linqvistik mənzərəyə aydınlıq gətirdi:**



– Əvvəla, sosial şəbəkələrdə sözlərin müəyyən hissəsinin ixtisar olunması çox vaxt sürətli informasiya axınının tələbi kimi qiymətləndirilir. Bəzən isə bu davranış sözün düzgün yazılış qaydasını bilməyən şəxslərin vəziyyətdən çıxmaq üçün istifadə etdiyi üsuldur. Bir çox hallarda salam əvəzinə "slm", kitab əvəzinə "ktb", müəllim, əvəzinə "mlm" yazmaq və oxumaq bizim üçün xoş olmasa da, bu davranış böyük qəbahət sayılmır. Belə halları sürətli informasiya axınının tələbi hesab etmək və bağışlamaq mümkündür. Təbii ki, belə ixtisarlarla yazılmış mətnləri başa düşmək olmur. Belə hallar sürətli informasiya axınının tələbi deyil, sadəcə, savadsızlığı pərdələmə üsuludur.

– İkincisi, ingilis mənşəli sözlərin və rəqəmsal terminlərin gənclərin nitqinə daxil olması faktı ziddiyyətli xarakter daşıyır. Bu səbəbdən həmin prosesə birtərəfli yanaşmaq doğru olmaz. Nəzərə almaq lazımdır ki, ingilis, latın və digər dillərdən qaynaqlanan beynəlxalq terminlərin həm gənclərin, həm də yaşlı nəslin nitqində yer alması bir çox hallarda obyektiv zərurətdən irəli gəlir.

– Məsələn, bu gün bütün azərbaycanlılar və ya onların böyük əksəriyyəti "faks", "skaner", "printer", "internet", "sayt", "fayl", "bayt", "kilobayt" və başqa sözlərdən, terminlərdən istifadə edirlər. Təbii ki, bu söz və terminlərin Azərbaycan dilində qarşılığını tapmaq və ya yaratmaq mümkündür. Amma buna ehtiyac yoxdur. Ona görə ki, bu sözlər bütün və ya əksər dünya dillərində işlənən beynəlmiləl sözlərdir.

– Nəticə etibarilə, təbii ki, bu sözlər dilimizin milli strukturunu pozur. Həmin sözləri, xüsusilə də "skaner", "printer" sözlərinin tələffüzündə hiss edirik ki, onlar dilimizin tələffüz normalarına uyğun deyil. Azərbaycan dilinin fonetik qaydaları bazasında bu faktın elmi izahını da vermək mümkündür. Amma həmin elmi izahlar publisistik bir yazıda oxucular üçün yorucu ola bilər. Bu səbəbdən, sadəcə, bunu deməklə kifayətlənirik ki, belə sözləri ucadan tələffüz edəndə müəyyən çətinlik çəkirik və ya bir xalq ifadəsində deyildiyi kimi, "dilimiz topuq vurur". Həmin sözləri Türkiyə türkcəsində olduğu kimi "fotokopi makinesi" və "yazıcı" tipli sözlərlə də əvəz etmək mümkündür. Belə əvəzləmələr aparmağa ehtiyac yoxdur.

– Beynəlmiləl sözlərdən olduğu kimi istifadə etmək daha məqsədəuyğundur. İngilis dilinə məxsus terminlərin və internet jarqonlarının gənclərin dilinə kütləvi şəkildə daxil olması, təbii ki, məqbul sayıla bilməz. Bir qayda olaraq, bu hal həmin dili və terminləri yeni öyrənən şəxslərdə müşahidə olunur.

– Yerli-yersiz əcnəbi sözlərdən istifadə edənlərin əsas məqsədi "başqalarından fərqlənmək" və "ağıllı və müasir görünmək"dir. İngilis və ya başqa əcnəbi dili mükəmməl bilən şəxs heç vaxt bununla öyünmür və Azərbaycan dilində danışarkən yerli-yersiz həmin dilə məxsus sözlərdən istifadə etmir.

***Müsahibimiz rəqəmsallaşma dövründə dilin özünəməxsusluğunu qorumaq üçün xarici sözlərin kor-koranə deyil, yalnız ehtiyac yarandıqda işlədilməli olduğunu vurğuladı:***

– Rəqəmsallaşmanın formalaşdırdığı yeni ünsiyyət tərzi bəzən beynəlxalq terminlərin istifadəsini zərurətə çevirir, bəzən isə informasiya mübadiləsini sürətləndirmək üçün ifadələrin yığcamlaşdırılmasını tələb edir. Amma bu, heç bir halda milli dilin ədəbi normalarını pozmaq hesabına baş verməməlidir. Müasir dünyadan geri qalmamaq üçün yeni anlayışlara beynəlxalq terminlər hesabına ad verilməsinə qarşı çıxmamalıyıq. Əksər dünya dilləri tərəfindən qəbul edilən beynəlxalq terminləri biz də qəbul etməli, işlətməliyik.

Bununla belə, qulağa xoş gələn hər əcnəbi sözü dilə gətirmək və nitqdə onlara yer vermək yanlışdır. Bunu da nəzərə alaq ki, əksər dünya dillərinin qəbul etdiyi beynəlxalq söz və terminlərdən istifadə, heç bir halda dilimizin özünəməxsusluğunu itirmək deyil. Beynəlxalq söz və terminlər həm dili zənginləşdirir, müasirləşdirir, həm də mədəniyyətlərarası əlaqəni möhkəmləndirir və körpü rolunu oynayır. Yəni ifrata varmamaq şərtilə beynəlxalq terminlərdən istifadə dilin zərərinə deyil, xeyirinədir.

**Dilçilik İnstitutu müasir Azərbaycan dili şöbəsinin aparıcı elmi işçisi, dosent Aytən Bəylərova isə qeyd etdi ki, nitqdə baş verən dəyişikliklərə laqeyd yanaşmaq düzgün deyil, burada əsas meyar süni hibridləşmə ilə təbii zənginləşmə arasındakı həssas sərhədi qorumaqdır:**



– Əslində, bu prosesi yalnız "təhlükə" və ya yalnız "inkişaf" kimi birtərəfli qiymətləndirmək düzgün olmazdı. Dil canlı və dinamik sistem olduğu üçün onun təkamülü cəmiyyətin dəyişmə sürəti ilə paralel gedir. Yeni texnologiyaların, sosial şəbəkələrin və rəqəmsal kommunikasiya vasitələrinin meydana çıxması təbii olaraq yeni anlayışlar yaradır və onların adlandırılması üçün dil yeni sözləri qəbul etməyə məcbur qalır. Bu baxımdan bir sıra alınma söz və terminlərin dilimizə daxil olmasını müasir neologizm prosesi kimi dəyərləndirmək mümkündür.

Lakin məsələ yalnız terminoloji ehtiyaclarla məhdudlaşmır. Əsas problem bu prosesin bəzən zəruri hədləri aşması və mövcud milli leksik vahidlərin süni şəkildə sıxışdırılmasıdır. Məsələn, gündəlik danışıqda "bəyəndim" əvəzinə "like etdim", "izlədim" əvəzinə "follow elədim", "izləyici" əvəzinə "follower" kimi söz və ifadələrin işlədilməsi artıq dil ehtiyacından daha çox nitq vərdişlərinin dəyişdiyini göstərir.

Sözləri ingilis dilinin sintaktik quruluşuna uyğun şəkildə yerləşdirmək və ya felləri ana dilinin qrammatikasına uyğun olmayan formada işlətmək "leksik zənginləşmə" deyil, "dilin hibridləşməsi"dir. Bu isə tədricən ana dilində düşünmə mexanizmini zəiflədir, nəticədə nitqin milli koloriti və üslubi zənginliyi azalır.

Azərbaycan dili tarixi inkişaf mərhələlərində müxtəlif mədəni və siyasi təsirlərə məruz qalsa da, öz daxili sistemini və struktur sabitliyini qoruyub saxlaya bilmişdir. Lakin müasir qloballaşma və rəqəmsallaşma şəraitində bu təsir daha intensiv və sistemli xarakter alır. Ona görə də biz bu prosesi nə tamamilə inkar etməli, nə də nəzarətsiz şəkildə qəbul etməliyik.

Ən yaxşı yanaşma ondan ibarətdir ki, yeni anlayışların ifadəsi üçün zəruri terminlərin qəbul edilməsi ilə yanaşı, dilimizin daxili imkanlarından da maksimum dərəcədə istifadə olunsun, mövcud leksik fondun sıradan çıxmasına yol verilməsin. Bu, dilin təbii inkişafını təmin edər və onun milli mahiyyətini qoruyar. Əks halda, leksik asılılıq yaranar ki, bu da dilin struktur tarazlığını pozar.

***Müsahibimiz dilin rəqəmsal təcavüzdən qorunmasının yolunu yalnız inzibati qadağalarla deyil, ilk növbədə, fərdi məsuliyyət, düzgün təhsil və milli dil təşəbbüskeşliyi ilə mümkün olduğunu söylədi:***

– Tarazlığın qorunmasının başlıca şərti ana dilinə olan sevgidir. Ana dili yalnız ünsiyyət vasitəsi deyil, həm də milli kimliyin, mədəni yaddaşın və mənəvi irsin əsas daşıyıcısıdır. Məhz bu səbəbdən rəqəmsal mühitdə qısa yazışmalardan, simvol, emoji və ixtisarlardan istifadənin geniş yayılması ədəbi dil normalarının tamamilə arxa plana keçməsinə səbəb olmamalıdır.

Təhsil sistemi ana dilinə münasibəti sistemli və ardıcıl şəkildə qurmalı, şagird və tələbələr yalnız qrammatika və orfoqrafiya qaydalarını deyil, eyni zamanda, nitq mədəniyyətini, ünsiyyət etikasını və sosial mediada düzgün yazı bacarıqlarını da mənimsəməlidirlər. Belə yanaşma gələcək nəsillərdə dilə hörmət və bağlılıq hissinin möhkəm təməlini qoyur.

Media mühiti və sosial şəbəkə fəallarının üzərinə düşən məsuliyyət də böyükdür. Televiziya aparıcıları, jurnalistlər, ictimai nüfuz sahibi olan insanlar, eləcə də "bloger", "influenser" adlandırılan şəxslər Azərbaycan dilində səlis və düzgün danışmağa diqqət göstərməlidirlər. Çünki onların nitqi minlərlə, bəzən isə milyonlarla insan üçün nümunədir.

Yeni anlayışların ifadəsi üçün milli terminlərin yaradılması və geniş təbliği xüsusilə vacibdir. "Özçəkim", "canlı yayım", "izləyici", "paylaşım" kimi uğurlu nümunələr göstərir ki, Azərbaycan dilinin daxili söz yaradıcılığı böyük potensiala malikdir. Bu imkanlardan sistemli şəkildə istifadə dilin işləkliyini artırır və milli dil şüurunun möhkəmlənməsinə xidmət edir.

Nəticə etibarilə, müasir dünyaya inteqrasiya dilin zəifləməsi hesabına baş verməməlidir. Əksinə, texnoloji tərəqqi Azərbaycan dilinin inkişafına, ifadə imkanlarının genişlənməsinə və beynəlxalq nüfuzunun artmasına stimul verməlidir. Əsas hədəf dilimizin qlobal ünsiyyət məkanında milli ruhunu və üslubi özünəməxsusluğunu qoruyaraq müasir dünyanın ayrılmaz parçasına çevrilməsini təmin etməkdir.

Göründüyü kimi, texnoloji tərəqqi dilimiz üçün həm sınaq, həm də yeni imkanlar açır. Dilimizi qorumaq, əslində, gələcəyimizi və milli kimliyimizi qorumaqdır. Bu məsuliyyət isə təkcə dilçilərin deyil, internetdən istifadə edən hər kəsin üzərinə düşür.

Unutmamalıyıq ki, dilini itirən xalq, yaddaşını itirir, onu saflaşdırmaq da, sıradan çıxarmaq da bizim əlimizdədir. Sosial mediada, gündəlik yazışmada və danışıqda dilimizə hörmətlə yanaşmaq, onun saflığını və gözəlliyini qorumaq mənəvi borcumuzdur.

***Elenora HƏSƏNOVA***
***XQ***

# Biz niyə kitab oxumuruq?

## *Mütaliə insanı mənəvi zənginliyə və üstün mövqeyə qovuşdurur*

**Kitab sevgisi, fəal oxucu olmaq məxsusi bir mədəniyyətdir. Bunun qaynağı sağlam ailə mühiti, meydanı təhsil, özünümaarifləndirmədir.**

Ölkəmizdə kütləvi savadlanmada sonrakı nəsillərin ən sevimli vərdişlərindən biri də kitab oxumaq idi.

Rəqəmsal məlumat və bilik mənbələri kütləviləşənədək peşəsindən, savadından asılı olmayaraq hər evdə, kiçik də olsa, kitabxana var idi. Mənim dayım sürücü idi, su maşınında işləyirdi, həyat yoldaşı isə evdar qadın idi. Onların evlərində klassiklərin kitablarından ibarət yığcam bir kitabxana vardı. Öz evimimizdə də ortabab bir kitabxana yaranmışdı.

Yaxın onillərədək kitab bütün ailələrin qiymətli relikviyası idi, kitablar oxunmaqdan didik-didik olurdu. Ən ucqar kəndlərdə belə kitab mağazaları vardı və müxtəlif yaş kateqoriyasına aid insanlar bu mağazalardan kitab alırdılar. Mən o xoşbəxt dövrün canlı şahidlərindənəm.

8 yaşım olanda anam məni kənd kitabxanasına aparıb üzv etmişdi. İllər boyu mən o kitabxanadan qidalandım, o kitabxanada oxumadığım kitab qalmadı. Bəs bu gün valideynlər uşaqlarını bu ruhda tərbiyə edirmi? Bəzən qohum ailələrə qonaq gedəndə evdə gözüm kitab axtarır. Əksər evlərdə dərman üçün bircə kitaba da rast gəlməzsiniz. Baxırsan, geniş, yaraşıqlı mənzillərdir, içində bircə kitab belə yoxdur. Bu, sadəcə, dəhşətdir.

Bəzən belə ifadələrə rast gəlirəm: "kitab görəndə ürəyim sıxılır". Əsasən, gənc və orta yaşlı insanların əksəriyyəti belə düşünür. Təsəvvür edin, bu insanlar valideynlərdir və onların kitaba ikrah doğuran münasibəti övladlarda hansı təəssürat doğuracaq?! Problemin kökü bundan qaynaqlanır. Ailə mühitində kitaba yer yoxdursa, uşaq vətəndaş kimi necə yetişə bilər?

Bundan əlavə, cəmiyyətdə, mediada kitab təbliğatı qaneedici səviyyədə deyil. Kitab sement, diş məcunu, kolbasa ... deyil ki, telekanallar reklam üçün nəşriyyatlardan ödəniş tələb etsinlər. Kitab mənəvi sərvətlər mücrüsüdür. Kitab təbliğatından qazanc götürməsələr, dünya dağılmaz, əksinə, bununla ədəbiyyata, mədəniyyətə böyük xidmət göstərmiş olarlar. Yazıçının və kitabın nüfuzu artdıqca oxucuların da sayı çoxalacaq. Sadəcə, hədəfləri dəqiq müəyyənləşdirmək lazımdır.

Gənclərin əksəriyyəti belə düşünür: internet olan yerdə kitab oxumağa ehtiyac yoxdur. Kökündən yanlış fikirdir. İnternet kitab oxumaq üçün qətiyyən əlverişli resurs deyil. İnternet saytlarında müxtəlif sahələrdə (tarix, mədəniyyət, və s.) "elmi məlumatlar" da yerləşdirilir, amma onların, demək olar ki, hamısı yarımçıq və səhv məlumatlar olduğu üçün gənclərə yanlış bilgilər verir. Kitab bilgi "korları"nın gözünü açan əvəzsiz bir vasitədir. Kitab Azərbaycan insanının həyatının tərkib hissəsinə çevrilməyincə, sağlam cəmiyyət haqda danışmaq boş xülyadır. Bəs nə etməli?

Normal kitab bazarının formalaşması üçün nəşriyyatlara faizsiz və uzunmüddətli kreditlər verilsə, onların fəaliyyət dairəsi genişlənər və şəbəkə formalaşa bilər. Ölkədə Naşirlər Assosiasiyası yaradılıb, mütəmadi kitab yarmarkaları keçirilir, lakin kitab sənayesinin yaradılması hələ də ləngiyir. Əksər rayonlarımızda bircə kitab mağazası belə yoxdur. Mərkəzdə nəşr olunan kitablar əyalətlərə gedib çatmır, əyalət insanı kitabsız qalıb.



Azərbaycan insanı həyatının heç bir döngəsində kitabla rastlaşmır. Ümumtəhsil məktəblərində seminar və diskussiya klublarının yaradılması şagirdlərdə kitab oxuma vərdişi yarada bilər. Yaxud məktəblərdə, kitabxanalarda yazıçılar və kitab müəllifləri ilə görüşlərin keçirilməsi və yeni çıxan kitabların təqdimatının təşkil edilməsi çətin məsələ deyil. Rey Bredberinin sözləridir: "Bir mədəniyyəti yox etmək üçün kitabları yandırmağa ehtiyac yoxdur. Kitab oxumamaq kifayət edir".

Sübut etməyə ehtiyac yoxdur: kitab insanı formalaşdırır, kamilləşdirir, onu uğura aparır. Kitab oxuyan insan özünü ifadə etməyin yollarını öyrənir və cəmiyyətə daha çox fayda verir. Mütaliəyə sərf etdiyimiz vaxta görə heyfsilənməməliyik, bunun əvəzi mütləq ödəniləcək. Kitab oxumayan insan isə eyni palçığa dəfələrlə girməyə məhkumdur. Kitab fanatizmin, cəhalətin düşmənidir, tərəqqinin katalizatorudur.

Çox təəssüf ki, bizim toplum elmi-kütləvi ədəbiyyatın oxunma qaydalarından da xəbərsizdir. Təsəvvür edin, dünya elmində bədii ədəbiyyatın oxunma qaydaları, elmi-kütləvi ədəbiyyatın oxunma qaydaları haqqında ayrıca kitablar yazılıb. Bu kitabların demək olar ki, heç biri Azərbaycan dilinə tərcümə olunmayıb. Bu da başqa bir söhbətin mövzusudur.

Kitab kultunun yaranması üçün görüləsi işlər həddən artıq çoxdur. Bu işlər mərhələli şəkildə həyata keçirilsə, arzularımız gerçək olar.

***H.KƏNAN***
***yazıçı-dramaturq***

I Türkoloji Qurultay –100

# Orfoqrafiya yazı mədəniyyətinin mühüm sistemidir

*(əvvəli qəzetin 12 fevral 2026-cı il tarixli sayında)*

A.Baytursunovu belə bir sual maraqlandırır: orfoqrafiyadan nə tələb olunur? Onun fikrincə, bunun iki əsas meyarı vardır: orfoqrafiya dilin səslərini dəqiq və düzgün əks etdirməlidir və öyrənilməsi baxımından mümkün qədər sadə olmalıdır; orfoqrafiya yalnız natamam olduqda əlifba ilə sıx bağlı olur. Bəs onda etimologiyanı, yoxsa fonetik prinsipi əsas götürmək lazımdır? Müəllifin qənaətinə görə, ən ideal orfoqrafiya fonetik prinsiplərə əsaslanmalıdır. O qeyd edir ki, qırğız və qazax dillərində səslərin qanunları çox sərtdir; bu dillər çox nizamlı və mükəmməl sistemə malikdir. Əgər digər türk dilləri də eyni qaydaları tətbiq edə bilirsə, etimoloji prinsipin tətbiqinə ehtiyac qalmır. Bəzi türk xalqları isə hələ də ənənəyə sadiqdir. Məsələn, azərbaycanlılar və osmanlılar tarixi yazı prinsipinə bağlıdırlar, bu qədim prinsiplə artıq vidalaşmaq lazımdır. Yeni yanaşmada sözlər yalnız xalq danışığında istifadə olunduğu şəkildə götürülməlidir, elmi və tarixi mənşəyə görə deyil. Məsələn, “ажол” sözünü qırğızlar öz sözləri sayır və heç vaxt bunun ərəb mənşəli olduğunu qeyd etmirlər. Digər nümunə: “комиссар” sözü qazaxlarda “комyüsser” kimi tələffüz olunur. Baytursunov sual edir: niyə biz bu sözü avropalıların tələffüzü ilə saxlamalıyıq? Qazaxların artikulyasiyası bu quruluşu qəbul etmir. Nəticə etibarilə, bütün xarici sözlər hər türk xalqının danışığı və artikulyasiyasına uyğun şəkildə qəbul edilməlidir, yəni sözlərin mənşəyi deyil, fonetik realizasiyası əsas götürülməlidir.

Yakovlev əlifba ilə orfoqrafiya arasında mövcud olan əlaqə barədə məruzə edir. Məsələn, əlifbadakı hərflərin sayı məsələsini götürür. Baytursunov qırğız dilində əlifba hazırlayarkən yumşaqlıq işarəsini daxil etməklə əlifbadakı simvolların sayını azaltmışdır. Dillər “disfonetik” və “sinfonetik” olur; bəzi dillərdə fonetik qanunlar demək olar ki, istisnasız, bəzilərində isə bu qanunlar bir çox istisna ilə qorunur. Bunun səbəbini həmin dillərin tarixində axtarmaq lazımdır, Məsələn, daha mədəni xalqların dilləri əsrlər boyu müxtəlif dillərdən çoxlu element qəbul edib, nəticədə öz fonetik qanunları digər dillərin qanunları ilə qarışıb. Qırğız dili hələ indi dil mədəniyyəti arenasına çıxır, yazı dili olmağa başlayır. Bu dilə digər dillərdən az sayda element daxil olub. Buna görə də bu dili mən “sinfonetik” adlandırıram: demək olar ki, heç bir xarici element yoxdur, qırğız dilinin fonetik qanunları tam qorunur və digər dillərdən gələn sözlər bu dildə tam mənimsənilir.

Əsasən iki prinsip mövcuddur və hər ikisi dillərdə bərabər şəkildə rast gəlinir: fonetik və etimoloji. Hətta fonetik yazı olsa belə, orada bəzi etimoloji yazı qaydaları da mövcuddur. Təsadüfi deyil ki, etimoloji yazını müdafiə edənlər nisbətən inkişaf etmiş ədəbiyyata malik dilin nümayəndələridir, fonetik yazını müdafiə edənlər isə dili hələ ədəbiyyat yaratmağa başlayanlardır. Hər kəs hələ də öz ləhcəsində yazacaq, çünki vahid ədəbiyyat dili olmadığı üçün heç bir fərman və qayda ilə bir ləhcədə yazmağa məcbur etmək olmaz. Hər kəs öz ləhcəsini düzgün sayır. Yazılı ədəbiyyat tarixi olan xalqlarda isə yəni artıq müəyyən ədəbi dil və dialektlərarası standartlar mövcud olan xalqlarda, təbii ki, etimoloji prinsip üstünlük təşkil edir. Bu məsələləri eyni şəkildə həll etmək olmaz. Ümumiyyətlə, hər iki prinsip orfoqrafiyada mövcud olacaq, amma fonetik prinsip yalnız yazı prosesi yeni başlayan xalqlarda üstün olmalıdır, etimoloji prinsip isə artıq ənənələri formalaşmış xalqlarda.

* * *

Yakovlevin məruzəsini belə sistemləşdirmək olar:

*1. Əlifba və orfoqrafiya arasındakı əlaqə*. O, məruzəsində əlifba ilə orfoqrafiyanın funksional əlaqəsini ön plana çıxarır. Onun arqumenti elmi baxımdan vacibdir: əlifbadakı hərflərin sayı və struktur xüsusiyyətləri orfoqrafiyanın dəqiqliyini birbaşa müəyyən edir. Məsələn, Baytursunov qırğız əlifbasına yumşaqlıq işarəsini daxil etmək ilə işarə sayını optimallaşdırıb. Bu yanaşma göstərir ki, fonetik uyğunluq və əlifba strukturu bir-birini tamamlayır, yalnız birini təkmilləşdirmək digərini effektli edə bilər.

*2. Dillərin fonetik tərtibi: disfonetik və sinfonetik*. Yakovlev burada dilləri fonetik cəhətdən belə təsnif edir. Sinfonetik dillərdə fonetik qanunlar, demək olar ki, istisnasız qorunur, disfonetik dillərdə isə bir çox istisna mövcuddur. Analitik baxımdan bu təsnifat çox vacibdir, çünki orfoqrafiya islahatı planlaşdırılarkən dilin fonetik stabilliyi və xarici elementlərin sayı nəzərə alınmalıdır. Qırğız dilində xarici elementlərin az olması onun fonetik nizamının qorunmasını asanlaşdırır və sinfonetik xarakterini ortaya qoyur. Bu yanaşma fonetik-prioritetli yazı sistemlərinin tətbiqini elmi cəhətdən əsaslandırır.

*3. Fonetik və etimoloji prinsiplərin dialekt və dil səviyyəsinə görə tətbiqi*. Yakovlev iki: fonetik və etimoloji prinsipin istifadəsində tarixi və ədəbi inkişaf səviyyəsinin fərqini qeyd edir. Yazılı ədəbiyyat hələ formalaşmamış xalqlarda (yazıya yeni başlayan dillər) fonetik prinsip üstün tutulmalıdır. Bunun səbəbi açıqdır: vahid ədəbi dil yoxdur, fərqli ləhcələr yazıda bir-birinə qarışır, hər bir ləhcə özünü “norma” hesab edir. Fonetik prinsip burada sosial və kommunikativ vasitə kimi əsas götürülür, çünki hər kəsin danışığı yazıya bərabər şəkildə əks olunur. Digər tərəfdən, artıq ədəbi tarixə malik, yəni dialektlərarası standartlar və normativ ədəbi dili formalaşmış xalqlarda etimoloji prinsip üstünlük təşkil edir. Bu yanaşma göstərir ki, orfoqrafiya yalnız fonetik uyğunluqla məhdudlaşmamalı, tarixi ənənələr və dilin etimoloji strukturu qorunmalıdır. Bu, dilin tarixi-mədəni identikliyini təmin edir.

*4. Orfoqrafiyada prinsiplərin tarixi və mədəni kontekstdə tətbiqi*. Yakovlev qeyd edir ki, etimoloji yazını müdafiə edənlər inkişaf etmiş ədəbiyyata malik olan, fonetik yazını müdafiə edənlər isə yazı prosesinə yeni başlayan xalqlardır. Bu fərq dil mədəniyyətinin səviyyəsi ilə birbaşa bağlıdır. Belə yanaşma həm tarixi, həm də sosial-linqvistik konteksti nəzərə alır, yəni orfoqrafik islahat yalnız texniki məsələ deyil, həm də dilin inkişaf mərhələsinə uyğunlaşdırılmış sosial qərardır.

Yakovlevin dəlilləri aydın şəkildə praktik nəticələr ilə izahını tapır: yeni yazı prosesinə başlayan xalqlar üçün fonetik yazının tətbiqi məcburidir, artıq ədəbi ənənəyə malik xalqlarda isə etimoloji yanaşma qorunmalıdır. Bu yanaşma həm milli dil siyasəti, həm də sosial inklüzivlik baxımından əsasdır. O, orfoqrafiya və əlifbanın bir-biri ilə funksional əlaqəsini açıq göstərir, fonetik və etimoloji prinsiplərin tətbiqi tarixi-mədəni və dilin inkişaf mərhələsinə görə fərqləndirir, bu isə müasir linqvistik düşüncəyə uyğundur, yazının sosial funksiyasına diqqət yetirir: fonetik prinsip yeni yazı sistemləri üçün ədalətli yanaşmadır, etimoloji prinsip isə mədəni və tarixi sabitliyi qoruyur. Yakovlevin yanaşması orfoqrafik islahatı yalnız texniki məsələ kimi deyil, tarixi, morfo-fonoloji və sosial-linqvistik kontekst daxilində qiymətləndirir.

Orfoqrafiya məsələsi üzrə müzakirədə **Eldes Omarovun (1892–1937)** məruzəsi maraq doğurur: “Qazax nümayəndəsi qismində fonetik yazı sistemini müdafiə etməyim təəccüblü olmayacaq. Burada qeyd olundu ki, fonetik prinsip az inkişaf etmiş xalqlar üçün daha uyğundur, mədəni xalqlar üçün yox. Qazaxlar mədəni baxımdan bütün türk xalqları arasında ən geri qalanlardandır. Amma dil məsələlərində qazax dilinin yalnız qrammatikanın, yazı qaydalarının işlənib hazırlanması ilə deyil, həm də özünün inkişafı ilə irəliləmişdir. Bizim gözümüzün önündə dilin qanunları inkişaf edir: yeni qanunlar yaranır, səslər yoxa çıxır, yeni səslər yaranır. Radlov da qeyd etmişdi ki, bizim dilimizdə “ç” səsi mövcud idi, amma indi yox olmaqdadır. Bizim dilimizdə “c” səsi də bir neçə on il ərzində itmişdir. Morfologiyamızda, şəkilçilər dəyişir. “l”, “ль” şəkilçiləri tatarlarda və başqalarında var, amma bizdə bu şəkilçi yalnız 2-3 sözdə qalmışdır. Məsələn, bəzi yerlərdə “тынлы” sözünü deyirdilər, indi isə “тынды”, yaxud “кынлы” indi “кынды” olub. Köhnə sözlər göstərir ki, bu şəkilçilər yaxın keçmişdə yaranmışdır.

Etimoloji yazı sistemi dilin inkişafını məhdudlaşdırır. Fonetika qanunları, morfologiya təbii şəkildə dəyişir və inkişaf edir, amma ədəbi dil yazının sərhədlərindən kənara çıxa bilmir. Söz bazası baxımından qazax dilində sözlər bəlkə azdır, amma bütün xarici sözlər bizdə dəyişdirilib. Məsələn, интымак, heç bir qazax inanmır ki, bu söz qazax sözü deyil, sadəcə ərəb sözü olan ittifaqın səsləndirilməsi kimi qəbul edilir. Türk dilləri qeyri-flektivdir: sözün kökü heç vaxt dəyişmir, buna görə yazıda çətinlik yaranmır. Tatar dilində ahəng qanunu tam işləmir. Məsələn, “сина”, “мина” “Исхак”, “китаб”, “Галимджан”, “Ибрагим” və s. Eyni zamanda yeni mədəniyyət və texnikanın təsiri ilə dilimizə daxil olan sözlər: кино, килограмм, километр, гидро və s. bu qanuna tabe ola bilməz, məsələn, кылограмм yazmaq düzgün olmaz. Yeni latın əlifbasının tətbiqi ilə orfoqrafiya məsələlərinin kökündən həlli mümkün olacaq.





* * *

Omarov fonetik yazının tətbiqini az inkişaf etmiş xalqlar üçün daha uyğun hesab edir:

*1. Fonetik yazının sosial və mədəni kontekstdə üstünlüyü*. Bu yanaşma metodoloji baxımdan çox əsaslıdır: fonetik prinsip yeni yazı sistemi və ədəbi dili formalaşdıran xalqlarda dilin qanunlarının təbii inkişafına imkan verir. Qazax dili nümunəsi bunu təsdiqləyir. O göstərir ki, qazax dili yalnız qrammatika və yazı qaydaları ilə deyil, həm də dilin canlı inkişafı ilə irəliləmişdir. Bu, yazı və danışıq dilinin uyğunlaşdırılması üçün fonetik yanaşmanın elmi əsasını təşkil edir.

*2. Dil dəyişkənliyi və fonetik prinsipin əsaslandırılması*. Omarov fonetik yazının üstünlüyünü tarixi-morfoloji kontekstdə izah edir. Məsələn: “ç” və “c” səslərinin itməsi, “l/ль” şəkilçilərinin məhdudlaşması və söz formalarının dəyişməsi (məsələn, “тынлы” – “тынды”) kimi nümunələr göstərir ki, qazax dilinin fonetik və morfoloji qanunları təbii şəkildə dəyişir. Etimoloji yazı sistemi bu dinamikanı məhdudlaşdırır, çünki ədəbi yazı dəyişikliklərə tab gətirə bilmir. Yəni fonetik prinsip dilin canlı inkişafını qoruyur, etimoloji prinsip isə inkişafı məhdudlaşdırır.

*3. Alınma sözlərin fonetik adaptasiyası*. Omarov vurğulayır ki, qazax dilində xarici sözlər fonetik sistemə uyğunlaşdırılır. Məsələn: интымак sözü ərəb mənşəli olsa da, qazax tələffüzünə uyğun olaraq assimilyasiya olunub. Bu, fonetik-prioritetli yazının əsas sosial və dilçilik faydalarından biridir: xarici sözlərin dilin daxili sisteminə inteqrasiyası. Tatar dili nümunəsi isə əksini göstərir: ahəng qanunu gözlənilmir və bəzi ərəb, fars sözləri orfoqrafiyada fonetik qanuna tabe deyil. Bu müqayisə fonetik prinsipin dinamik olduğunu açıq şəkildə ortaya qoyur.

*4. Yeni texnoloji və mədəni sözlərin inteqrasiyası*. Omarov qeyd edir ki, texniki və mədəniyyət terminləri (kino, килограмм, гидро və s.) fonetik qanuna uyğun olmalıdır. Əgər etimoloji yazı qorunarsa, sözlərin yazılışında uyğunsuzluq yaranar (məsələn, кылограмм). Bu, fonetik prinsipin praktik əhəmiyyətini göstərir: yeni sözlərin təbii assimilyasiyası yalnız fonetik yazı ilə mümkün olur.

*5. Əlifba ilə fonetik orfoqrafiyanın ayrılmazlığı*. Omarov məruzəsinin sonunda yeni latın əlifbasının tətbiqinin üstünlüyünü vurğulayır: “Bu, orfoqrafiyanın yalnız fonetik əsaslarla işləməsi üçün struktur mexanizmi təmin edir. Beləliklə, yeni əlifba həm fonetik dəqiqlik, həm də morfoloji uyğunluq üçün zəruri alət rolunu oynayır”.

Omarov fonetik prinsipin üstünlüyünü canlı dil, sosial ədalət və sözlərin fonetik mənimsənilməsi kontekstində əsaslandırır: dilin morfoloji və fonetik dəyişkənliyi etimoloji yazının tətbiqini məhdudlaşdırır, alınma sözlərin assimilyasiyası və texniki terminlərin yazılışı üçün fonetik yanaşma labüddür, yeni latın əlifbasının tətbiqi bu yanaşmanı texniki cəhətdən mümkün edir və orfoqrafiyanın sistemləşdirilməsinə zəmin yaradır. Omarov məruzəsində fonetik yazı yeni yazı sisteminə malik, dilinin inkişaf mərhələsində olan xalqlar üçün optimal model olduğunu qeyd edir.

Professor Jirkovun məruzəsindən məlum olur ki, ərəb dilindən alınmış sözlərin yazılışı xüsusi əhəmiyyət kəsb edir. Fərqli xalqlar bu məsələni müxtəlif cür həll edirlər: ruslar və italyanlar öz sözləri ilə müqayisədə xarici sözləri ayrı qeyd etmirlər; almanlar isə əksinə, yunan mənşəli sözlərdə bu prinsipi saxlayırlar. Tarixi prinsipin əhəmiyyətindən danışarkən o, vurğulayır ki, bu prinsip oxumağı çətinləşdirir və mürəkkəbləşdirir. İngilis dilində ortodoks yazı sisteminin çətinliyi bunu sübut edir: dil heç vaxt ingilis dili kimi çətin vəziyyətə düşməməlidir. O qeyd edir ki, “dediyin kimi yaz” fonetik prinsip ideal həll yoludur, eyni zamanda, praktik həyatın tələbləri də nəzərə alınmalıdır, həyat real düzəlişlər tələb edir, bəzi hallarda tarixi-etimoloji prinsip yardımçı ola bilər.

* * *

Professor Jirkova görə, tarixi prinsipin tətbiqi oxunaqlılığa və fonetik sadəliyə əks təsir göstərə bilər, bu isə dilin sosial funksiyasına mane olur.

*Ərəb mənşəli sözlərin yazılışının sosial və funksional əhəmiyyəti*. Jirkov vurğulayır ki, ərəb mənşəli sözlərin problemi yalnız yazılış qaydası deyil, həm də oxunaqlılıq və praktik istifadə məsələsidir. Burada iki əsas yanaşma qeyd olunur: bəzi xalqlar (ruslar, italyanlar) alınma sözləri milli sözlərdən ayırmadan yazır, bu, dilə fonetik və morfoloji sadələşmə gətirir. Məsələn, almanlarda yunan mənşəli sözlərin ayrılması qorunur, bu isə tarixi-etimoloji məlumatın saxlanması məqsədinə xidmət edir.

*Fonetik prinsipin üstünlüyü və praktik əhəmiyyəti*. Jirkov “dediyin kimi yaz” prinsipini ideal sayır. Burada diqqətçəkən məqam odur ki, fonetik yazı sisteminin əsas məqsədi oxumağı asanlaşdırmaq və dilin sistemli istifadəsini təmin etməkdir. Eyni zamanda, o, praktik həyatı nəzərə alır: real kommunikasiya tələbləri fonetik prinsiplərin bəzən yumşaldılmasını tələb edə bilər. Bu yanaşma fonetik prinsipin yalnız nəzəri bir model deyil, həm də praktik həyat və sosial ədalət üçün mühüm olduğunu göstərir.

*Tarixi-etimoloji prinsipin rolu*. O, tarixi-etimoloji prinsipi yardımçı vasitə kimi görür. Yəni dilin oxunaqlığını pozmayan və praktik baxımdan çətinlik yaratmayan məhdud hallarda istifadə oluna bilər. Bu yanaşma, Yakovlev və Omarovun arqumentləri ilə uyğun gəlir: fonetik prinsip yazı prosesi yeni başlayan və ya dəyişən dillərdə dominant olmalıdır, etimoloji prinsip isə ənənəsi formalaşmış dillərdə köməkçi rol oynaya bilər.

Jirkov məruzəsində diqqəti fonetik-praktik balans məsələsinə yönəldir: fonetik yazı oxunaqlılıq və sistemlilik üçün əsasdır, tarixi-etimoloji yazı yalnız yardımçı, məhdud kontekstdə tətbiq oluna bilər, alınma sözlərin yazılışının sosial və mədəni kontekstə uyğun tənzimlənməsi vacibdir, ingilis dili nümunəsi ilə göstərilir ki, tarixi-etimoloji prinsiplərin tam tətbiqi oxumağı mürəkkəbləşdirə və dilin funksiyasını çətinləşdirə bilər, buna görə sosial baxımdan uyğun həll tələb olunur. Professorun çıxışı göstərir ki, orfoqrafiya yalnız yazının texniki tələbi deyil, dilin fonoloji, morfoloji və sosial funksiyasını təmin edən kompleks sistemdir; fonetik prinsip oxunaqlılıq və sistemlilik üçün əsasdır, etimoloji prinsip isə tarixi və mədəni məlumatı qorumaq məqsədilə məhdud şəkildə tətbiq edilməlidir.

Qalimcan İbrahimov məruzəsində qeyd edir ki, praktik məsələlərdə dəqiq məlumat vacibdir: məsələn, başqırd ləhcələrinin təsnifatı və reformaların gedişi. Məlumat mənbələri müxtəlifdir və konkret təfsilatlar üçün mövcud kitab və sənədlərə müraciət etmək lazımdır. Heç bir halda başqa türk dilini əsas götürüb bütün orfoqrafiyanı onun üzərində qurmaq olmaz; məqsəd hər bir dilin öz xüsusiyyətlərinə uyğun yazı yaratmaqdır. Əsas ideya budur: fonetik prinsip əsasdır, tarixi-etimoloji elementlər ona dəstək ola bilər, lakin praktik tətbiq zamanı geniş ictimaiyyətin öyrənməsini asanlaşdırmaq və dilin özünəməxsusluğunu qorumaq vacibdir. Ortaq fonetik və morfoloji prinsiplər əsas götürülməlidir, səs harmoniyası və qoşma şəkillər nəzərə alınmalıdır və orfoqrafiya ilə əlifba məsələləri sistemli şəkildə müzakirə edilməlidir. Onun fikrincə:

- *Türklərin öz dillərinə sahib çıxması vacibdir. Elm adamları xalqı üçün, öz dillərində həll edə biləcək qədər səlahiyyətli olmalıdırlar.*
- *Avropaya baxmaq kifayət deyil. Avropa xalqları daha əlverişli tarixi şəraitdə bu məsələləri həll etmişlər, amma türk tədqiqatçıları da eyni səviyyədə, hətta daha yaxşı işləyə bilərlər.*
- *Beynəlxalq elmdən yardım tələb etmək doğrudur. Metod və təcrübə baxımından dəstək almaq mümkündür və elmi cəmiyyət bu yardımı edə bilər.*
- *Gələcək kadrların yetişdirilməsi vacibdir. Türk dillərini öyrənəcək elmi personalın xalqın içindən çıxması lazımdır, türk elm adamları öz dillərini daha dərindən öyrənməlidirlər.*

Beləliklə, öz dillərinə sahib çıxmaq, elmi müstəqillik qazanmaq və beynəlxalq elmdən dəstək tələb etmək lazımdır.

* * *

Qalimcan İbrahimovun çıxışı Azərbaycan və digər türk dillərinin orfoqrafiyası, dil siyasəti məsələlərinə dərin, praktik, strateji yanaşma təqdim edir. Burada bir neçə əsas məqam önə çıxır:

**1. Dilin daxili özünəməxsusluğu və fonetik prinsip.**

– Hər bir türk dili öz xüsusiyyətinə görə yazı sisteminə malik olmalıdır, heç bir digər dil nümunəsi universal norma kimi qəbul edilməməlidir.

– Fonetik prinsip burada əsas norma kimi göstərilir, çünki yazının oxunaqlılığı və xalq tərəfindən öyrənilmə rahatlığı fonetikanın birbaşa tətbiqi ilə təmin olunur.

– Tarixi-etimoloji elementlər yalnız dəstək üçün dilin daxili sistemini qorumaq və tarixi məlumatı ötürmək üçün tətbiq olunur.

**2. Praktik tətbiq və morfo-fonoloji prinsiplərin rolu.**

– Ahəng qanunu və qoşma şəkilçilərin qorunması vahid və sistemli yazı üçün vacibdir.

– Orfoqrafiya yalnız texniki norma deyil, eyni zamanda dilin daxili məntiqi, morfoloji bütövlüyü və sosial funksiyası ilə bağlıdır.

– Əlifba məsələləri ilə bağlı müzakirələrin sistemli aparılması göstərir ki, yazı sistemi və fonetika bir-birindən ayrı düşünülə bilməz.

**3. Elm və milli müstəqillik.**

– Türk alimləri öz xalqının dilini öyrənməli, yazı və orfoqrafiya islahatlarını həyata keçirməlidir.

– Avropaya baxmaq faydalı olsa da, burada məqsəd tarixi müqayisəni və metodu öyrənməkdir.

– Beynəlxalq elmdən dəstək alınması vacibdir, amma bu dəstək yalnız metod və təcrübəyə yönəlməlidir; milli dil siyasətində əsas qərarlar türk tədqiqatçıları tərəfindən qəbul edilməlidir.

Gələcək kadrların yetişdirilməsi və türk dillərini öyrənəcək elmi personalın xalq içindən çıxması vacibdir. Bu həm elmi müstəqilliyi, həm də milli dilin davamlı inkişafını təmin edir. Bu yanaşma dilin praktik, sosial və elmi funksiyalarını birləşdirir: orfoqrafiya təkcə yazı qaydası deyil, həm də dilin xalq tərəfindən mənimsənilməsi və öyrənilməsi üçün sosial vasitədir. Qalimcan İbrahimovun məruzəsində qeyd olunduğu kimi, fonetik və morfoloji prinsiplər orfoqrafiyanın təməlini təşkil etməli, tarixi-etimoloji elementlər isə yardım etməlidir. Eyni zamanda, dil siyasəti yalnız xalqın öz təcrübəsi və elmi potensialı üzərində qurulmalıdır, beynəlxalq metod və təcrübə isə dəstək xarakteri daşımalıdır. Bu yanaşma türk dillərinin gələcəyi üçün davamlı, sistemli və praktik orfoqrafik model formalaşdırır.

***Nadir MƏMMƏDLİ,***
***AMEA Nəsimi adına***
***Dilçilik İnstitutunun direktoru,***
***filologiya elmləri doktoru, professor***

# Milli turizm təhsilinin uğurları və yeni hədəfləri

**Azərbaycanda turizm və menecment sahələri üzrə kadr hazırlığı, 20 illik yubileyi qeyd olunan Azərbaycan Turizm və Menecment Universitetinin (ATMU) keçdiyi yol, əldə etdiyi nailiyyətlər, gələcək planları ilə bağlı "Xalq" qəzetinin suallarını Dövlət Turizm Agentliyinin sədr müavini Azadə Hüseynova cavablandırdı.**



**– Dövlət Turizm Agentliyinin tabeliyində Bakı Turizm Peşə Məktəbi (BTPM), Mingəçevir Turizm Kolleci (MTK) və bu il 20 illik yubileyi qeyd olunan Azərbaycan Turizm və Menecment Universiteti (ATMU) ölkəmizin turizm sahəsini kadrlarla necə təmin edir?**

– Agentliyin tabeliyindəki hər 3 təhsil müəssisəsi öz infrastruktur və akademik heyət potensialı çərçivəsində turizm sahəsi üçün keyfiyyətli kadrlar hazırlayır. Bu təhsil ocaqları hər il 1800-dən çox tələbə məzun olur. Paralel olaraq, ATMU və Mingəçevir Turizm Kollecində əmək bazarının tələblərinə uyğun yeni ixtisasların açılması istiqamətində görülən işlərə dəstək göstərir. Eyni zamanda, bu müəssisələrin infrastrukturunun yaxşılaşdırılması da həyata keçirilir. Ötən illər ərzində tələbələr və müəllimlər üçün keyfiyyətli təhsil mühitinin yaradılması üçün Mingəçevir Turizm Kolleci yeni binaya köçürülüb. Hazırda kollec üçün yeni kampusun tikilməsi istiqamətində işlər görülür.

Azərbaycan Turizm və Menecment Universitetinin (ATMU) tarixi Azərbaycan Turizm İnstitutunun (ATİ) yaranma tarixindən başlayır. ATİ Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 25 avqust 2005-ci il tarixli 972 saylı sərəncamına əsasən Nazirlər Kabinetinin 13 fevral 2006-cı il tarixli, 45 saylı qərarı ilə təsis edilib. Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2014-cü il tarixli, 945 nömrəli sərəncamına əsasən isə ATİ-nin bazasında ali təhsilin bütün pillələrində turizm və menecment sahələri üzrə kadr hazırlığını həyata keçirən Azərbaycan Turizm və Menecment Universiteti yaradılıb. Nazirlər Kabinetinin 2018-ci il 7 iyun tarixli, 255 nömrəli qərarı ilə ATMU Dövlət Turizm Agentliyinin tabeçiliyində fəaliyyət göstərir.

ATMU-da mövcud ikili diplom proqramlarının təkmilləşdirilməsi və yeni proqramların formalaşdırılması üzrə təşəbbüsləri də dəstəkləyirik. 2025-ci ildə Dövlət Turizm Agentliyi sədrinin müvafiq əmri ilə ATMU-nun yeni strukturu təsdiq olunub. Universitetin strukturu təkmilləşdirilib, yeni strukturda araşdırma, təlim, elektronlaşma, marketinq və kommunikasiya kimi vacib istiqamətlərdə ixtisaslaşacaq struktur bölmələr yaradılıb.

Bundan başqa, agentliyin tabeliyindəki Bakı Turizm Peşə Məktəbinin və "CASA Baku" Kulinariya Məktəbinin birgə təşkilatçılığı ilə aşpazlıq ixtisası üzrə 2023-2024 və 2024-2025-ci tədris illərində pilot tədris qrupları formalaşdırılıb. Sözügedən qruplardan 30-dan çox tələbə məzun olub.

Məzunlar BTPM-in diplomu ilə yanaşı, CASA tərəfindən təqdim olunan və London İnstitutunun "City & Guilds" Beynəlxalq Təşkilatı, Dünya Aşpazlar Assosiasiyası tərəfindən tanınan beynəlxalq sertifikat da əldə edirlər. Bu kimi proqramlar məzunlara həm özlərini peşəkar səviyyədə inkişaf etdirməyə, həm də təkcə ölkə daxilində deyil, beynəlxalq səviyyədə məşğulluq imkanlarını artırmağa və qastronomiya sahəsində karyera qurmağa kömək edir.






**– Sözsüz ki, Azərbaycanın turizm təhsilində ATMU-nun xüsusi rolu var. Ötən 20 il bu universitet üçün hansı hadisələrlə, uğurlarla yadda qalıb?**

– ATMU Azərbaycan Respublikasında turizm təhsili verən ali təhsil müəssisələri arasında ilk dəfə beynəlxalq ikili diplom proqramını tətbiq edib. Belə ki, 2007-ci ildən başlayaraq ATMU Avstriyanın IMC Krems Tətbiqi Elmlər Universiteti ilə Azərbaycan Respublikasında turizm təhsili verən ali təhsil müəssisələri arasında ilk dəfə "Turizm işinin təşkili" (Tourism and Hospitality Management) ixtisası üzrə beynəlxalq ikili diplom proqramı olan Azərbaycan-Avstriya Turizm Proqramını (AATP) reallaşdırır. Avstriyadan və Azərbaycandan olan mütəxəssislər tərəfindən tədrisin aparıldığı proqramı uğurla bitirmiş tələbələr iki diplom - ATMU və IMC Kremsin diplomlarını əldə edirlər.

Məlumat üçün qeyd edək ki, 2007-ci ildən bəri AATP çərçivəsində 296 tələbə məzun olub. ATMU Türkiyənin Əskişəhər Osmanqazi Universiteti ilə də müvafiq ixtisas üzrə ikili diplom proqramı çərçivəsində əməkdaşlıq edir. ATMU-da gələcəkdə yeni ikili diplom proqramlarının formalaşdırılması nəzərdə tutulur. Bundan əlavə, ATMU turizm və təhsil sahəsində keyfiyyətli idarəetməni təsdiqləyən bir sıra beynəlxalq sertifikatlara layiq görülüb. Universitet 2019-cu ildə "Turizm işinin təşkili" ixtisas üzrə ISO 9001:2015 Keyfiyyət İdarəetmə Sistemi sertifikatı alıb, 2023-cü ildə isə Turizm və qonaqpərvərlik fakültəsi müvafiq sertifikat üzrə təkrar sertifikatlaşmadan uğurla keçib. 2020-ci ildə ATMU "Turizm işinin təşkili" proqramı üzrə UNWTO.TedQual beynəlxalq keyfiyyət sertifikatını əldə edərək, Cənubi Qafqazda bu sertifikata layiq görülən ilk ali təhsil müəssisəsi olub. Bundan əlavə, 2023-cü ildə ATMU-nun Turizm və qonaqpərvərlik, Sosial menecment fakültələri ISO 210001:2018 Təhsilin idarəedilməsi standartı üzrə sertifikatlaşdırılıb.

Dövlət Məşğulluq Agentliyinin məlumatına əsasən, ATMU əmək bazarında məzunları ən çox işlə təmin olunan ali təhsil müəssisələri arasında 6-cı yerdədir. Bu, burada verilən təhsilin əmək bazarının real tələbləri ilə uyğunluğunun əyani göstəricisidir. Universitet, eyni zamanda, 4 müxtəlif Dayanıqlı İnkişaf Məqsədi üzrə dünyanın ən reytinqli universitetləri sırasına da daxil olub. Daha əvvəl qeyd etdiyimiz ATMU-da struktur dəyişikliyi ilə bağlı görülən işlərin davamı olaraq, ATMU vasitəsilə peşəkar kadr ehtiyatının inkişaf etdirilməsi "Azərbaycan Respublikasında 2026-2030-cu illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın layihəsində də xüsusi prioritet kimi vurğulanıb və bir sıra tədbirlərin görülməsi qarşıya vəzifə kimi qoyulub. ATMU və IMC Krems ilə imzalanmış 13 sentyabr 2021-ci il tarixli son müqavilənin müddəti 2024-cü ildə bitib. AATP ikili diplom proqramının bir qrup (AATP 2025-2028 qrupu) üzrə də davam etdirilməsi üçün üçtərəfli (DTA, ATMU, IMC Krems) müqavilə əlavəsi imzalanıb. Proqramın qarşıdakı illərdə də uğurla davam etdirilməsi üçün üçtərəfli görüşlər davam edir. Bundan başqa, ATMU-nun bilik və bacarıqlar ilə seçilən tələbələri üçün son illərdə düşərgələr də təşkil olunur.

**– Hazırda universitetdə neçə fakültə var və bu fakültələrdə neçə ixtisas üzrə kadr hazırlığı həyata keçirilir? Günün tələbinə uyğun olaraq yeni ixtisasların yaradılması və tədrisi gözlənilirmi?**

– Hazırda ATMU-da 3 fakültə var: "Turizm və qonaqpərvərlik", "Biznes və menecment" və "Sosial idarəetmə". Universitet bakalavr səviyyəsində 12 ixtisas üzrə kadr hazırlığı həyata keçirir. Dövrün və turizm sənayesinin tələbləri nəzərə alınaraq ATMU-da "Qastronomiya və kulinariya" ixtisasının açılması üçün "Yeni təhsil proqramlarının (ixtisasların) açılması Qaydaları"na uyğun olaraq işlər görülüb. Sənədlər və sorğulara cavabların toplanması prosesində DTA tərəfindən ATMU-ya müvafiq dəstək göstərilib. Yeni ixtisasın açılması üçün 2025-ci ilin dekabr ayında ATMU tərəfindən Elm və Təhsil Nazirliyinə müraciət olunub.

**– Təhsil müəssisələrində imtahan sessiyalarının şəffaf və ədalətli təşkili istiqamətində hansı addımlar atılıb?**

– ATMU-nun ikinci tədris binasında 2025-ci ilin sonu etibarı ilə 3-cü elektron imtahan otağı istifadəyə verilib. Sözügedən otaqlar imtahanların tam elektron və şəffaf şəkildə keçirilməsi üçün müvafiq avadanlıqlarla təchiz olunub. Universitetdə imtahanların böyük əksəriyyəti elektron otaqlarda keçirilir. 2025-ci ildə ATMU-nun yeni strukturu tərəfimizdən təsdiq olunub, imtahan prosesinin daha səmərəli və şəffaf təşkilinin təmin edilməsi, yaxşılaşdırılması üçün "Elektron universitet və qiymətləndirmə mərkəzi" yaradılıb.

**– Hər bir dövrdə islahatlar günün tələbi hesab olunur və zaman-zaman bütün sahələri əhatə edir. DTA tabeliyindəki təhsil müəssisələrində, xüsusən də 20 yaşını qeyd edən ATMU-da necə, islahatlar aparılırmı və ya aparılması gözlənilirmi? Bu islahatlar, dəyişikliklər əsasən nədən ibarət olur?**

– 2025-ci ildə ATMU-nun yeni strukturu təsdiq olunarkən araşdırma, təlim, elektronlaşma, marketinq və kommunikasiya kimi vacib istiqamətlər üzrə ixtisaslaşacaq struktur bölmələr yaradılıb. Bununla yanaşı, akademik və inzibati heyətin peşəkar inkişafının dəstəklənməsi, müasir yanaşmalara uyğun insan resursları modelinin formalaşdırılması da əsas prioritetlərdən biri kimi müəyyənləşdirilib. Bu zaman universitetin strukturunun optimallaşdırılması və idarəetmənin səmərəliliyinin artırılması, eləcə də müasir standartlara uyğun çevik və innovativ fəaliyyət mexanizmlərinin formalaşdırılması hədəflənib.

Yeni struktur çərçivəsində "Elmi tədqiqatlar və akademik təhsil mərkəzi", həmçinin bir qədər əvvəlki sualda qeyd olunan "Elektron universitet və qiymətləndirmə mərkəzi" yaradılaraq təhsil, elmi fəaliyyət və idarəetmə proseslərinin daha sistemli inteqrasiyası və mərhələli şəkildə rəqəmsallaşdırılması təmin edilib. Hazırda universitetin qarşısında duran əsas vəzifələrdən biri əmək bazarının tələblərinə cavab verən, praktik bacarıqlara malik kadr hazırlığının davamlı olaraq inkişaf etdirilməsidir.

**– Turizm təhsil sisteminin gələcəyi ilə bağlı hansı planlarınız var?**

– Azərbaycanda turizm sahəsində ali və peşə təhsilinə tələbatın artacağını gözləyirik. Son illərdə bu sahəyə göstərilən diqqət, beynəlxalq əməkdaşlıqlar gələcəkdə təhsilin keyfiyyətində nəzərəçarpacaq irəliləyişlərə səbəb olacaq. Turizm ixtisaslarına olan marağın artması ilə paralel olaraq, təhsil müəssisələri turizm ixtisaslarına daha çox yer ayıra, tələbə qəbulunda da yüksəliş müşahidə oluna bilər. Xüsusilə, regionların turizmində inkişaf orada yerləşən təhsil müəssisələrində turizm ixtisaslarının açılmasına şərait yarada bilər.

Bu hal isə həm yerli kadr hazırlığını gücləndirəcək, həm də bölgələrin turizm potensialından daha səmərəli istifadəni təmin edəcək. Bu istiqamətdə gördüyümüz işlərdən biri daha əvvəl vurğulandığı kimi, Mingəçevir Turizm Kolleci üçün müasir standartlara cavab verən maddi-texniki bazaya və təhsil infrastukturuna malik kampusun tikilməsidir. Ali təhsil müəssisələrində turizm ixtisasları üzrə proqramların beynəlxalq standartlara uyğunlaşdırılması, kurikulumların müasirləşdirilməsi və praktik biliklərin ön plana çəkilməsi təhsilin keyfiyyətinə birbaşa təsir göstərəcək.

Eyni zamanda, akademik heyətin ixtisaslaşması, xarici təcrübə mübadilələri və beynəlxalq akkreditasiya təşəbbüsləri bu sahədə tədrisin səviyyəsini yüksəldəcək. Turizm sahəsində çalışan tələbələrin təhsil müddətində real iş şəraitində təcrübə keçməsi üçün hotellər, turoperatorlar və digər müəssisələrlə əməkdaşlığın genişlənməsi gözlənilir. Bu isə məzun olduqdan sonra onların əmək bazarına daha hazır və praktik bacarıqlara sahib olmasını təmin edəcək. Təhsilin əmək bazarına uyğunlaşması və yeni ixtisasların yaradılması da proqnozlaşdırılan əsas dəyişikliklərdəndir.

Peşə təhsili sahəsində isə daha çox praktiki yönümlü tədris metodlarının tətbiqi, müasir təlim bazalarının qurulması və işəgötürənlərlə əməkdaşlığın gücləndirilməsi nəticəsində bu təhsil pilləsindən məzun olan gənclərin hotelçilik, bələdçilik, restoran işi və kulinariya kimi sahələrdə iş tapmaq imkanları əhəmiyyətli dərəcədə yaxşılaşacaq.

Nəticə etibarilə, Azərbaycanda turizm təhsilinin beş il ərzində həm kəmiyyət, həm də keyfiyyət baxımından irəliləməsi, dəyişməsi gözlənilir. Bu proses, ümumilikdə ölkənin turizm sektorunun dayanıqlı inkişafına güclü dəstək verəcək.

*Müsahibəni hazırladı:*
***P. ƏFƏNDİ***
***Foto: Cavid QAÇAYEV***
***XQ***

*Texnologiya*

# Süni intellekt yaxşı tarixçi deyil

**Antropoloqların apardığı yeni araşdırma göstərib ki, süni intellekt sistemləri neandertallar haqqında köhnəlmiş və səhv təsəvvürləri təkrar edə bilir. Men və Çikaqo Universitetlərinin alimləri populyar modellər olan DALL-E 3 və GPT-3.5-in neandertalların gündəlik həyatı ilə bağlı nə dərəcədə düzgün mətn və təsvir yaratdığını yoxlayıblar. Nəticələr "Advances in Archaeological Practice" jurnalında dərc olunub.**

Araşdırma zamanı modellərə neandertalların fəaliyyəti, geyimi və əmək alətləri ilə bağlı konkret, elmi dəqiqlik tələb edən sorğular verilib və hər sorğu 100 dəfə təkrar edilib. Məlum olub ki, mətn cavablarının, təxminən, yarısı köhnəlmiş məlumatlara əsaslanır, şəkillər isə çox vaxt bir əsr əvvəl formalaşmış stereotipləri əks etdirir.

Təsvirlərdə neandertallar tez-tez həddindən artıq ibtidai, meymunabənzər, çox tüklü və əyilmiş qamətli şəkildə göstərilib. Sosial səhnələrdə qadın və uşaqlar demək olar, görünməyib ki, bu da müasir elmi biliklərlə uyğun gəlmir. Bəzi şəkillərdə isə o dövr üçün mümkün olmayan metal, şüşə əşyalar, toxunma səbətlər və saman damlı tikililər kimi anaxronizmlər yer alıb.

Tədqiqatın aparıcı müəllifi Metyu Manyani bildirib ki, süni intellektin dəqiqliyi onun istifadə etdiyi mənbələrin aktuallığından asılıdır. Araşdırmaya görə, GPT-3.5 əsasən 1960-cı illərin tədqiqatlarına, DALL-E 3 isə 1980–1990-cı illərin məlumatlarına söykənir. Bu da nəticələrin müasir elmi yanaşmalarla tam üst-üstə düşmədiyini izah edir. Tədqiqat 2023-cü ildə aparılıb və alimlər hesab edirlər ki, yeni



versiyalar daha aktual elmi məlumatları daha yaxşı nəzərə almalıdır.

Mütəxəssislər xəbərdarlıq edirlər ki, generativ süni intellekt təhsil və elmdə geniş istifadə olunduqca, bu cür səhvlər risk yarada bilər. Elmi baxımdan qeyri-dəqiq, lakin inandırıcı görünən məzmun köhnə stereotiplərin möhkəmlənməsinə və yanlış məlumatların yayılmasına səbəb ola bilər. Bu isə cəmiyyətin tarixə baxışına və elmi tədqiqatlara inama mənfi təsir göstərə biləcəyi istisna edilmir.

***SE LAY***
***XQ***

# İspan PUA-ları gözə görünmür

**Ər-Riyadda keçirilən "World Defense Show" sərgisində İspaniyanın Sener şirkəti yeni "SRC 100 Razor" pilotsuz uçuş aparatını təqdim edib. Təxminən 150 kiloqram çəkisi olan bu "görünməz" (stels) dron müxtəlif tapşırıqlar üçün nəzərdə tutulub. O, xüsusilə riskli və itirilmə ehtimalı yüksək olan missiyalar üçün daha sərfəli həll hesab olunur.**





Dronun əsas üstünlüyü paraşütlə xilasetmə sistemidir. Bu sistem tapşırıqdan sonra aparatın geri qaytarılmasına imkan verir. Hətta dronun itirilməsi ehtimal olunan missiyalarda belə, onun istifadəsi iqtisadi baxımdan məqsədəuyğun sayılır.

Şirkət bildirir ki, "Razor" hərbçilərin ehtiyaclarına uyğun çevik və tez uyğunlaşa bilən aparatdır. O, peyk siqnalları olmasa belə, avtonom rejimdə işləyə bilir. Dron kəşfiyyat, müşahidə və dəqiq zərbələr üçün istifadə oluna bilər.

"SRC 100 Razor" layihəsi SIROCO proqramı çərçivəsində hazırlanıb. Sener şirkəti yaxın zamanda SCR (Sistemas de Control Remoto) şirkətini satın alaraq avtonom sistemlər sahəsində imkanlarını genişləndirib.

Şirkət istehsal gücünü də artırır. Madriddə və Biskayada yeni və modernləşdirilmiş obyektlər tikilir. Yeni müəssisələrdə sınaq və montaj üçün müasir avadanlıqlar olacaq. Bu addımlar "Razor" dronunun kütləvi istehsalına və gözlənilən yüksək tələbatın qarşılanmasına hazırlıq məqsədi daşıyır.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

*Faiq NAĞIYEV – 80*

# Qara Qarayev məktəbinin yetirməsi

**Əməkdar incəsənət xadimi, tanınmış bəstəkar və pedaqoq, Qara Qarayev bəstəkarlıq məktəbinin layiqli nümayəndəsi olan Faiq Nağıyev müasir Azərbaycan professional musiqisinin, xüsusilə də xor sənətinin inkişafında mühüm xidmətləri olan bəstəkarlarımızdandır. Onun yaradıcılığı milli musiqi düşüncəsi ilə müasir bəstəkarlıq təfəkkürünün üzvi vəhdətini nümayiş etdirən sanballı sənət nümunələri ilə səciyyələnir.**



Bəstəkarın yaradıcılıq üslubunun formalaşmasında yalnız yüksək bəstəkarlıq məktəbi deyil, muğamın praktiki və intonasiya səviyyəsində dərindən mənimsənilməsi də mühüm rol oynamışdır. Muğam düşüncəsi onun əsərlərində birbaşa sitat şəklində deyil, daxili intonasiya axını, məqam təfəkkürü və emosional ifadə tərzi kimi təzahür edir. Bu cəhət Faiq Nağıyevin musiqisini milli-bədii yaddaşın daşıyıcısına çevirən əsas amillərdəndir. Bununla yanaşı, bəstəkar kamera-instrumental, fortepiano, vokal-instrumental və simfonik janrlarda da uğurlu yaradıcılıq nümunələri təqdim etmişdir.

Faiq Həbib oğlu Nağıyev 1946-cı il fevralın 13-də Gəncə şəhərində anadan olmuşdur. İlk musiqi təhsilini kamança aləti üzrə alan gələcək bəstəkar hələ erkən yaşlarından ifaçılıq sahəsində ciddi uğurlar qazanmış, respublika müsabiqələrinin laureatı olmuşdur. Musiqi istedadı nəzərə alınaraq, musiqi məktəbində oxuduğu illərdə birbaşa Qənbər Hüseynli adına Gəncə Musiqi Texnikumunun kamança sinfinə qəbul edilməsi onun dünyagörüşünün genişlənməsi, musiqi mədəniyyətinə elmi marağının formalaşması baxımından mühüm mərhələ olmuşdur.

Məhz bu illərdə Faiq Nağıyev dünya musiqi tarixinə dərin maraq göstərmiş, Azərbaycan, rus və Avropa bəstəkarlarının yaradıcılığını sistemli şəkildə öyrənmişdir. Bu maraq onu musiqişünaslıq sahəsinə gətirmiş və 1964-cü ildə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının musiqişünaslıq fakültəsinə daxil olmuşdur. 1969-cu ildə ali təhsilini uğurla başa vuran gənc musiqiçi artıq elmi-nəzəri biliklərə malik mütəxəssis kimi formalaşmışdı. Lakin bəstəkarlıq sənətinə olan daxili ehtiyac və yaradıcılıq çağırışı onu yenidən konservatoriyaya qaytarmışdır.

İlkin bəstəkarlıq dərslərini təcrübəli müəllim Oleq Felzerdən alan Faiq Nağıyev 1969-cu ildə bəstəkarlıq ixtisası üzrə Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuş və görkəmli bəstəkar, dahi pedaqoq Qara Qarayevin sinfində təhsil almışdır. Qara Qarayev məktəbi gənc bəstəkarın yaradıcılıq dünyagörüşünün, estetik prinsiplərinin və müstəqil üslub xəttinin formalaşmasında həlledici rol oynamışdır. Kompozisiya, musiqi forması və müasir bəstəkarlıq texnikası sahəsində qazandığı biliklər onun əsərlərində konseptual bütövlük və peşəkar düşüncə kimi öz əksini tapmışdır.

1970-ci illərdən etibarən müstəqil yaradıcılıq yoluna qədəm qoyan Faiq Nağıyev yaradıcılıq simfonik və vokal-simfonik musiqi, xor yaradıcılığı, kamera-instrumental janrlar, kino musiqisi xüsusi yer tutur. Onun iki simfoniyası, simfonik poemaları, "Şəhidlərdən–şəhidlərə" simfonik süitası, "Ana torpaq" kantatası, "Azadlıq" və "Sumqayıt" odaları, instrumental konsert və sonataları Azərbaycan musiqi mədəniyyətinin dəyərli nümunələrindəndir.

Onun yaradıcılığının əsas ideya istiqamətini yüksək bəşəri dəyərlərin, humanist idealların və milli kimliyin bədii təcəssümü təşkil edir. Bu baxımdan bəstəkarın memorial xarakterli əsərləri xüsusi əhəmiyyət kəsb edir.

Faiq Nağıyev Azərbaycan musiqi mədəniyyətinə dəyərli töhfələr vermiş, xor musiqisinin janr və ifadə imkanlarını xeyli genişləndirmişdir. Bəstəkarın yaradıcılığında "Ana torpaq" kantatası, "Layla", "Azadlıq" və "Sumqayıt" odaları, "Şamın naləsi", "Aşiqəm" xor miniatürləri, uşaq xorları üçün yazılmış mahnılar, eləcə də müxtəlif həsrnamələr milli xor repertuarının mühüm tərkib hissəsinə çevrilmişdir.

Faiq Nağıyevin qarışıq akapella xoru üçün üçhissəli konserti ustadı Qara Qarayevin əziz xatirəsinə həsr edilmiş və xor konserti janrının milli musiqimizdə formalaşmasına yeni nəfəs gətirmişdir. Əsərdə klassik poeziya ilə müasir musiqi dilinin sintezi, məqam təfəkkürü ilə müasir texniki üsulların vəhdəti aydın şəkildə hiss olunur.

Vətənini sevən əsl vətənpərvər insan kimi Faiq Nağıyevin də qəlbində tələtüm yaratmışdır. Onun 1991-ci ildə rejissor Xamis Muradov tərəfindən "Azərbaycanfilm" kinostudiyası nəzdində "Salnamə" studiyasında çəkilmiş "Şəhidlərdən-şəhidlərə" adlı sənədli filmə yazdığı musiqidə bu faciəvi hadisələr öz əksini tapmışdır. Bəstəkar filmin bədii məzmununu musiqi dili ilə dolğun şəkildə ifadə edərək yeddi müstəqil nömrədən ibarət daxili dramaturji inkişaf xətti yaratmışdır. 2002-ci ildə bəstəkar bu sənədli filmin musiqisi əsasında kiçik simfonik orkestr üçün süita da yazmışdır.

Bəstəkar bu mövzuda yazılmış daha bir əsərin qarışıq xor, əzançı və böyük simfonik orkestr üçün "Azadlıq" odasının da müəllifidir.

"Xocalı harayı" rekviyemi yalnız musiqi əsəri deyil, həm də kollektiv yaddaşın bədii manifesti kimi qiymətləndirilə bilər. Bu əsərdə xor fakturası, dramatik inkişaf və emosional kulminasiya milli ağrının ümumiləşdirilmiş bədii ifadəsidir.

Azərbaycan Milli Konservatoriyasının Etnomusiqişünaslıq kafedrasının professoru Faiq Nağıyev həm istedadlı bəstəkar, həm də dərin bilikli pedaqoqdur. Onun pedaqoji fəaliyyəti yalnız texniki biliklərin ötürülməsi ilə məhdudlaşmır, həm də tələbələrin yaradıcılıq potensialını, estetik zövqünü və milli musiqi ənənələrinə hörmətini formalaşdırır.

Bəstəkar Qara Qarayev məktəbinin prinsiplərini rəhbər tutur, tələbələri müstəqil yaradıcılığa təşviq edir və fərdi üslub xəttini inkişaf etdirmələrinə şərait yaradır. Onun sinfində yetişmiş çoxsaylı bəstəkar, ifaçı və pedaqoq bu gün Azərbaycan musiqi mədəniyyətinin müxtəlif sahələrində fəaliyyət göstərirlər.

Bəstəkarın ali və orta-ixtisas musiqi məktəblərinin tədris proqramına salınan əsərləri gənc musiqişünaslıq tərəfindən diplom işləri, fəlsəfə doktoru dissertasiyaları mövzusu kimi tədqiq edilir.

Faiq Nağıyev, eyni zamanda, bir sıra dərs vəsaitləri və tədris proqramlarının müəllifidir.

Yaradıcılıq enerjisini bu gün də qoruyub saxlayan, milli musiqi mədəniyyətimizin inkişafına sədaqətlə xidmət edən Əməkdar incəsənət xadimi, Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin üzvü Faiq Nağıyevi 80 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları və uzun ömür arzulayırıq.

*Jalə QULAMOVA,*
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Milli Konservatoriyasının professoru*

*Yeni tamaşalar*

# "Maneken"in işvəli təbəssümü

**Teatr sehrli məkandır, onun cazibəsinə düşdünsə, heç cür ayrılmaq istəmirsən. Bu mistik məkanda – səhnədə biz müxtəlif insan talelərini izləyir, ağlayır, gülür, kövrəlir, dünyanın, həyatın fəlsəfəsi ilə bağlı düşüncələrə dalırıq.**



XX əsr ingilis teatrının nüfuzlu nümayəndələrindən olan teatr və kino rejissoru Piter Bruk yazırdı ki, "yaxşı tamaşaçı olmadan yaxşı teatr mövcud ola bilməz". Bu gün teatrlara az insanlar gəlir, onlar teatra sadiqdirlər, demək, yaxşı tamaşaçıdırlar. Teatrlarımız yaxşı tamaşaçı sarıdan heç vaxt korluq çəkməyib.



Bu günlərdə Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında görkəmli yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Firuz Mustafanın "Maneken" tamaşası nümayiş olundu. Dərin məzmunlu tamaşada tənha bir qadının daxili dünyası incələnir. Kişilərə inamı sarsılan qadın bir manekeni özünə ər seçir və bütün intim duyğularını onunla "bölüşür", hesab edir ki, onu yalnız bu maneken başa düşə bilər.

Tamaşanın quruluşçu rejissoru Raulya Türkan pyesə fərqli yanaşaraq son dərəcə dinamik səhnə əsəri ərsəyə gətirib. Qadın obrazını canlandıran istedadlı aktrisamız İnna İmranova həyati ştrixlərlə bu obrazı öz təbiiliyinə qovuşdurur. Qadının mürəkkəb dünyası aktrisanın məharətli ifasında açılır.

Əsərin həcmi kiçik, iştirakçıları azdır, məkan və zaman da məhduddur, lakin oradakı monumentallıq, epik vüsət insan hisslərinin mürəkkəbliyində, psixoloji çarpışmalarında, hadisələrin gərgin dinamikasında və emosional təsir gücündədir.

Rejissor əsərdəki hisslərin, ehtirasların təzadlı səciyyəsindən bacarıqla istifadə edərək uğurlu bir tamaşa yarada bilmişdir. Onu da qeyd etmək vacibdir ki, söhbət böyük səhnədən getmir və rejissor həmin səhnənin spesifikasına uyğun olaraq "Maneken" tamaşasında monumentallıqla kameralıq arasında bədii-estetik vəhdət yaratmışdır və bu işdə əsas ağırlıq qadın obrazının ifaçısı İnna İmranovanın üzərinə düşür. Onun Manekenlə "söhbəti" öz taleyinin nəqlinə çevrilir. Aktrisa lirik-psixoloji incəlikləri göstərmək bacarığı ilə bərabər, istedadının epik imkanlarını da nümayiş etdirir və psixoloji lirika ilə epik vüsətin belə bir qarşılıqlı əlaqəsi və təsiri "Maneken"də çox yaxşı nəticə vermişdir.

Başdan-başa təzadlarla dolu, son dərəcə mürəkkəb daxili aləmə, çılğın hiss-həyəcanlara, qızğın ehtiraslara malik qadın əslində özü də bu mürəkkəbliyin, çılğınlığın qurbanıdır. Onun ehtirasları "adi həyat" çərçivələrinə və adi təfəkkürə sığmır. Elə Manekeni özünə sevgili, ər seçməsi də buna sübutdur. Onun psixoloji iztirablarının melodramatik formada təqdimi qənaətbəxşdir. İnna İmranova daxili imkanları, potensialı geniş olan aktrisadır və bu rol sanki onun boyuna biçilib. Aktrisanın üzünü tamaşaçılara tutub monoloqunu deməsi interaktivliyə cəhd kimi maraqlıdır, o, suallarına tamaşaçılar arasında cavab axtarır.



Aktrisanın patetik vüsəti tamaşaçını da həyəcanlandırır, onu bu qadının taleyində xoş bir nüans axtarmağa sövq edir. İnna İmranovanın emosiyaları, oyun amplitudası sərbəstdir. Qadın tamaşa boyu müxtəlif hallar yaşayır, şərti və real ifadələrin arxitektonik payını bərabərləşdirir. Bu da rejissor mizanlarının dəqiqliklə seçilməsini göstərir.

Beləliklə, rejissor səhnədə qadının energetik tarazlığını qoruyub saxlamağa çalışıb və buna nail olub.

Tamaşa insanı öz iç dünyasına səyahətə, öz daxili aləmini təftiş etməyə, düşünməyə sövq edir. Günahkar kimdir? Qadın, ya kişi? Bu suallar ətrafında düşündükcə, "Maneken"in saxta təbəssümü gözlərim önündə canlanır.

*Kənan HACI,*
*yazıçı-dramaturq*

*Yeni kitablar*

## "Müqəddimətül- ədəb" ana dilimizdə

**Beynəlxalq Muğam Mərkəzinin (BMM) nəşrləri səriyasından özbək xalqının böyük mütəfəkkiri Zəməxşərinin əsəri işıq üzü görüb. Bu, "Müqəddimətül- ədəb" kitabıdır.**

Əsər filologiya elmləri doktoru, professor Tərlan Quliyevin əski əlifbadan müasir əlifbaya çevirməsi ilə ərsəyə gətirilib. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda hazırlanan əsərin elmi redaktoru akademik Teymur Kərimlidir.

"Zəməxşərinin "Müqəddimətül-ədəb" əsəri türkoloji aləmdə Mahmud Kaşğarinin "Divani luğat-it Türk" əsərindən sonra mühüm yer tutur. Abidənin, ilk növbədə ərəbcə-farsca- türkcə (Xarəzm türkcəsi) lüğət olmasına baxmayaraq, kitabda yüzlərlə türk söz və söz birləşmələri öz əksini tapıb. Əsər Azərbaycan oxucusuna ilk dəfə təqdim olunur.

## "Haqdan yanan çıraq"

"Mücrü" nəşriyyatında araşdırmaçı-yazar Tahir Həsənlinin "Haqdan yanan çıraq" kitabı çap olunub.




Kitabda VIII əsrin sonu - XIX əsrin ortalarınadək Quba və Dərbənd xanlıqlarında baş verən ictimai-siyasi hadisələr fonunda tarixi şəxsiyyətlərlə yanaşı, görkəmli el sənətkarı, Şirvan aşıq məktəbinin yaradıcısı Xaltanlı Tağının (1798–1873) həyat yolu işıqlandırılıb.

*Bir əlimdə sazdır, birində qələm,*
*Haqqın dərgahında günah etmərəm.*

Əsərdə Xaltanlı Tağı ilə görüşmüş bir sıra tarixi şəxsiyyətlər – A.Bakıxanov, Şeyx Şamil, Dağıstan və Çeçenistanın ilk imamı Qazi Məhəmməd, onların müəllimi, Qafqazda müridizmin banisi Məhəmməd Yaraqlı, Mövlanə Şeyx İsmayıl Siracəddin Şirvani, qubalı qaçaq Molla Nur və başqalarına da yer verilib.

## "Salam sahibi Haqqdı..."

Ədəbiyyatımızın aşıq poeziyası ruhunu müasir düşüncə ilə yoğuran şair İbrahim İlyaslının– "Salam sahibi Haqqdı..." adlı yeni kitabı işıq üzü görüb. Kitab, Azərbaycan Yazıçılar Birliyinin layihəsi çərçivəsində nəşr olunub.




Layihənin rəhbəri – şair və ədəbiyyat təşkilatçısı Xəyal Rza, redaktoru Xaqani Qayıblı, ön söz müəllifi Rüstəm Kamal, məsləhətçisi Qorxmaz Tofiqoğlu, kitabı nəşrə hazırlayan isə Həmid Ormanlıdır.

Bu nəfis topluda şairin aşıq poeziyası üslublu, saz ruhlu seçmə şeirləri insanı ilkinliyinə, mənəvi saflığına qovuşdurur:

Yeddinci qatında haqqım var deyə,
Sidqinən əşqimi bağladım göyə.

İbrahim İlyaslının əvvəlki kitablarından seçmələr və son illər ərzində qələmə aldığı divani, təcnis, qoşma, gəraylı, qıfılbənd, müxəmməs kimi klassik janrlarda yazılmış poetik nümunələr yer alır. Əsərlər həm məzmun, həm də forma baxımından aşıq poeziyasına sədaqətlə yanaşı, şairin özünəməxsus söz dünyasının da zənginliyini əks etdirir. Kitab oxucunu Haqqa, səmimiyyətə, saf niyyətə səsləyir.

*Ə.DOSTƏLİ*
*XQ*

AzTV – 70

# Milli televiziyamızın müdriklik yaşı

**Azərbaycan radiosundan 30 il sonra – 1956-cı il fevralın 14-də Bakı Televiziya Studiyası fəaliyyətə başlayıb. Şərqdə ilk dəfə Bakıda işıqlanan mavi ekran milli jurnalistikamızda, eləcə də ictimai həyatımızda vizual informasiya vermək, maarifləndirmək və əyləndirmək funksiyasında yeni təsirli vasitə olub və missiyasını layiqincə yerinə yetirərək, sosial-siyasi proseslərə təsir göstərmək özəlliyini ortaya qoyub.**



Həmin gün gənc diktor Nəcibə Məlikovanın məşhur "Diqqət, göstərir Bakı!" sözlərini deməklə respublikada müntəzəm yayımın başlanmasını bildirməsindən sonra Mehdi Hüseyn, Süleyman Rüstəm və TV-nin rəhbərlərindən olan Teymur Elçin xalqımızı bu münasibətlə təbrik ediblər. Ardınca Sara Qədimovanın qısa muğam konserti olub. Kiçicik ekranda ilk olaraq "Bəxtiyar" bədii filmi göstərilib, amma həmin gün texniki səbəblərdən kinonun səsi çıxmayıb. Çünki teleqüllənin inşası sona yetmədiyi üçün studiya antennası adi neft buruğuna bağlanmış və bu üzdən səs siqnallarının ötürülməsində nasazlıq yaranmışdı. Ertəsi günün efirini məşhur aktrisa Hökümə Qurbanova aparıb və həmin filmi yenidən təqdim edib. Bakı studiyası əvvəlcə həftədə 2, sonra 3 dəfə ikisaatlıq proqramla efirə çıxıb...

Ana televiziyamızın inkişafında yaddaqalan bir sıra hadisələr Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dönəmə düşür. O dövrdə Azərbaycanın ictimai-siyasi və mədəni həyatına yeni texniki platforma kimi daxil olan televiziya həm videoxəbərlər, konsertlər verir, həm də milli-mənəvi dəyərlərimizi təbliğ edirdi.

AzTV-nin unudulmaz anlarının bəzilərini yada salaq. 1957-ci il iyunun 28-də ilk dəfə olaraq səyyar kameralar vasitəsilə respublika stadionundan canlı yayım həyata keçirilib. 1961-ci ildə Gəncə, Göyçay və Şuşa şəhərlərində güclü TV stansiyalar, 1962-ci ildə Naxçıvan MR-də kiçik güclü TV stansiya və studiya qurulub. 1967-ci ildən ağ-qara yayımdan rəngli (SECAM) TV yayımına keçilib... Sonra kinokameraları videokameralar əvəz edib.

AzTV-nin şanlı tarixinin şərəf səhifələri unudulmur. 1990-cı il yanvarın 19-da saat 19:26-da bu televiziyanın enerji bloku partladılıb. Milli efir öz tarixi ərzində cəmi 9 gün auditoriyasından ayrı düşüb. Ölkədə fövqəladə vəziyyət tətbiq edilsə də, televiziyanın yayımını yalnız yanvarın 28-də bərpa etmək mümkün olub. Dünya ölkələri ilə telekörpü 2004-cü ilin fevralından başlayaraq AzTV-nin proqramlarının Avropa miqyasında daha keyfiyyətli yayımını təmin edib. 2007-ci ildə Avropaya yayımın texniki müvafiqliyinə görə Azərbaycan Televiziyası "Avropa keyfiyyəti" medalına layiq görülüb.

2012-ci ildə Bakı Teleqüllə Kompleksində IPTV baş stansiyası qurulub və həmin kontentin provayderlərə ötürülməsinə başlanılıb. 2016-cı ilin sonunda daha müasir – rəqəmli TV yayımına keçid tam gerçəkləşib.

Azərbaycan dövlət televiziyası 70 ildə zəngin təcrübə qazanıb, dövlətçilik təfəkkürü və milli dəyərlərə söykənən məktəbə çevrilib və ölkə teleməkanının daimi öncülüdür. AzTV-nin güclü maddi-texniki bazası var, peşəkar yaradıcı heyəti, rəngarəng mövzuları, təqdimat formaları ilə seçilir. Prezident İlham Əliyevin təşəbbüsü və xeyir-duası ilə "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin bazasında yaradılan "İdman Azərbaycan" və "Mədəniyyət" telekanallarının da fəaliyyəti qənaətbəxşdir.





Bu sətirlərin müəllifi 20 ilə yaxın milli televiziyada çalışıb. Ünlü qələm sahibləri Elşad Quliyev, Nahid Hacızadə, Aydın Əliyev, Babək Hüseynoğlu, Şəmistan Nəzirli, Kamil Abdullayev, Sadıq Elcanlı, Səyyad Ağbabalı, Həsən Həsənov, Mülatif Adurov, Fikrət Adıgözəlli, rejissorlar Solmaz Həmzəyeva, Vaqif Ağayev, Miri Rzayev, Şərif Qurbanəliyev, Kamran Əliyev, Fərhad Nayibov, çoxsaylı peşəkar operator və montajçılarla birgə maraqlı verilişlər, telesüjetlər ərsəyə gətirmişik. Akif Cabbarlı, Bahadır Şəfi, Nadir Diridağlı, Sahəddin Hüseynov, Azad Müzəfərli, İlham Zeynallı ilə dostluğumuz bu günə qədər davam edir...

Dünən AzTV-yə növbəti güzarımız 70 illik yubileylə əlaqədar rəhbərliyin veteranlarla görüşünə təsadüf etdi. Keçmiş həmkarlarımız olan jurnalistlərlə, rejissorlarla səmimi söhbətlərimizdə xatırladıq ki, çalışdığımız redaksiyalarda sırf yaradıcı ruh, operativlik naminə fədakarlıq bir norma idi.

Ədəbi-dram verilişləri redaksiyasında çalışdığım vaxt bir gün hansı tədbirə gecikirdik. Bizi obyektə aparmaq üçün maşın yox idi. Çarəsiz qalıb sədr müavini rəhmətlik Nahid Hacızadənin kabinetinə girdim.

– Nahid müəllim, vaxt azdır, maşın isə yoxdur, – dedim.

– Bəs nə edək? – deyə soruşdu. Cavabım gözlənilməz və konkret oldu:

– Nə edəcəksiniz, xidməti maşınınızın sürücüsünə deyin, bizi tez ora çatdırsın.

– Yaxşı, gedin, amma gözəl veriliş hazırlayın ha!

Beləcə, çətin vəziyyətdən çıxdıq. Təcrübəli televiziyaçı olan Nahid müəllim sonra mənim o hərəkətimi hətta təqdir elədi...

Veteranlarla görüşü "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədri Rövşən Məmmədov açaraq doğma ocağa qonaq gəlmiş yaşlı məşhurları salamladı, hamısını yubiley münasibətilə təbrik etdi. O qeyd etdi ki, müstəqillik aktının qəbulunu, Ulu öndərin hakimiyyətə qayıdışını, digər mühüm tarixi hadisələri, o cümlədən Vətən müharibəsində möhtəşəm Zəfərimizi müjdələyən Azərbaycan televiziyası hər bir ailənin, necə deyərlər, sözü urvatda tutulan möhtərəm bir üzvüdür. İnformasiya texnologiyaları, mobil vasitələr həyatımıza nə qədər çox nüfuz etsə də, mötəbər canlı salnamə yaradan televiziyanın yeri başqadır. Son illərdə dövlətin qayğısı ilə milli sərvətimiz olan Teleradiomuz müasirliyi özündə ehtiva edir, bir neçə peyklə dünyaya yayımlanaraq yüksək "əyarlı" peşəkar telekanallar sırasındadır.

Görüşdə vurğulandı ki, hazırda ana televiziyanın kollektivi məhz veteranlardan öyrəndiyi milli-mənəvi dəyərlərə hörməti, gözəl ənənələri qoruyub saxlamağa çalışır. Əsas odur ki, seyrçi ekranın küncündəki leyblı görməsə belə, məhz AzTV-yə baxdığını bilir. Bu, özünü efir ədəb-ərkanı, mədəni davranışlar, səviyyəli çıxışlar, aydın və səlis nitqlər, keyfiyyətli texniki yayım sayəsində büruzə verir. Bu gün AzTV, sözün əsl mənasında, ana televiziya statusunu layiqincə doğruldur.

Arada fürsət tapıb veteran AzTV-çilərdən bəzilərinin ürək sözlərini dinlədik.

**Telli Pənahqızı, "Vətənə xidmətə görə" ordenli Əməkdar mədəniyyət işçisi:**

– Ömrümün əksər hissəsi burada keçib. Dostlarımı burada qazanmışam, duyğu və düşüncələrimi bu ekranın vasitəsilə seyrçilərə çatdırmışam. Bu gün də məni küçədə, yolda görənlər öz doğmaları kimi salamlayır, hörmət və ehtiramlarını bildirirlər. Çünki mən də, əziz həmkarlarım da heç vaxt xalqa yalan məlumat verməmiş, millətin zərərinə olan bir kəlmə söz belə işlətməmişik. Hər vaxt düşünmüşük ki, bütün televiziyaçılar, jurnalistlər, ilk növbədə, Vətənin, xalqın danışan dili olmalıdırlar. Biz belə yaşamışıq, belə işləmişik. Hazırda estafeti uğurla davam etdirən gənc həmkarlarımı təbrik edir, uğurlar diləyirəm.

***Roza Tağıyeva, tanınmış telediktor, Xalq artisti:***

– Televiziyamızın 70 yaşı tamam olur. Bu müddətin 64 ilini mən burada keçirmişəm. Bununla çox fəxr edirəm. Bütün teleradio işçilərinə yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Qoy, necə ki, televiziyamız çiçəklənir, belə də davam eləsin!

***Solmaz Həmzəyeva, Ali dərəcəli ilk qadın televiziya rejissoru, Prezident təqaüdçüsü:***

– İlk dəfə məni bura anam Barat Şəkinskaya gətirib. Sonra – 1962-ci ildə, Rozadan bir neçə ay sonra AzTV-də işə düzəlmişəm. Düz 50 il "Gənclik" baş redaksiyasında çalışmışam. Televiziya gözümün qarşısında gəlib 70 yaşına çatıb. Bütün ardıcıllarımızı, burada çalışan bütün həmkarlarımızı təbrik edirəm. Qoy, təqaüdə çıxandan illər sonra onlar da dəyərli veteranlar kimi, AzTV-yə dəvət olunsunlar, təbrikləri fərəhlə qəbul etsinlər.

Bəli, ana televiziyamız ölkəmizin son 70 ildəki tarixinin şahidi, bu tarixin şanlı səhifələrinin yazılmasının birbaşa iştirakçısıdır. Yüksək peşəkarlıq keyfiyyətlərinə, özünəməxsus efir mədəniyyətinə söykənən bu salnaməçilik AzTV-nin vizual jurnalistikanın inkişafındakı silinməz imzasını ehtiva edir. İnanırıq ki, ən güclü təbliğat kanalı olan milli televiziyamız bundan sonra da ölkəmizin və dövlətimizin qüdrəti, xalqımızın zəngin tarixi, vətəndaşlarımızın daha xoşbəxt gələcəyi ilə bağlı xəbərləri ilə geniş auditoriyasını sevindirəcək.

*Əli NƏCƏFXANLI,*
*Rauf İBRAHİMOV (foto),*
*XQ*

Unutsaq, unudularıq

**... Kasıb ailədə doğulan Nəbi Gülməmmədov kənd məktəbini bitirdikdən sonra Tiflis Pedaqoji Texnikumuna daxil olub. Orada görkəmli riyaziyyatçı - alim, akademik Zahid Xəlilovdan dərs alıb. Hələ o vaxtlar Zahid Xəlilov Nəbi Gülməmmədovun timsalında gələcəkdə ən güclü riyaziyyatçı və parlaq şəxsiyyət olacağını demişdi. Ona görə də təhsilini davam etdirməyi, ali təhsil almasını məsləhət bilmişdi. Gənc Nəbi isə hələlik bunun mümkün olmadığını söyləyir. Ailədə güzəranlarının çətin olduğunu açıqlayır. Beləliklə, Nəbi Gülməmmədov ali təhsil alanadək bir müddət Faxralı kənd orta məktəbində riyaziyyat müəllimi işləyir.**

# Ziyalı nuru, yurd sevgisi

## *Şöhrəti el-obaya sığmayan müəllim*

O, 1935-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) fizika-riyaziyyat fakültəsinə daxil olur və 1939-cu ildə ali təhsilini müvəffəqiyyətlə başa vurur. İş elə gətirir ki, oxuduğu ali məktəbdə də akademik Zahid Xəlilovdan dərs alır.



O zaman Nəbi Gülməmmədov Faxralının çox az sayda ilk ali təhsil alan müəllimlərindən biri idi. Oxuduğu ali məktəb, ziyalılar mühiti Nəbi müəllimin həyatında xüsusi rol oynamışdı. İnstitutda oxuyarkən görkəmli alimlər və şəxsiyyətlər Zahid Xəlilov, Məmməd bəy Əfəndiyev, Bəylər Ağayev və başqa adlı-sanlı alimlərdən dərs almış, onların sevimli tələbəsi olmuşdur. Eyni zamanda, unudulmaz tələbəlik illərinin acılı-şirinli günlərini Gədəbəyli Qoşqar Əhmədovla birgə yaşamışdılar. Hər ikisi də ucqar dağ kəndinin daşlı-kəsəkli yollarından keçib gəlmişdi. Bir qarnı ac, bir qarnı tox... tələbə həyatının romantikasını da görmüşdülər, şirin əzablarını və çətinliklərini də.

O dövrün tələbəliyi indiki kimi deyildi. Dərs vəsaitləri, ləvazimatlar, geyim, gündəlik yaşayış xərci – hamısı problem idi. Kənd-kəsəyin inci saflığını özündə saxlayan hər iki gənci bir amal birləşdirirdi; oxumaq, elm öyrənmək, mümkün qədər savadlı olmaq.

Sonra vəziyyət elə gətirdi ki, Qoşqar Əhmədov təhsilini Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) riyaziyyat fakültəsində davam etdirdi. Ali təhsilini başa vuran Nəbi Gülməmmədov isə Gürcüstanın Axalsx rayonundakı pedaqoji texnikuma müdir göndərildi.

İllər keçdi, Nəbi müəllim millətimizin balalarının maariflənməsi yolunda, Qoşqar Əhmədov isə elmin çətin yollarında irəlilədi. "Differensial və inteqral tənliklər" nəzəriyyəsi sahəsində görkəmli mütəxəssis, dünya şöhrətli alim Qoşqar Əhmədovla şöhrəti, hörməti el-obaya sığmayan Nəbi Gülməmmədovun dostluq bağları heç zaman qırılmadı, əlaqələri, dostluq münasibətləri ömrün sonuna qədər davam etdi.

Nəbi müəllim ayrı-ayrı vaxtlarda Qarayazı və Faxralı orta məktəblərində dərs hissə müdiri və məktəb direktoru işlədi. Pedaqoji fəaliyyəti zamanı daim uğur və böyük nüfuz qazanan Nəbi Gülməmmədov elmlərin şahı olan riyaziyyat fənni üzrə Borçalı mahalının müəllimləri arasında adını həmişə zirvədə saxladı. Bu dəyərli ziyalının milli məqsədlərə, xalqınını övladlarının maariflənməsinə hesablanmış pedaqoji fəaliyyəti işlədiyi məktəblərin tarixinə qızıl hərflərlə yazıldı. Ömrünün ən mənalı, yaddaqalan dövrü də böyüməkdə olan nəslin təlim-tərbiyəsinə, maariflənməsinə həsr etdiyi illər oldu.

Dərs dediyi şagirdlərinə elm, təhsil dalınca getməyi məsləhət bilən Nəbi müəllim neçə-neçə riyaziyyatçı-alimlərin yetişməsinin səbəbkarı, eyni zamanda, onlara mənəvi ata olmuşdur. O nurlu insan ömrünün ahıl çağlarında mənə də dərs deyib. Həmin illərdə mənə elə gəlirdi ki, o, kəndimizdə hamıdan yaşlıdı – hamıdan böyükdü, hamıdan güclüdü. Nəbi müəllim bizim qəlbimizdə ümid çırağı, inam işığı yandıra bilmişdi. Sanki onun gözlərinin nuru şagirdlərinin yolunu işıqlandırırdı. Hər dərsi şagird təfəkkürünün inkişafına xidmət edirdi.

Nəbi müəllim yaxşı bilirdi ki, "təhsil ictimai və fərdi dəyərləri özündə daşıyan bir sistemdir". Ona görə də şagirdlərin biliklərə inadla yiyələnmələri üçün əlindən gələni əsirgəmirdi. O, təkcə özü haqda düşünən adam deyildi. Başqalarının yaşamasına gərək olan adam idi. Deyirdi ki, başqalarının yaşamasına gərək olmayacaqsansa, onda bu həyatda yaşamağın nə mənası var?..

O, dərs dediyi şagirdlərə qəlbində el-oba məhəbbəti, el-oba qeyrəti, Vətən sevgisi yaşatmağı təlqin edirdi. Vaxtilə kəndimizdə onun keçmiş şagirdləri arasından neçə-neçə görkəmli alimlər, adlı-sanlı ziyalılar yetişdi. İndi özü aramızda olmasa da, Nəbi müəllimdən dərs almış şagirdləri onun unudulmaz xatirəsini əsl vətəndaşlıq duyğusu ilə yad edirlər.

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

# AMEA Beynəlxalq Akademiyalar Birliyinə üzv seçilib



**Fevralın 9-dan 11-dək Yunanıstanın paytaxtı Afinada Beynəlxalq Akademiyalar Birliyinin Təsis konfransı keçirilib. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli mərasimdə iştirak və çıxış edib.**

Plenar iclasda Afina Elmlər Akademiyasının prezidenti, akademik Nikifiros Diamantourosun açılış nitqi ilə çıxış edib. Sonra Yunanıstanın keçmiş prezidenti, Afina Universitetinin fəxri professoru Prokopios Pavlopousosun "Süni intellekt dövründə mif və həqiqət" mövzusunda məruzəsi dinlənilib.

İclas "Süni intellekt, insan sağlamlığı və zəka", "Süni intellektdə kollektiv və iqtisadi baxış", "İnnovasiya, rəqabətlilik: Avropa iqtisadiyyatının inkişafı və gələcəyi", "Rəqəmsal arxeologiya və insan faktoru", "Antropogen dövrdə iqlim dəyişiklikləri və Aralıq dənizi hövzəsində mədəni irsin dayanıqlığı" mövzularında məruzələr və onların müzakirəsi ilə davam edib.

Yunanıstan Elmlər Akademiyasının Neoklassik zalında fevralın 10-da keçirilən Beynəlxalq Akademiyalar Birliyinin Təsis konfransında Yunanıstan Elmlər Akademiyasının vitse-prezidenti, akademik Kristos Zerefos Beynəlxalq Akademiyalar Birliyi İdarə Heyətinin sədri seçilib. İclasda 41 ölkənin Elmlər akademiyalarından Beynəlxalq Akademiyalar Birliyinin tam üzvləri, fəxri üzvləri də seçilib, üzvlüyə namizədlər müəyyən olunub. Azərbaycan Milli Elmlər Akademiyası Beynəlxalq Akademiyalar Birliyinin fəxri üzvləri sırasında yer alıb.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli səfər çərçivəsində Türkiyə Elmlər Akademiyasının prezidenti, professor Müzəffər Şəkərlə görüşüb. Söhbət zamanı qarşılıqlı əməkdaşlıq məsələləri və Birinci Türkoloji Qurultayla əlaqədar keçiriləcək tədbirlər barədə müzakirə aparılıb. AMEA rəhbəri Avstriya Elmlər Akademiyasının prezidenti, professor Hayns Fabman və Macarıstan Elmlər Akademiyasının vitse-prezidenti Vanda Lamm ilə də görüşüb.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Soydaşımız TÜRKSOY-un "Ən yaxşı dramaturq" mükafatçısı oldu

**Artıq 11-ci dəfədir ki, ilbəil Türk dünyasında teatr sənətinə töhfə verən sənətkarlar Beynəlxalq TÜRKSOY Teatr mükafatları ilə təltif edilirlər. Bu günlərdə qardaş Türkiyədə TÜRKSOY və "Anadolu" qəzetinin birgə təşkilatçılığı ilə növbəti ilin laureatları mükafatlandırılıblar.**




Türk Dünyasının müxtəlif coğrafiyalarından teatr sənətkarlarını bir araya gətirən mərasimə çox sayda iştirakçı qatılıb. Mərasimdə vurğulanıb ki, belə layihələr TÜRKSOY üzvü olan ölkələrin teatrları arasında qarşılıqlı bədii əlaqələri artırmağı, ortaq mədəni irsi səhnə sənətləri vasitəsilə təşviq etməyi hədəfləyir.

Sonra qaliblər elan edilib. Azərbaycandan həmin mükafata Əməkdar incəsənət xadimi, professor Əli Əmirli layiq görülüb. O, Beynəlxalq TÜRKSOY Teatr nominasiyası üzrə "Ən yaxşı dramaturq" mükafatın laureatı olub.

***Ə.ƏLİYEV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 29 (30998) 14 fevral 2026-cı il, şənbə

## İDMAN

## FHN qurumlarının şahmat çempionatı



**Fövqəladə Hallar Nazirliyinin (FHN) İdman-sağlamlıq klubunun bazasında nazirliyin qurumları arasında komanda və şəxsi birincilik üzrə şahmat çempionatı keçirilib.**

İdman-sağlamlıq klubunun təşkilatçılığı ilə keçirilən çempionatda FHN-in Aparatı və qurumlarının 17 komandasından ümumilikdə 70-ə yaxın əməkdaş iştirak edib. Çempionatın baş hakimi Fikrət Sideifzadə tərəfindən idarə olunan turnirdə yığılan xalların ümumi sayına görə qalib komandalar və əməkdaşlar müəyyən olunub.

5 gün davam edən yarışda Dövlət Yanğından Mühafizə Xidmətinin komandası bütün rəqiblərinə qalib gələrək birinci olub. Mülki müdafiə qoşunlarının komandası 2-ci, Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarət Dövlət Agentliyinin komandası isə 3-cü yerə layiq görülüblər.

Şəxsi yarışlarda çempion adını Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin əməkdaşı Elçin Əsədov qazanıb. 2-ci yerə FHN Akademiyasının kursantı Mehdi Qasımov, 3-cü yerə isə Sumqayıt Regional Mərkəzinin əməkdaşı Şahin Mehdiyev layiq görülüb.

Sonda qaliblərə, fərqlənən hakim və komandaya kubok, diplom, medal və fəxri fərmanlar təqdim olunub.

## Azərbaycan millisi Millətlər Liqasında




**Azərbaycan millisinin UEFA Millətlər Liqasında-kı rəqibləri bəlli olub.**

Belçikanın paytaxtı Brüsseldə keçirilən püşkatmanın nəticəsinə görə, yığmamız D Liqasının 2-ci qrupunda Litva və Lixtenşteyn ilə mübarizə aparacaq.

Qeyd edək ki, UEFA Millətlər Liqasında yeni mövsümə cari ilin sentyabr ayının 24-də start veriləcək. Sentyabrın 27-də Litva – Azərbaycan, oktyabrın 1-də Azərbaycan – Lixtenşteyn, oktyabrın 4-də Azərbaycan – Litva, noyabrın 13-də isə Lixtenşteyn – Azərbaycan qarşılaşmaları baş tutacaq.

Turnirin final mərhələsi 2027-ci ilin iyununda gerçəkləşəcək.

## U17 milli güləş çempionatı başa çatıb




**"MyGroup" Holdingin baş sponsorluğu və "AzerGold" şirkətinin fəxri sponsorluğu ilə yunan-Roma və sərbəst güləş üzrə U17 Azərbaycan çempionatı başa çatıb.**

Gəncə İdman Sarayında təşkil olunan yarışın dördüncü və beşinci günündə sərbəst güləşdə 45, 51, 60, 71, 92, 48, 55, 65, 80 və 110 kiloqramda qaliblər müəyyənləşib.

45 kiloqram çəkidə Tunar Həsənov (Gəncə, AHİTA), 51 kiloqram çəkidə İbrahim Həsənov (Gəncə, "Mywrestling"), 60 kiloqram çəkidə Vahid Məmmədov (Mywrestling), 71 kiloqram çəkidə Tunar Quliyev (Gəncə, "Neftçi"), 92 kiloqram çəkidə Elgün Kərimli (Lənkəran), 48 kiloqram çəkidə Hüseyn Rzazadə (Cəlilabad, Mywrestling), 55 kiloqram çəkidə Abbas Şəfiyev (Lənkəran), 65 kiloqram çəkidə Rəşid Nazarov (ROİL,"Neftçi"), 80 kiloqram çəkidə Nihad Süleymanlı ("Neftçi",Təhsil), 110 kiloqram çəkidə isə Hakim Tağıyev (ROİL, "Neftçi") ölkə çempionu tituluna yiyələniblər.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Böyük Qayıdışın akkordları*

# Xankəndidə Zəfər memorialı

*Qələbəmizin memarlıq təcəssümü*

**Qarabağımız, Şərqi Zəngəzurumuz sürətlə dirçəlir, azadlığına qovuşmuş yurd yerlərimiz gündən-günə abadlaşır. Bugünlərdə doğma sakinlərini qarşılamaqla "Böyük Qayıdış"ın növbəti ünvanına çevrilmiş Xankəndinin də siması dəyişməkdə, gözəlləşməkdədir. Görülən işlərdən, həyata keçirilən bərpa-quruculuq layihələrindən bu tarixi şəhərimizin sanki üzü gülür, burada yaşayanlara, çoxsaylı qonaqlarına qürur dolu anlar, fəxarət duyğuları bəxş edir.**



İndi Xankəndinin gəzməli, görməli məkanları sırasına ötən ilin sonlarında Prezident İlham Əliyev tərəfindən açılışı edilmiş Zəfər parkı da daxil olub. Qısa müddətdə, cəmi 11 ayda inşa edilmiş park həm gözəlliyi ilə göz oxşayır, həm də əksər elementləri ilə rəşadətli



ordumuzun mənfur düşmən üzərində qazandığı şanlı qələbələri gözlər önünə gətirir.

### 44 gün 44 metr yüksəklikdə

Parkın girişindən 44 metr hündürlüyündəki Zəfər tağına doğru irəlilədikcə üzərinə quraşdırılmış lövhələrdə Vətən müharibəsinin gündəlik gedişi və 2023-cü ildə keçirilmiş antiterror tədbirlərinin nəticələrini əks etdirən məlumatlar, azad olunmuş yaşayış məntəqələrinin adları yazılmış 44 pilləli pilləkənin yanından ötürsən. Hər pillənin yanında dayanıb Zəfər tarixi-mizin qızıl hərflərlə yazılmış səhifələrini yenidən vərəqləmək isə xalqımızın tarixi ədalətin bərpası və ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını xatırladır.

Parkın tikintisi zamanı ziyarətçilərin xoş istirahətləri üçün hər şey nəzərə alınıb. Ərazidə genişmiqyaslı abadlıq və quruculuq işləri həyata keçirilib, fəvvarələr yaradılıb, həmçinin işıqlandırma və musiqilərin səsləndirilməsi üçün sistemlər quraşdırılıb. İnşaat işləri zamanı park yerindəki mövcud ağaclar qorunmaqla, ümumilikdə 500-dən çox ağac, 11 mindən artıq kol bitkisi və müxtəlif güllər əkilib. Quraşdırılmış oturacaqlarda indi günün əksər saatlarında əyləşib Zəfərimizin Xankəndidəki yeni simvolunu heyranlıqla seyr edən ziyarətçiləri görmək mümkündür.

Rəmzi olaraq 44 metr hündürlükdə tikilmiş Zəfər tağının terrasına çıxmaq üçün tağın hər 2 tərəfində müasir lift quraşdırılıb. İçəri daxil olub əvvəlcə 9-cu mərtəbədə yerləşən "Zəfər qalereyası" sərgi-nümayiş zalına qalxdıqda, sanki sirli bir aləmə düşürsən. Qalereyada nümayiş olunan şəkillər insanı həyəcan dolu, sevincdən göz yaşları tökdüyümüz o möhtəşəm günlərə qaytarır. Burada Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfərlərinin, şəhər və qəsəbələrdə üçrəngli bayrağımızı ucaltmasının bəxş etdiyi qüruru yenidən yaşamaq mümkündür.

Daha bir mərtəbə yuxarı qalxdıqda isə bir anda özünü hər tərəfdən əsrarəngiz gözəlliklərə açılmış terrasda tapırsan. Elə bir yerdə ki, terrasın seyrangahından baxanda gördüklərini sözlə ifadə etmək asan deyil. Sanki təkcə Xankəndi deyil, Şuşa əlini uzatsan çatacaq məsafədə yaxınlaşır, dağlar boydaşına çevrilir. Buranın havası da bir başqa fərqli, bir başqa təmiz və zirvələrdə qəhrəmanlarımızın düşmən qarşısında qeyrətlə, əzmlə dayandıqları səngərlərdəki kimi daha soyuqdur. Ancaq bu soyuq insanı nəinki üşütmür, əksinə, damarlarında qanını coşdurur...

Terrasda Zəfər Günü ilə bağlı 8 rəqəmini simvolizə edən konstruksiya da inşa olunub. Həmin "8"-i terrasın özündə dayanaraq görmək olmur, təxmin edə bilərsən. Çünki Qələbə bayramımızın tarixi rəqəmini daha yuxarıdan, azad Vətənimizin azad göylərindən görmək mümkündür.

### Yeni ziyarətgahımız

Bu il öz sərt üzünü göstərmiş qışın soyuğuna baxmayaraq, Zəfər parkının qonaqları çox olur. Xankəndi sakinlərinin, burada yaşayıb işləyənlərin, turist kimi işğaldan azad edilmiş torpaqlarımıza üz tutanların əksəriyyəti, ilk növbədə, parkı ziyarət edirlər. Elə bizim parkla tanışlığımız zamanı da gəlib-gedənlər az deyildi. Ziyarətçilər arasında çoxluq təşkil edən gənclərdən bir neçəsinə yaxınlaşıb Zəfər parkı haqqında təəssüratlarını soruşduq.

Qarabağ Universitetinin Azərbaycan dili və ədəbiyyatı fakültəsinin 1-ci kurs tələbələri Nəzrin Əsgərli və Fatimə Muradzadə ilk dəfə gəldikləri parkda qürur hissləri keçirdiklərini bildirdilər. Dedilər ki, sanki 2020-ci ildə baş vermiş Vətən Müharibəsini burada anbaan yenidən yaşadıq. Fəxr edirik ki, qəhrəman oğullarımız sayəsində azad edilmiş Xankəndidəyik. Burada yaşamaq, təhsil almaq, şəhərin gözəl yerlərini görmək bizim kimi minlərlə gəncə qismət olub.

Həyat yoldaşı və oğlu ilə birlikdə Zəfər tağına yaxınlaşan Pərviz Fərzəliyev isə Bakıdan Xankəndiyə qonaq gəldiyini, fürsətdən istifadə edib parkı ziyarət etdiyini dedi:

Bu bizim ilk səfərimizdir. Xankəndinin ab-havası, təmizliyi, gözəlliyi, təbiəti bizi heyran edib. Zəfər parkı da möhtəşəmdir. Parkın ərazisini gəzdik, həm zövq aldıq, həm də qürur duyduq. İndi də terrasa qalxıb ətrafı seyr edəcəyik. Bundan sonra Xankəndiyə tez-tez gəlməyi planlaşdırırıq.

Sözsüz, havalar isinəndə Zəfər parkında daha qələbəlik olacaq, Zəfərimizin möhtəşəm rəmzinə çevrilmiş bu parkın ziyarətçiləri də gündən-günə artacaq!

*Mahir RƏSULOĞLU,*
*"XQ"nin Qarabağ müxbiri,*
*Xankəndi*

# Smartfonların kosmik 5G dövrü başlayır

**Amerikanın AST "SpaceMobile" şirkəti yeni və çox böyük "BlueBird-6" peykini uğurla orbitə yerləşdirdiyini açıqlayıb. Peykin sahəsi 223 kvadratmetrdir və aşağı Yer orbitində yerləşdirilmiş ən böyük kommersiya rabitə peyklərindən biridir.**

Bu peyk adi smartfonlara heç bir dəyişiklik etmədən birbaşa internet və mobil rabitə xidməti göstərmək üçün hazırlanıb. Maksimum sürəti 120 Mbit/s-dir. Şirkət bildirir ki, bu, əvvəlki "BlueBird" peyklərindən 10 dəfə güclüdür. Peyk "beam-forming" adlı texnologiya ilə siqnalları daha dəqiq istiqamətləndirir və bu da 4G və 5G xidmətlərinin, o cümlədən videozənglərin stabil işləməsinə imkan yaradır.

Şirkətin rəhbəri Abel Avellan bildirib ki, bu layihə Amerika mühəndisliyinin mühüm nailiyyətidir və insanların rabitəyə çıxış imkanlarını dəyişəcək. "BlueBird-6" 2025-ci ildə Hindistanda yerləşən kosmodromdan orbitə buraxılıb. Peykin böyük antenna sistemi daha güclü və etibarlı əlaqə təmin edir. Şirkət iddia edir ki, bu texnologiya dünyanın istənilən yerində adi telefonlarla səs, internet və video xidmətləri mümkün edəcək.

Şirkət yaxın vaxtlarda "BlueBird -7" peykini orbitə yerləşdirməyi planlaşdırır. İlin sonuna qədər 45-60 peykin orbitə çıxarılması nəzərdə tutulur. Məqsəd qlobal internet şəbəkəsi yaratmaqdır. AST "SpaceMobile" artıq "AT&T", "Verizon", "Google" və "Vodafone" kimi böyük şirkətlərlə əməkdaşlıq edir və 50-dən çox mobil operatorla razılaşma əldə edib. Bu isə təxminən 3 milyard istifadəçini əhatə edə bilər.

Bununla yanaşı, bu cür böyük peyklər alimləri



narahat edir. Astronomlar bildirirlər ki, peyklər çox parlaqdır və gecə səmasını "çirkləndirir", teleskop müşahidələrinə mane olur. Həmçinin orbitdə peyklərin sayının artması toqquşma riskini yüksəldir. Bu isə zəncirvari qəzalara səbəb olaraq kosmosdan istifadəni çətinləşdirə bilər.

*S.ELAY*
*XQ*

## HAVA

## Aranda yağmursuz, dağlarda yağış və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Mülayim cənub-qərb küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəzlənəcək, arabir güclənəcək.**

Havanın temperaturu gecə 4-9, gündüz 15-20 dərəcə isti olacaq. Atmosfer təzyiqi 753 millimetr civə sütunundan 750 millimetr civə sütununa enəcək. Nisbi rütubət 55-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 0-5, gündüz 13-18 dərəcə isti, dağlarda gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 8-13 dərəcə isti olacağı ehtimal edilir.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Mürsəl İbrahimova anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*✓ 2023-cü il dekabrın 7-də Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işlərini həyata keçirən "AYZ GROUP" MMC-yə verilmiş EL-970/2023 nömrəli lisenziya itdiyi üçün etibarsız sayılır. (VÖEN-1504705211).*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2864
SİFARİŞ 213
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI
Çapa imzalanmışdır 00:00